ADNAN OKTAR (HARUN YƏHYA)

# ATATÜRKÜN VƏTƏN və MİLLƏT SEVGİSİ



ADNAN OKTAR

# ATATÜRKÜN VƏTƏN VƏ MİLLƏT SEVGİSİ

(HARUN YƏHYA)

# MÜNDƏRİCAT

25. Giriş ........ 6

26. Atatürkün vətən və millət anlayışı ........ 8

27. Vətənpərvər və milliyyətçi insanların xüsusiyyətləri ........ 54

28. Nəticə ........ 71

29. TƏKAMÜL YALANI ........ 72

ÖN SÖZ

# OXUCUYA

Bu kitabda və digər əsərlərimizdə təkamül nəzəriyyəsinin süqutuna xüsusi yer ayrılmasının səbəbi bu nəzəriyyənin hər cür din əleyhinə olan fəlsəfənin təməlini meydana gətirməsidir. Yaradılışı və dolayısı ilə Allahın varlığını inkar edən darvinizm, 150 ildir ki, bir çox insanın imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olmuşdur. Buna görə də, bu nəzəriyyənin yalan olduğunu ortaya çıxarmaq əhəmiyyətli imani vəzifədir. Bu əhəmiyyətli xidmətin bütün insanlığa çatdırılması isə zəruridir. Bəzi oxucularımız ola bilər ki, yalnız bir kitabımızı oxumaq imkanı tapa bilər. Buna görə də, hər kitabımızda bu mövzuya qısaca da olsa yer ayrılması uyğun hesab edilmişdir.

Qeyd ediləcək başqa bir məqam isə, bu kitabların məzmunu ilə əlaqədardır. Yazıçının bütün kitablarında imani mövzular Quran ayələri yönündə izah edilir və insanlar Allahın ayələrini öyrənməyə və yaşamağa dəvət edilirlər. Allahın ayələri ilə əlaqədar bütün mövzular oxucuda heç bir şübhə və ya sual buraxmayacaq şəkildə açıqlanmışdır.

Bu mövzuda istifadə edilən səmimi, sadə və səlis üslub isə kitabların hamı tərəfindən rahat başa düşülməsini təmin edir. Bu təsirli və sadə izah sayəsində kitablar “bir nəfəsə oxunan kitablar” ibarəsinə tam uyğun gəlir. Dini qəti şəkildə rədd edən insanlar belə, bu kitablarda bildirilən həqiqətlərdən təsirlənir və yazılanların doğruluğunu inkar edə bilmirlər.

Bu kitab və yazıçının digər əsərləri oxucular tərəfindən şəxsən oxuna biləcəyi kimi, qarşılıqlı söhbət şəraitində də oxuna bilər. Bu kitablardan istifadə etmək istəyən oxucunun, kitabları bir yerdə oxumaları mövzu ilə əlaqədar öz təfəkkür və təcrübələrini də bir-birlərinə ötürmək baxımından faydalıdır.

Bununla belə, yalnız Allahın razılığı üçün yazılan bu kitabların tanınmasında və oxunmasında iştirak etmək də böyük xidmətdir. Çünki yazıçının bütün kitablarında isbat və razı salan tərəfi son dərəcə güclüdür. Buna görə də, dini izah etmək istəyənlər üçün ən təsirli üsul bu kitabların digər insanlar tərəfindən də oxunmasının təşviq edilməsidir.

Kitabların arxasına yazıçının digər əsərlərinin təqdimatının əhəmiyyətli səbəbləri vardır. Bu sayədə kitabı nəzərdən keçirən şəxs yuxarıda yazılan xüsusiyyətləri daşıyan və oxuyacağına ümid etdiyimiz bu kitabla eyni xüsusiyyətlərə sahib daha bir çox əsərin olduğunu görər, imani və siyasi mövzularda faydalana biləcəyi zəngin qaynağın mövcud olduğuna şahid olacaq.

Bu əsərlərdə, digər yerlərdə görülən, yazıçının şəxsi qənaətlərinə və şübhəli qaynaqlara əsaslanan izahlara, dini mentalitetə qarşı lazım olan ədəb və hörmətə diqqət yetirilməyən üslublara, şübhəli və həmçinin incidici yazılara rast gələ bilməzsiniz.

YAZIÇI HAQQINDA

# YAZIÇI VƏ ƏSƏRLƏRİ HAQQINDA

Harun Yəhya təxəllüsündən istifadə edən yazıçı Adnan Oktar, 1956-cı ildə Ankarada anadan olmuşdur. İbtidai və orta təhsilini Ankarada almışdır. Daha sonra İstanbul Memar Sinan Universitetinin İncəsənət fakültəsində və İstanbul Universitetinin Fəlsəfə bölməsində təhsil almışdır. 1980-ci illərdən bu yana imani, elmi və siyasi mövzularda bir çox əsər hazırlamışdır. Bununla yanaşı, yazıçının təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri vardır.

Harun Yəhyanın əsərləri təxminən 30.000 şəklin olduğu cəmi 45.000 səhifəlik külliyyatdır və bu külliyyat 73 fərqli dilə tərcümə edilmişdir.

Yazıçının təxəllüsü inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin xatirəsinə hörmət olaraq adlarını yad etmək üçün Harun və Yəhya adlarından götürülmüşdür. Yazıçı tərəfindən kitabların üz qabığında Rəsulullahın (s) möhürünün olmasının simvolik mənası isə kitabların məzmunu ilə əlaqədardır. Bu möhür Quranın Allahın son kitabı və son sözü, Peyğəmbərimizin (s) Xatəmül-Ənbiya olduğunun rəmzidir. Yazıçı bütün əsərlərində Quranı və Rəsulullahın sünnəsini özünə rəhbər etmişdir. Bu şəkildə inkarçı düşüncə sistemlərinin bütün təməl iddialarını bir-bir ortadan qaldırmağı və dinə qarşı yönələn etirazları tam susduracaq son sözü söyləməyi əsas almışdır. Böyük hikmət və kamal sahibi olan Rəsulullahın möhüründən bu son sözü söyləmək niyyətinin duası olaraq istifadə edilmişdir.

Yazıçının bütün əsərlərindəki ortaq hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allahın varlığı, birliyi və axirət kimi təməl imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və azğın tətbiqlərini gözlər önünə çəkməkdir.

Necə ki, Harun Yəhyanın əsərləri Hindistandan Amerikaya, İngiltərədən İndoneziyaya, Polşadan Bosniyaya, İspaniyadan Braziliyaya, Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana və Rusiyaya qədər dünyanın əlavə bir çox ölkəsində sevilərək oxunur. İngilis, fransız, alman, italyan, ispan, portuqal, urdu, ərəb, alban, rus, boşnaq, uyğur, indoneziya, malay, benqal, serb, bolqar, çin, danimarka və isveç dili kimi bir çox dilə tərcümə edilən əsərlər, xarici ölkələrdə geniş oxucu kütləsi tərəfindən izlənilir.

Dünyanın dörd tərəfində fövqəladə təqdir toplayan bu əsərlər bir çox insanın iman etməsinə, bir çoxunun da imanında dərinləşməsinə vəsilə olur. Kitabları oxuyub araşdıran hər kəs bu əsərlərdəki hikmətli, dolğun, asan aydın olan və səmimi üslubun, ağıllı və elmi yanaşmanı dərk edər. Bu əsərlər sürətli təsir etmə, qəti nəticə vermə, etiraz və təkzib edilə bilinməyən xüsusiyyətləri daşıyır. Bu əsərləri oxuyan və üzərində ciddi şəkildə düşünən insanların artıq materialist fəlsəfəni, ateizmi və digər azğın fikir və fəlsəfələrin heç birini səmimi olaraq müdafiə etmələri mümkün deyil. Bundan sonra müdafiə etsələr də, ancaq duyğusal inadla müdafiə edəcəklər. Çünki fikri dayaqları aradan qaldırılmışdır. Dövrümüzdəki bütün inkarçı cərəyanlar Harun Yəhya külliyyatı qarşısında fikirlə məğlub olmuşlar.

Şübhəsiz, bu xüsusiyyətlər Quranın hikmət və ifadə təsirindən qaynaqlanır. Yazıçı bu əsərlərə görə öyünmür, yalnız Allahın hidayətinə vəsilə olmağa niyyət etmişdir. Bundan başqa, bu əsərlərin çap və nəşrində hər hansı maddi qazanc güdülmür.

Bu həqiqətlər göz önünə alındıqda insanların görmədiklərini görmələrini təmin edən, hidayətlərinə vəsilə olan bu əsərlərin oxunmasını təşviq etməyin də çox əhəmiyyətli xidmət olduğu ortaya çıxır.

Bu qiymətli əsərləri tanıtmağın yerinə insanların zehinlərini bulandıran, fikri qarışıqlıq meydana gətirən, şübhə və tərəddüdləri aradan qaldırmaq və imanı qurtarmaq üçün güclü və iti təsiri olmadığı ümumi təcrübə ilə sabit olan kitabları yaymaq isə əmək və zaman itkisinə səbəb olar. İmanı qurtarmaq məqsədindən çox, yazıçının ədəbi gücünü vurğulamağa yönələn əsərlərdə bu təsirin əldə edilə bilməyəcəyi məlumdur. Bu mövzuda şübhəsi olanlar varsa, Harun Yəhyanın əsərlərinin tək məqsədinin dinsizliyi yox etmək və Quran əxlaqını yaymaq olduğunu, bu xidmətdəki təsir, müvəffəqiyyət və səmimiyyətin açıq şəkildə göründüyünü oxucuların ümumi qənaətindən anlaya bilərlər.

Bilmək lazımdır ki, dünyadakı zülm və qarmaqarışıqlığın, müsəlmanların çəkdiyi əziyyətlərin təməl səbəbi dinsizliyin fikri hakimiyyətidir. Bunlardan xilas olmağın yolu isə dinsizliyin fikirlə məğlub edilməsi, iman həqiqətlərinin ortaya qoyulması və Quran əxlaqının insanların qavrayıb yaşaya biləcəkləri şəkildə izah edilməsidir. Dünyanın gündən-günə daha çox büründüyü zülm, fəsad və xaos mühitini diqqətə aldıqda bu xidmətin mümkün qədər sürətli və təsirli şəkildə edilməsinin lazım olduğu aydındır. Əks halda, çox gec ola bilər.

Bu əhəmiyyətli xidmətdə öndərliyi üzərinə götürən Harun Yəhya külliyyatı Allahın izni ilə 21-ci əsrdə dünya insanlarını Quranda təsvir edilən hüzur, sülh, düzgünlük, ədalət, gözəllik və xoşbəxtliyə daşımağa vəsilə olacaqdır.

I FƏSİL

# Giriş

Ümumi mənada millət; eyni torpaqlar üzərində yaşayan, aralarında dil, tarix, duyğu, məqsəd, ənənə və adətləri olan insan birliyidir. Millətin üzərində yaşadığı torpaq da vətən adlanır. Vətən yalnız üzərində yaşanılan torpaq parçası kimi qəbul edilə bilməz; bir insanın həyatında sahib olduğu ən əhəmiyyətli varlıqlardan biridir. Millət və vətənin hər insan üçün mənası böyükdür. Fərdi güclü edən təməl, aid olduğu millətin mədəniyyət təcrübəsi, tarixi, ənənəvi xüsusiyyətləri kimi ünsürlərdir. Millətin davamlılığını təmin edən əsas element də vətənin bütövlüyünün qorunmasıdır. Türk millətinin vətəninə olan sevgisi və bağlılığı tarixi həqiqətdir və millətimizi digər millətlər arasında üstün edən ən nəcib xüsusiyyətlərdən biridir. Bununla yanaşı hər Türk millətinin mənfəətlərini öz mənfəətlərindən, millətinin gələcəyini öz gələcəyindən üstün tutan bir anlayışa, dərin bir millət sevgisinə malikdir. Türklərin digər bütün millətlərə nümunə olacaq vətən və millət sevgisi, bizə şanlı tariximizin ən əhəmiyyətli miraslarından biridir. Vətən və millət sevgisi çox nəcib sevgilərdir və Türk milləti üçün müqəddəs dəyərlərdir.



Türkiyə Cümhuriyyətinin qurucusu böyük öndər Atatürk də vətənpərvərliyi və millətpərvərliyi ilə bütün dünyaya və Türk millətinə nümunə olmuş insandır. Çox təvazökar şəxsiyyətə sahib olan Atatürk sahib olduğu üstün xüsusiyyətlərini həmişə millətinin ona qazandırdığı xüsusiyyətlər olaraq görmüşdür. Eyni şəkildə qazanılan zəfərləri və əldə edilən müvəffəqiyyətləri də həmişə milləti ilə birlikdə reallaşdırdığını dərk etmiş, bunları həmişə millətinə aid etmişdir. Çıxışlarında və yazılarında bu nöqtəni xüsusilə vurğulamışdır. “Mənim həyatda yeganə fəxrim, sərvətim Türklükdən başqa bir şey deyil” deyərək Türk olmaqdan qürur duyduğunu ifadə etmişdir. Atatürk həyatı boyunca vətən və millət sevgisinin əhəmiyyəti üzərində dayanmış, Türk millətinə duyduğu dərin hörmət və sevgini əhəmiyyətlə vurğulamışdır. “Mən türkəm deyən nə qədər xoşbəxtdir” sözü, şübhəsiz ki, çox üstün sevginin simvoludur.

Atatürk vətən və millət sevgisinin üstünlüyü ilə tanınan, bu sevgisi sayəsində tarixi müvəffəqiyyətlərə imza atmış lider, böyük dövlət adamı idi. İstər Qurtuluş Savaşı əsnasında yaşanan böyük zəfərlərin, istərsə də müstəqilliyin qazanılmasının ardından iqtisadiyyatda və ictimai həyatda qət edilən irəliləmələrin təməl qaynağı Atamızın vətəninə duyduğu dərin sevgi və millətinə qarşı hiss etdiyi güclü bağlılıq idi. Şərtlər nə qədər çətin kimi görünsə də, vətəni və milləti üçün həmişə edəcək bir şeyi olduğuna inanan böyük insan idi. Atatürkün həyatı araşdırıldığında, bütün həyatı boyunca ən böyük məqsədinin Türk millətini müasir sivilizasiya səviyyəsinə çatdırmaq olduğu və bu yolda aparılan böyük mübarizənin də dərin vətən və millət sevgisindən ilham aldığı açıqca görüləcək. Həqiqi sevgi və bağlılıq olmadan, bu cür böyük müvəffəqiyyətlər əldə edilə bilməyəcəyi açıqdır. Bir insan vətənini qorumaq və qurtarmaq üçün verdiyi mübarizədə heç bir çətinlikdən qorxmur, ən çıxılmaz kimi görünən vəziyyətlər qarşısında da ağıllı və təsirli yollar tapa bilir, zəfərə olan inancını və əzmini əsla itirmirsə, bu, uğrunda mübarizə verdiyi dəyərlərə sarsılmaz bir bağlılıq duyduğunun ən əhəmiyyətli göstəricisidir. Atatürkün idealı müstəqil vətən üzərində güclü milli birlik anlayışına sahib bir millət ortaya çıxarmaq və bu millətin heç bir maneə tanımadan müasirləşmə yolunda irəliləməsini təmin etməkdir. Türk millətinin müasir millətlər səviyyəsinə yüksəlməli olduğuna inanan, bu səviyyəyə çıxma haqqına sahib bir millət olduğu həqiqətini tam mənası ilə qavrayan Atatürk vətən və millət sevgisi sayəsində heç kimin düşünə bilməyəcəyi, düşünsə belə reallaşdırmasının mümkün ola bilməyəcəyi bir müvəffəqiyyət qazanmışdır.

> *“Türklərin vətən sevgisi ilə dolu sinələri, düşmənlərin lənətlənmiş ehtiraslarına qarşı daim bir divar kimi yüksələcək” sözləri ilə vətənpərvərliyin əhəmiyyətinə diqqət çəkən Atatürk millətini sevən, millətinə sadiq və millətinə güvənən həqiqi Türk milliyyətçisidir. Və bu əhəmiyyətli həqiqət də göz ardı edilməməlidir ki; vətənini və millətini hər şeydən üstün tutan, bu dərin sevgi üçün lazım olduğunda öz canını da təhlükəyə atan böyük Atatürkün bizə buraxdığı ən əhəmiyyətli miraslardan biri vətənpərvərlik və millət eşqidir. Atamızın bizə buraxdığı böyük mirası onun bizdən gözlədiyi kimi qiymətləndirə bilmək, ölkəmizi onun bizə buraxdığı nöqtədən daha irəliyə apara bilmək, Türk millətini tarixinə yaraşan mövqeyə çatdıra bilmək üçün ediləcək olan Atamızın izindən getməkdir. Bütün vətənpərvərlərin və həqiqi Türk milliyyətçilərinin onlara nümunə ala biləcəkləri ən gözəl nümunə, heç şübhəsiz Atatürkdür. Atatürk isə “Mənim, Türk milləti üçün etmək istədiklərim və bacarmağa çalışdıqlarım ortadadır. Məndən sonra məni mənimsəmək istəyənlər, bu əsas təməl üzərində ağıl və elmin rəhbərliyini qəbul etsələr, mənəvi varislərim olarlar” sözləri ilə bizə hədəfə çatacaq ən qısa yolu göstərir.*

II FƏSİL

# Atatürkün vətən və millət anlayışı



Giriş hissəsində millət anlayışının ümumi tərifini vermişdik. Bu tərif ümumi qəbul olunmaqla yanaşı, millət anlayışı ilə nəzərdə tutulanı tam mənası ilə açıqlamaqda yetərli deyil. Əvvəlcə bunu ifadə etmək lazımdır ki, millət tərifi içində yer alan xüsusiyyətlərin heç biri tək başına bir milləti meydana gətirməz. Digər sözlə, yalnız dil birliyi və ya yalnız mənşə birliyi, ya da yalnız inanc birliyi eyni torpaq parçası üzərində yaşayan insanların millət olması üçün yetərli şərt deyil. Bir milləti millət edən təməl şərt bu insan birliyinin ortaq keçmişə və ortaq gələcək hədəfinə sahib olmasıdır. Atatürkün millət tərifini də məhz bu anlayış meydana gətirir. Atatürkə görə bir birliyin millət sayıla bilməsi üçün "zəngin xatirə mirasına sahib olmaq, birlikdə yaşamaq barəsində ortaq istəkdə səmimi olmaq, sahib olunan mirasın qorunmasını birlikdə davam etdirə bilmə mövzusunda ortaq iradəyə sahib olmaq, gələcək üçün eyni proqramı reallaşdırmağı istəmək və birlikdə sevinmək, birlikdə eyni ümidləri bəsləmək" lazımdır. Bu təməl şərtin təmin edilməsi ilə birlikdə, əlbəttə dil, din, irq birliyi də əhəmiyyətli dəstəkləyici ünsürlərdir. Xüsusilə ana dili insanları düşüncə, ruh və mədəniyyət baxımından bir-birinə bağlayan əhəmiyyətli element olduğu üçün millət olmanın da əsas şərtlərindən biridir. Atatürkə görə "əsas millətdir, ilham və güc qaynağı millətin təməlidir. Bir millət üçün xoşbəxtlik olan bir şey, digər bir millət üçün fəlakət ola bilər. Eyni səbəblər və şərtlər birini xoşbəxt etdiyi halda, digərlərini bədbəxt edə bilər"; elə isə, hər millət ağıl və elm yolu ilə sadəcə öz dəyərlərini və mənfəətlərini tapmalıdır.

Atatürk üçün bütün millətlərin tarix səhnəsində ayrı yeri vardır və o bütün millətlərə hörmət edər, amma Türk millətinin yeri tamam ayrıdır. Atatürk bu qərara tarixi məlumatlara və sənədlərə əsaslanaraq gəlmişdir. Tarixə xüsusi marağı olduğu bilinən Atatürk Cümhuriyyətin elan olunmasından sonra tarixi çalışmalara əhəmiyyət vermiş, bu çalışmaları millətimizin tarixi

şüurunun inkişaf etdirilməsi və şanlı mirasımızın hər kəs tərəfindən öyrənilməsi üçün istifadə edilməsini istəmişdir. Xüsusilə Atatürk dövründə, tarix sahəsində aparılan böyük çalışmalarla Türkün keçmişi işıqlandırılmışdır.

Üstəlik, Atatürkə görə bir milləti başqa millətlərdən ayıran təməl xüsusiyyətlər vardır. Atatürk Türk millətinin xüsusiyyətlərini çox əhatəli təsbit etmiş və millət şüuru tam olaraq inkişaf etməmiş olan şəxslərin də bu xüsusiyyətləri ən gözəl şəkildə qavraya biləcəkləri bir mühit hazırlamışdır. Bir sözündə Atatürk Türk milləti haqqında belə söyləmişdir:



Tarixə şanlı zəfərləri ilə keçən IV Murad və Osmanlı ordusu, Bağdad qarşısında.

> *"Türk milləti milli duyğunu, insani duyğuyla yan-yana düşünməkdən zövq alar. Vicdanında milli duyğunun yanına insani duyğunun şərəfli yerini daim mühafizə etməklə fəxr edər. Çünki Türk milləti bu gün sivilizasiyanın uca yolunda müstəqil və lakin özü ilə paralel gedən bütün mədəni millətlərlə qarşılıqlı insani və mədəni əlaqədə olmağın inkişafımızın davamı üçün əhəmiyyətli olduğunu bilir və Türk millətinin hər mədəni millət kimi keçmişin bütün dövrlərində kəşfləri, ixtiraları ilə mədəni dünyaya xidmət etmiş insanların, millətlərin dəyərini təqdir etdiyi və xatirələrini hörmət ilə mühafizə etdiyi məlumdur. Türk milləti insaniyyət aləminin səmimi ailəsidir."*




"Mənim üçün dünyada ən böyük mövqe və mükafat, millətin bir fərdi olaraq yaşamaqdır. Əgər Allah Təala məni bunda müvəffəq edibsə, şükür edərəm. Bu gün olduğu kimi, ömrümün sonuna qədər millətin xidmətində olmaqla fəxr edəcəyəm." (M. Kamal Atatürk)

Atamızın da vurğuladığı kimi, Türk milləti millət olmanın əhəmiyyətini dərk edir. Bununla yanaşı Atatürkə görə, hər millət öz qabiliyyətləri, mədəniyyəti və imkanları çərçivəsində bir quruluş ortaya qoyar və bu quruluşu digər millətlərə qəbul etdirməklə, digər millətlərlə bir yerdə, hüzur və güvən çərçivəsində həyat meydana gətirməklə məsuldur. Millətin varlığını davam etdirmək üçün sahib olmalı olduğu xüsusiyyətlərin müdafiə olunması və qorunması da "milliyyətçilik" adlandırılır. Atatürk milliyyətçiliyində isə həqiqi Türk milliyyətçisinin təməl məqsədi Türkün hər sahədə yüksəlməsinin təmin edilməsidir. Bunun üçün də Türk milliyyətçisi müasirləşmə yolunda heç bir maneə tanımayacaq, inkişaf etmiş dövlətlərin səviyyəsinə çatarkən özündən və dəyərlərindən əsla uzaqlaşmayacaq, bununla birlikdə onlarla uyğunlaşacaq və bütün xüsusiyyətləri ilə insanlığa nümunə olacaq. Türk milliyyətçiliyinin təməli, ənənəsindən və adətlərindən heç bir şey itirməməsi, mənəvi dəyərlərini qorumasıdır. Çünki Atatürkə görə həqiqi millət sevgisi belə milliyyətçilik anlayışı tələb edir və müvəffəqiyyət də ancaq belə anlayış ilə əldə edilə bilər.

Atatürkün Türk milliyyətçiliyi üzərində bu qədər çox dayanmasının tarixi səbəbləri vardır. Türklərin dünya tarixinə və sivilizasiyalara etdiyi üstün xidmətlər məlumdur. Türk milləti dünya tarixinə damğasını vurmuş bir millətdir. Unudulmaz zəfərlər qazanmış, tarixə qəhrəmanlıq dastanları yazdırmış, üç qitədə köklü dövlətlər qurmuş, əsrlər boyunca dinləri, dilləri, irqləri fərqli olan millətlərə hökmdarlıq etmiş, hamısını ədalət və tolerantlıq ilə idarə etmiş, ayaq basdığı yerlərə mədəniyyət aparmış, əxlaqı ilə dünya millətlərinə nümunə olmuşdur. Türkün qəhrəmanlıqları, qabiliyyətləri və üstün əxlaqı tarixə keçmişdir. Atamızın "Türk millətinin xarakteri yüksəkdir" sözü ilə də işarə etdiyi kimi Türk millətinin əxlaqi xüsusiyyətləri və yüksək səciyyəsi digər bütün millətlərdən diqqət çəkən şəkildə üstündür. Bir çox tarixçi və sosioloq da bu mövzuda həmfikirdir.

Atatürkün anlayışına görə, belə üstünlüklərə və xüsusiyyətlərə sahib millətin vətəni də müqəddəsdir. Vətən sevgisi, milliyyətçiliyin başlıca elementlərindəndir və Türk milliyyətçisi həqiqi

vətənpərvərdir. Atatürk Türk millətinin vətənini belə adlandırır:

> *“Vətənimiz, Türk millətinin köhnə və yüksək tarixi və torpaqlarının dərinliklərində varlıqlarını davam etdirən əsərləri ilə bugünkü yurddur. Vətən heç bir qeyd-şərtsiz ayrılıq qəbul etməz və bütövdür.”*



Bir insanın milli duyğu şüuru içində öz torpaqlarına sahib olması qədər gözəl duyğu yoxdur. Öz torpağına sahib olma duyğusu milliyyətçilik qanununun zəruri nəticəsidir. Mustafa Kamal da bu duyğuya bütün insanlara nümunə olacaq şəkildə sahib olmuş və bunu hərəkətlərinin yanında bu sözləriylə də ifadə etmişdir:



> *“Millətlər işğal etdikləri ərazinin həqiqi sahibi olmaqla yanaşı, bəşəriyyətin vəkilləri kimi də o ərazidə olurlar. O ərazinin sərvətindən özləri istifadə edərlər və dolayısilə, bütün bəşəriyyəti də faydalandırmaqla məsuldurlar. Bu qanuna görə bundan aciz olan millətlər müstəqil olaraq yaşamaq haqqına layiq deyildirlər.”*

Avropalıların "Xəstə adam" deyə xarakterizə etdiyi bir milləti ayağa qaldıran böyük qurtarıcı Atatürk içindəki coşğun vətən sevgisi ilə həmişə Türk millətinin müstəqilliyini hədəfləyərək ölkəni əvvəl hərbi, sonra da ictimai və iqtisadi sahələrdə zəfərdən zəfərə daşımışdır. "Yurd torpağı, sənə hər şey fəda olsun. Müqəddəs olan sənsən. Hamımız sənin üçün fədaiyik. Lakin sən, Türk millətini əbədi həyatda yaşatmaq üçün feyzli qalacaqsan" sözləri də Atatürkün nümunəvi vətən sevgisinin bəlkə də ən gözəl, ən mənalı ifadəsidir.



Böyük Öndər vətənin özü üçün nə mənanı verdiyini və həyatını vətəni uğrunda fəda etməkdən şərəf duyduğunu isə belə ifadə edir:



Atatürk milliyyətçiliyində özünü bu vətənin övladı olaraq görən və Türk qəbul edən hər kəs Türkdür. Atamızın, "Diyarbəkirli, Vanlı, Ərzurumlu, Trabzonlu, İstanbullu, Trakyalı və Makedoniyalı hamısı bir millətin övladları, hamısı eyni cövhərin damarlarıdır" sözləri bu nəcib anlayışın ən gözəl nümunəsidir.

*“Mənim çox böyük ehtiraslarım var; lakin bu ehtiraslar, yüksək mövqelər işğal etmək və ya böyük pullar əldə etmək kimi maddi əməllərin təmini ilə əlaqədar deyil. Mən bu ehtiraslarımın reallaşmasını vətənimə böyük faydaları toxunacaq, mənə isə lazım olduğu kimi icra edilmiş bir vəzifənin daxili rahatlığını verəcək böyük bir fikrin müvəffəqiyyətində axtarıram. Bütün həyatımın qanunu bu olmuşdur. Ona çox gənc yaşımda sahib oldum və son nəfəsimə qədər də onu qoruyacağam.”*

## HÖRMƏTLİ ADNAN OKTARIN AZƏRBAYCAN AZADLIQ QƏZETİNƏ VERDİYİ REPORTAJI, 14 SENTYABR 2008-Cİ İL

ADNAN OKTAR: Atatürk dindar, ağlı başında, həqiqi Türk milliyyətçisi, aslan kimi Osmanlı zabitidir. Və igid Türk dəliqanlısıdır. Bundan başqa nə etsin? Almalılı təfsiri etdirmişdir. Ən əhəmiyyətli hədis kitabı olan Buxarini tərcümə etdirmişdir. Almalılı təfsiri ən mükəmməl təfsirdir. Diyanət İşləri Nazirliyini qurmuşdur. Dini əslinə qaytarmışdır. Yəni səmimi yaşanmasını təşviq etmişdir. Demək olar ki, hər axşam Quran oxuyub, dinləyən insandır. Onun ətrafında məşhur hafizlər var idi, onlara Quran oxudub onu zövqlə dinləyən insan idi. Və Quran üzərində ciddi araşdırmaları olan mədəni insan idi. Türkiyə işğal edilmişdi, bu işğalı tamamilə ortadan qaldırır. Bu, mükəmməl fəaliyyətdir. Türkiyədə düşmən deyə bir şey qalmır. Hamısını püskürdür və geri göndərir. Və milli dövləti qurur. Hörmət olunan dövlət meydana gətirir. Bütün ölkələrin bəyəndiyi bir sistem meydana gətirir. Həm də Peyğəmbərimizi (s.ə.v.) böyük sevgi ilə tərifləyir. Üstəlik, Allaha qarşı sevgisini coşğu ilə dilə gətirir. Bu çox əhəmiyyətlidir. Coşğu ilə Allaha olan sevgisini, bağlılığını ifadə edir. Peyğəmbərə (s.ə.v.) olan sevgisi də çox böyükdür. Ona tam iman gətirilməli olduğunu söyləyir. Başqa heç bir şey etməsə belə “La ilahə illəllah, Muhamməndən Rəsulullah” deyən bir insanın müsəlman olduğu bilinir. Atatürk “La ilahə illəllah, Muhammədən Rəsulullah” dediyi kimi, İslama çox böyük xidmət etmiş bir insandır. Tam İslam mücahididir. Türk mücahididir. Edilə biləcək ən mükəmməli etməyə cəhd göstərmiş insandır.

## HÖRMƏTLİ ADNAN OKTARIN KANAL 35 TV REPORTAJI, 14 DEKABR 2008-Cİ İL

ADNAN OKTAR: Atatürk Türk Birliyini, İslam Birliyini müdafiə etmişdir, Almalılı Həmdi Yazar Əfəndinin Almalılı Təfsirini hazırlatdırmışdır, Səhih Buxarini tərcümə etdirmişdir, hər gecə Quran oxuyub dinləyən bir insan idi. Mən şəxsən onun yanında olan Ülkü xanımdan özüm eşitdim, mənə söylədi. Atatürk xalis, muxlis, igid Osmanlı bəyəfəndisidir, xalis müsəlman, Türk, Türk milliyyətçisi və çox səmimi insandır. Amma masonlar öz ağıllarınca oyun oynamağa, Atatürkü tam fərqli tanıtmağa çalışdılar, biz bu oyunu pozduq. Atatürkün o zaman mason lojalarını niyə bağladığını düşünmək lazımdır. Mason lojalarını Əbdülhəmid belə bağlaya bilməmişdi, heç bir dövrdə Osmanlı

lojası bağlanılmadı, amma Atatürk cəsarətlə tək gecə təlimatı ilə lojaları bağlatdırdı. Gecə təlimatı ilə bitirdi və çox ağır danışmışdı, ağzına sağlıq, çox da gözəl söyləmişdi. Kommunizmə qarşı idi. "Bəylər, Türk aləminin ən böyük düşməninin kommunistlik olduğu unudulmamalıdır, dərhal hər görüldüyü yerdə əzilməlidir" deyirdi. Möhtəşəm ifadədir... Atatürk həm şiddətli anti-kommunist, anti-mason və inanclı, müsəlman övladı idi... Mənim Atatürk haqqında yazdığım əsər Cümhuriyyət tarixində ən keyfiyyətli, ən gözəl əsərlərdir. İstər dizaynı, bəzəyi, izahatı, texnikası, istərsə də üslub olaraq ən mükəmməlidir. Atatürklə bağlı kitabların ağ-qara nəşr olunduğunu bilirsiniz, solğun şəkildə idi. Mən Atatürk haqqında kitabın necə nəşr olunacağını göstərdim. İllər sonra, ondan sonra təqlidən bir şeylər etməyə çalışdılar, amma yenə də olmadı.

## Atatürk milliyyətçiliyi



Təbii gözəllikləri ilə məşhur Qaradəniz bölgəmizdən bir mənzərə
Çanaqqala döyüşü əsnasında ön sipərlərdə vəzifə yerinə yetirən Atatürk.

Atatürk Türk millətini "Türkiyə Cümhuriyyətini quran Türk xalqına, Türk milləti deyilir" sözləri ilə tamamlamışdır. Atatürkə görə Türk xalqı bir-biriylə qaynaşmış, müştərək bir keçmişə və mədəniyyətə sahib, milli ideallar üçün gələcəkdə birlikdə yaşama arzusunda olan birlik olaraq Türk millətini meydana gətirir. Atatürk milliyyətçiliyində özünü Türk sayan və Türk millətinə mənsub olmanın şərəf və şüuruna sahib hər kəs Türkdür. Bu şüur, Türk millətini milli ideal üçün çalışmağa sövq edən ən əhəmiyyətli gücdür.



Osmanlı İmperatorluğunun I Dünya Müharibəsi əsnasında böyük məğlubiyyətə məruz qalmasından sonra Qərb dövlətləri dərhal Osmanlı torpaqlarını paylaşmaq üçün planlar qurmağa başladılar. Sir William Opren tərəfindən çəkilən bu portretdə, 28 iyun 1919-cu il tarixində Parisdə Osmanlı torpaqlarının paylaşılması üçün bir yerə gələn liderlər görülür.



Türkün əli böyükdür. Hər yeri dolduran Türkdür və hər yeri işıqlandıran Türkün üzüdür. Diyarbəkirli, Vanlı, Ərzurumlu, Trabzonlu, İstanbullu, Trakyalı və Makedoniyalı hamısı bir millətin övladları, eyni cövhərin damarlarıdırlar. Bu damarlar bir-birini tanısın. Bu dediyim şey olduğu

zaman, başqa bir aləm görüləcək və dünya heyrətlənəcək. Türkün varlığı bu köhnə aləmə yeni üfüqlər açacaq.



“Milli mədəniyyətin hər cığırda açılaraq yüksəlməsini, Türkiyə Cümhuriyyətinin təməl dirəyi olaraq təmin edəcəyik. “

**M. Kamal Atatürk**

Atatürk milliyyətçiliyi başqa millətlərin milli mədəniyyətlərinə və müstəqilliklərinə hörmət edir. Atatürkün, “Bizə milliyyətçi deyirlər; biz elə milliyyətçilərik ki, bizimlə əməkdaşlıq edən bütün millətlərə hörmət edirik” sözləri ilə milliyyətçilik anlayışının nəzakətini və sülhpərvərliyini ortaya qoymuşdur. Bu sülhpərvər siyasət, “Yurdda sülh, dünyada sülh” sözləri ilə formalaşmışdır. Bununla yanaşı, Atatürk milliyyətçiliyində əsas hədəf Türk millətinin özünə yaraşan şəkildə şərəfli bir millət olaraq varlığını davam etdirməsidir. Bunun üçün əsas şərt müstəqillikdir; bundan sonra edilməli

olan isə, dünya millətləri arasında, onlarla bərabər haqlara sahib bir mövqeyə gəlmək və hətta digər millətlərin liderliyini boynuna götürə bilməkdir. Bu milliyyətçilik bugünkü vətənimizin sərhədləri ilə çəkilən, yeni torpaqlara sahib olma həvəsindən təmizlənmiş, lakin müstəqil və azad yaşamağa qəti əzmli, dünya millətlərini bir ailə sayan, hər millətin haqlarına hörmətcil, öz haqlarını və şərəfini qorumaqda qərarlı, digər sözlə "insani Türk milliyyətçiliyi"dir.

Türk milliyyətçiliyi perspektiv və inkişaf yolunda və beynəlxalq əlaqələrdə bütün müasir millətlərlə eyni xətdə və onlarla uyğun olmaqla yanaşı, Türk cəmiyyətinin xüsusi xarakterlərini və başlı başına müstəqil şəxsiyyətini gizli tutmaqdır.

Bu milliyyətçilikdə Türk millətinin müstəqilliyi üçün gözə alına bilməyəcək fədakarlıq yoxdur. Çünki milliyyət duyğusu bir cəmiyyətdə fərdlərin özlərini bütünə bağlı və onun bir ünsürü olaraq görmələri və o millətin davamlılığı üçün varlıqlarını ortaya qoymağa hazır olmalarıdır. Böyük öndər heç bir zaman irqçilik təməlinə əsaslanan milliyyətçiliyi müdafiə etməmiş, həmişə mədəni milliyyətçiliyinin tərəfdarı olmuşdur. Ortaq tarix və mədəniyyətə sahib olan insanımızı milli şüur altında birləşdirməyə çalışmışdır. Gənc Türkiyə Cümhuriyyətinin də ancaq bu şəkildə güclənə biləcəyini ifadə edərək, "Biz birbaşa millətpərvərik; Cümhuriyyətimizin əsası Türk ictimaiyyətidir. Bu ictimaiyyətin fərdləri nə qədər Türk mədəniyyəti ilə dolu olsa, o ictimaiyyətə istinad edən Cümhuriyyət də qüvvətli olar" demişdir. Atatürk Türk milliyyətçiliyinin təməli hesab etdiyi milli əxlaqı isə belə qiymətləndirmişdir:

> *"Həqiqətən də, əxlaq xüsusi fərdlərdən ayrı və bunların üstündə, ancaq ictimai, milli ola bilər. Millətin sosial nizam və sükutu, hal və gələcəkdə rifahı, xoşbəxtliyi, salamat və toxunulmazlığı, sivilizasiyada irəliləməsi, yüksəlməsi üçün insanlardan hər mövzuda məlumat, səy, nəfsin fərəqətini, lazım olduğu zaman sevə-sevə nəfsinin fədasını tələb edən milli əxlaqdır. Mükəmməl bir millətə milli əxlaqın gərəkləri o millət fərdləri tərəfindən sanki mühakimə edilmədən vicdani, romantik bir səbəblə edilər. Ən böyük milli duyğu, milli həyəcan məhz budur. Millət analarının, atalarının, müəllimlərinin və böyüklərinin evdə, məktəbdə, orduda, zavodda, hər yerdə və hər işdə millət uşaqlarına, millətin hər fərdinə bezmədən və mütəmadi olaraq verəcəkləri milli tərbiyənin məqsədi bu yüksək milli duyğunu gücləndirmək olmalıdır. Əxlaqın milli, ictimai olduğunu söyləmək və cəmiyyətin vicdanının bir ifadəsidir demək eyni zamanda əxlaqın müqəddəs sifətini də tanımaqdır."*

## Milli suverenliyin əhəmiyyəti

Atatürkün millət sevgisini göstərən əhəmiyyətli sübutlarından biri də millətin üzərindəki bütün təzyiqləri və təkbaşına idarələri ləğv edərək, milləti özünün idarəçisi mövqeyinə gətirməsidir. Milli mübarizə "millətin istiqlalını yenə millətin əzm və qərarı qurtaracaq" sözləri ilə başlamışdır. "Suverenlik qeydsiz-şərtsiz millətindir" sözü isə Atamızın millətinə verdiyi dəyərin göstəricilərindən biridir. Suverenlik idarə edən və təşkil edən güc, bölünməz qüvvətdir. Əgər bir ölkədə bu güc, o ölkədə yaşayanlara aid deyilsə, ölkənin xaricindən gəlirsə, o zaman bu ölkədə güclü və müstəqil dövlətin varlığından bəhs edilə bilməz. Bu, tam mənası ilə istismar nizamıdır. Bu səbəbdən, güclü dövlətdə bu iradənin, şübhəsiz, o ölkənin içindən çıxması, digər sözlə milli olması əsas şərtdir. Atatürkün nəzərdə tutduğu "milli" və "suverenlik" sözlərinin birləşməsindən ibarət olan "milli suverenlik" anlayışı isə millətin sahibliyi, millətin suverenliyi mənasını verir. Buna görə bir dövlət üstündə heç bir xarici gücün təsiri olmadığı kimi, millətin üstündə də heç bir sinif, klan və ya insana imtiyaz tanına bilməz. Millətin iradəsinin üzərində başqa bir iradə və güc yoxdur.

I Dünya Müharibəsinin müttəfiq güclərin məğlubiyyəti ilə nəticələnməsinin ardından Osmanlı imperatorluğunun torpaqları parçalanmağa başlanmış, ölkənin dörd tərəfi düşmən tərəfindən işğal edilmişdi. Bu dövrdə düşmənə qarşı hansı strategiya izləniləcəyi, son hədəfin nə olduğu haqqında ölkənin ziyalıları və qabaqcılları arasında müxtəlif mübahisələr vardı. Bir qrup xarici gücün səlahiyyəti altına girmənin vacib olduğunu müdafiə edərkən, başda Mustafa Kamal olmaqla müstəqillik yanlısı bir qrup da səlahiyyəti bir növ əsarət mənasını verdiyini və Türk millətinin əsla əsarəti qəbul edə bilməyəcəyini, tək həllin müstəqillik olduğunu müdafiə edirdi. Səlahiyyət tərəfdarları arasında da hansı ölkənin səlahiyyəti olunacağı mövzusunda fikir ayrılığı vardı. Bəziləri İngilis səlahiyyətini müdafiə edərkən, bəziləri də Amerikan səlahiyyətini qəbul edilməli olduğunu iddia edirdilər.



Atatürk isə ən başından bəri müstəqilliyi Türk milləti üçün tək çarə olaraq gördüyünü və yeni Türk dövlətinin qurulması üçün yola çıxdığını "Nitq"də belə söləyirdi:

> *"Əfəndilər, mən bu fikirlərin heç birisini (səlahiyyəti nəzərdə tutaraq) uyğun hesab etmirəm. Çünki bu qərarların əsaslandığı təməllər və məntiqlər səhv və əsassız idi. Həqiqidə, o dövrdə Osmanlı dövlətinin təməlləri çökmüş və dövrü sona çatmışdı, Osmanlı ölkəsi tamamilə parçalanmışdı, ortada bir ovuc Türkün sığındığı ana yurdu qalmışdı. Son məsələ bunun da parçalanmasını təmin etmək idi. Nəyin və kimin qorunması üçün, kimdən nə kömək istənirdi. O halda həqiqi qərar nə ola bilərdi? Əfəndilər, bu vəziyyət qarşısında bir tək qərar vardı. O da milli suverenliyə əsaslanan, qeydsiz-şərtsiz yeni Türk dövləti qurmaqdır. Hələ İstanbuldan çıxmadan düşündüyümüz və Samsunda Anadolu torpaqlarına ayaq basan kimi tətbiqə başladığımız qərar bu olmuşdur."*

Beləliklə, hələ işin əvvəlindən izləniləcək strategiya və məqsəd təyin olunmuş və milli suverenliyə əsaslanan yeni Türk dövlətinin qurulmasına addım-addım gedilmiş və sonunda məqsədə çatılmışdır. Əlbəttə, belə hədəfin təyin olunmasının təməlində Mustafa Kamalın Türk millətinə duyduğu güvənin böyük payı vardır, "milli suverenlik" qanununun dayağı Türk xalqıdır.



Qəhrəman Türk milləti tarix boyunca vətəni üçün can verməkdə bir an belə tərəddüd etməmişdir.
Hər qarışı şəhid qanları ilə sulanmış vətən torpağı, bütün Türk milləti üçün müqəddəsdir.
"Səmimi olaraq bu məmləkətin, bu millətin mənfəəti üçün ediləcək bir iş olsun, mən onu göz önünə almayım; bu, mümkün deyil. Yalnız işin həqiqətən də, millət üçün mənfəəti olmalı və təklifin səmimi olaraq edildiyinə mən inanmalıyam."

**M. Kamal Atatürk**

Bunu da ifadə etmək lazımdır ki, müstəqillik və milli suverenlik fikri Samsuna gedildiyi anda yaranmış fikir deyil, Atatürkün gənclik illərindən etibarən düşündüyü və planladığı düşüncədir. Mustafa Kamalın hələ 1906-cı ildə Selanikdə yoldaşları ilə etdiyi söhbətlərdə bu anlayışı gündəmə gətirdiyi tarixi sənədlərdə yer alan bir məlumatdır. 1917-ci ildə Suriya cəbhəsində yazdığı qeydlərdə və cəbhədən göndərdiyi məktublarda isə "mütləqiyyətin yerini milli suverenliyin almalı olduğunun" üzərində dayanırdı. Yenə əsgərlik illərində Selanikdə Hərbi Rüşdiyyə müəllimlərindən Haqqı Parsın evində edilən bir yığıncaqda "... Azadlıq olmayan bir məmləkətdə ölüm və tənəzzül vardır. Hər tərəqqinin və qurtuluşun anası azadlıqdır" sözləri ilə izləniləcək yolu təyin etmişdir. Müstəqillik olmadan, müasir dövlət qurula bilinməyəcəyinin fərqində olan Atamız azad olmayan bir ölkədə yaşamaqdansa, hər cür təhlükəyə sinə gərərək, müstəqil bir millət üçün çalışmağı gözə almışdır. Başqa millətlərin idarəsi altına girmiş bir millətin zamanla tarix səhnəsindən silinəcəyini bilərək, "Mən yaşaya bilmək üçün mütləq müstəqil bir millətin övladı olaraq qalmalıyam. Milli istiqlal məncə bir həyat məsələsidir" demişdir.

Samsuna getdiyi tarix isə Atatürkün illərdir üzərində düşündüyü bir planın həyata keçirilməsinin ilk addımıdır. Samsuna getməyin bir başqa mənası da xalqa yönəlmək, yalnız xalqın tələb etdiyi istiqamətdə yol izləməkdir. Mustafa Kamal və yoldaşlarının ilk hədəfi, əlbəttə, düşmənin vətən torpaqlarından çıxarılması idi. Ancaq bunun üçün öncəliklə milli güclərin birləşdirilməsi lazım idi. Məhz bu nöqtədə Atamızın Türk millətinə duyduğu sevgi xalqda bir daha Türk mənliyinin canlanmasını təmin etmişdir. Xalqımız da işğal, yoxluq və müxtəlif çətinliklərə baxmayaraq, müstəqillik mövzusunda əsla güzəştə gedilməyəcəyini, vətənimizin qorunması üçün bütövlüklə döyüşüləcəyini, bunun üçün hər şeyi itirməyə də razı olduğunu bildirmiş və Mustafa Kamal Paşa və yoldaşlarına tam dəstək vermişdir. Mustafa Kamalın Anadoluya çıxışını izləyərək Amasiya təmimnaməsində milli suverenliyin təməl qanun olduğu belə vurğulanılır:



> *"Vətənin bütövlüyü və millətin müstəqilliyi təhlükədədir. İstanbul hökuməti məğlub edilən dövlətlərin təsiri altında olduğundan, yükləndiyi məsuliyyətlərinin gərəyini yerinə gətirə bilmir. Bu vəziyyət xalqımızı yox olmuş kimi göstərir. Xalqın müstəqilliyini yenə xalqın qəti qərarı və müqaviməti qurtaracaq."*

Hər kənd, məhəllə, nahiyə, qəsəbə və mahalda, oranın xalqı tərəfindən seçilən üzvlərdən ibarət olan "Kuvayi Milliyə" təşkilatlarının təməlində Atamızın müstəqillik eşqi və milli suverenliyə verdiyi əhəmiyyət dayanır. TBMM-nın açılışı isə milli iradəyə əsaslanan yeni Türk dövlətinin ortaya çıxmasının nəticəsidir. 23 aprel 1920-ci il tarixində açılan TBMM Mustafa Kamalın arzu etdiyi "milli suverenliyin" qurulmuş halı olmuşdur.

Görüldüyü kimi, milli suverenlik anlayışı, Atatürkün Türk millətinin aydın gələcəyi üçün əhəmiyyətlə üzərində dayandığı bir anlayışdır. Milli suverenlik anlayışına əsaslanan bir sistemin qurula bilməsi üçün tarixi mübarizə verilmişdir. Atamız, "Böyük ölülərə matəm lazım deyil, fikirlərinə bağlılıq lazımdır" demişdir və bu sözləri ilə də açıqca ortaya qoyduğu kimi tək istəyi, millətinin, onun çəkdiyi yolda getməsi və əsla ümidsizliyə düşmədən davamlı irəliləməsidir. Bu istəyi yerinə yetirmək bütün vətənpərvərlərin və milliyyətçilərin ən qabaqcıl məsuliyyətlərindən biridir.

## Müstəqillik mübarizəsi

Vətənin müstəqilliyi, millətin azad gələcəyi üçün yola çıxan Mustafa Kamal və yoldaşlarının Amasya, Ərzurum və Sivasda xalq nümayəndələrinin iştirakı ilə aldığı qərarlar, vətən və millət sevgisinin ən gözəl ifadələridir:



◉ Vətənin bütövlüyü, millətin istiqlaliyyəti təhlükə altındadır.



◉ Milli sərhədlər daxilindəki vətən parçaları bir bütündür, bir-birindən ayrıla bilməz.

AMASYA MÜQAVİLƏSİ (22 iyun 1919-ci il)

1. Vətənin bütövlüyü, millətin istiqlalı təhlükə altındadır.

2. İstanbul hökuməti üzərinə götürdüyü məsuliyyətin zərurətlərini yerinə yetirə bilmir. Bu hal, millətimizi sanki yox olmuş göstərir.

3. Millətin istiqlalını, yenə millətin əzm və qərarı qurtaracaq.

4. Millətin içində olduğu vəziyyət və şərtlərə görə hərəkətə keçmək və haqlarını yüksək səslə dünyaya bildirmək üçün hər cür təsir və idarədən uzaq milli heyətin varlığı zəruridir.

5. Anadolunun hər baxımdan ən təhlükəsiz yeri olan Sivasda tələsik milli konqresin toplanması qərarlaşdırılmışdır.

6. Bunun üçün bütün vilayətlərin hər mahalından millətin etibarını qazanmış üç nümayəndənin mümkün olduğu qədər tez yetişmək üçün dərhal yola çıxarılması zəruridir.

7. Hər ehtimala qarşı bu məsələ milli sirr halında tutulmalı və nümayəndələri əhəmiyyətli görülən yerlərdə səyahətlərini özlərini tanıtmadan etməlidirlər.

8. Şərq vilayətləri adına, 10 iyulda Ərzurumda konqres toplanacaq. Bu tarixə qədər digər vilayətlərin nümayəndələri də Sivasa gələ bilsələr, Ərzurum konqresinin üzvləri Sivas Ümumi Konqresinə qatılmaq üçün hərəkət edərlər.



◉ Eyni məqsədlə milli vicdandan doğan cəmiyyətlər "Anadolu və Rumeli Müdafaa-i Hüquq Cəmiyyəti" adı altında birləşdirilmişdir.

ƏRZURUM KONQRESİNİN QƏRARLARI (23 iyul-7 avqust 1919-ci il)

9. Milli sərhədlər daxilində olan vətən parçaları bütövdür. Bir-birindən ayrıla bilməz.

10. Hər cür xarici işğal və müdaxiləsinə qarşı Osmanlı hökumətinin iş icra edə bilməz vəziyyətə gəlməsi halında, millət bütövlükdə özünü müdafiə edəcək və müqavimət göstərəcək.

11. Vətəni qorumağa və istiqlalı əldə etməyə İstanbul hökuməti müqtədir ola bilmədiyi təqdirdə, bu məqsədi reallaşdırmaq üçün müvəqqəti hökumət qurulacaq. Bu hökumət üzvləri milli konqres tərəfindən seçiləcək. Konqres toplanmamışdırsa, bu seçkini Heyət-i Təmsiliyə edəcək.

12. Kuvayi Milliyəni tək qüvvət tanımaq və milli iradəni hakim etmək təməl prinsipdir.

13. Səlahiyyət və himayə qəbul oluna bilməz.

14. Milli Məclisin dərhal toplanmasını və hökumət işlərinin Məclis tərəfindən nəzarət edilməsini təmin etmək üçün çalışılacaq.

15. Millətimiz müasir məqsədlərin böyüklüyünə inanar və texniki, sənaye və iqtisadi vəziyyətimizi və ehtiyacımızı təqdir edər.



Atamızın vətən, millət sevgisi, müstəqillik eşqi və milli suverenliyə verdiyi əhəmiyyət bütün Türk millətinə də əks olunmuş, qadın-kişi, gənc-yaşlı əl-ələ verərək müstəqillik mübarizəsinə girmişdir. Vətənin bütövlüyü və millətin müstəqilliyini əbədi təmin edə bilmək üçün düşmən dövlətlərə qarşı cani-könüldən döyüşmüşdür.
1922-ci ildə nəşr olunan Misak-ı Milli portreti. Portretdə İstiqlal Marşının ilk və son sətirlərinin yanında Qurtuluş savaşında zəfərlər qazanmış komandirlərin şəkilləri də vardı. Başda Mustafa Kamal və ətrafında Bekir Sami Bey, Rauf Bey, İsmət Paşa, Cevat Paşa, Kazım Karabekir Paşa, Ali İhsan Paşa, Mühittin Paşa, Nurettin Paşa, Refet Paşa, Cemal Paşa, Fevzi Paşa, Selahattin Adil Bey, Halit Bey, Hasan Bey, Kazım Paşa, Şehit Nazım Bey.

SİVAS KONQRESİNİN QƏRARLARI (4-11 sentyabr 1919-ci il)

16. Milli sərhədlər daxilində olan vətən parçaları bütövdür, bir-birindən ayrıla bilməz.

17. Hər cür işğal və müdaxiləyə qarşı millət birlik olaraq özünü müdafiə və müqavimət göstərəcək.

18. İstanbul hökuməti xarici təzyiq qarşısında məmləkətimizin hər hansı bir parçasını tərk etmək məcburiyyətində qalsa, vətənin müstəqilliyini və bütövlüyünü təmin edəcək hər cür tədbir və qərar alınmışdır.

19. Kuvayi Milliyəni tək qüvvət tanımaq və milli iradəni hakim etmək təməl prinsipdir.

20. Səlahiyyət və himayə qəbul oluna bilməz.

21. Milli iradəni təmsil etmək üzrə Millət Məclisinin dərhal toplanması məcburidir.

22. Eyni məqsəd ilə milli vicdandan yaranan cəmiyyətlər, “Anadolu və Rumeli Müdafiə-i Hüquq Cəmiyyəti” adı altında birləşdirilmişdir.

23. Müqəddəs məqsədi və ümumi təşkilatı idarə etmək üçün konqres tərəfindən bir Heyət-i Təmsiliyə seçilmişdir.

## Vətənin qorunması

Hər qarış torpağı şəhid qanları ilə sulanmış, əsrlər boyunca şanlı tariximizə ev sahibliyi etmiş vətənimiz hər Türk üçün müqəddəsdir. Müxtəlif çətinliklər və fədakarlıqlar nəticəsində qazanılan Qurtuluş savaşı ilə Atamız bizə üzərində azad şəkildə yaşadığımız vətən buraxmışdır. Bu vətənin qorunması bütün Türk millətinin birinci vəzifəsidir. Bu səbəblə, daxili və xarici potensial düşmənlərə qarşı lazım olan tədbirlərin, hər cür hərbi və təhlükəsizlik tədbirinin alınması vətənimizin gələcəyi üçün çox əhəmiyyətlidir. Və Türk ordusu bu nəcib vəzifəni üstün müvəffəqiyyət ilə yerinə yetirir. Ancaq vətənin qorunmasında hərbi tədbirlər qədər əhəmiyyətli olan bir başqa sahə də vardır və bu sahədə bütün Türk milləti boynuna məsuliyyət götürməlidir. Bu da vətənin birlik və bütövlüyünün qorunmasında veriləcək fikri mübarizədir.



Atatürk çox uzaqgörən lider idi. Kommunizm və faşizm kimi dindən kənar ideologiyaların səbəb olacağı böyük fəlakətlərin əvvəldən fərqinə varmış və xalqımızı bu mövzuda dəfələrlə xəbərdar etmişdi.

Atatürk həyatı boyunca xalqımızı, xalqı qarşıdurmaya təşviq edən, hüzuru və nizamı pozan, ölkəni fəlakətə sürüyə biləcək, mənfəət qrupları arasında döyüşlərə səbəb olacaq ideologiyalara qarşı xəbərdar etmiş, belə təhlükəli ideologiyalarla mütləq fikri sahədə mübarizə edilməli olduğunu söyləmişdir. “Uşaqlarımız və gənclərimiz yetişdirilərkən onlara xüsusilə varlığı ilə, haqqı ilə, birliyi ilə zidd düşən bütün xarici elementlərlə mübarizə gərəyi təlqin edilməlidir” deyərək, yeni nəslin bu mübarizə üçün şüurlandırılmalı olduğuna diqqət çəkmişdir. Atatürkə görə kommunizm və faşizm bu tərifin içində yer alan, millətin gələcəyi üçün çox təhlükəli ideologiyalardır və Atamız, xüsusilə, kommunizmin “hər görülən yerdə mütləq əzilməli olduğunu” bildirmişdir. Böyük Öndər hər iki ideologiyanın da həqiqi üzünü çox yaxşı qavramış və xalqımızı da bu mövzuda şüurlandırmaq üçün cəhd göstərmişdir. Bir çıxışında Atatürk bu ideologiyaların təhlükələrinə belə diqqət çəkmişdir:

*"Biz böyük müharibələr görmüş böyük millətik... Amma döyüşçü deyilik, sülhsevər fəlsəfəni mənimsəmiş millətik... Özümüzü dünyadan təcrid edə bilmərik. Dünya millətlərinin imperialist ölkələr tərəfindən bəzən laqeydcəsinə paylaşıldığını və bu paylaşma əsnasında inkişaf etməmiş ölkələrin tarixdən silindiyini yaddaşlardan silmək qədər qəflət ola bilməz. Dünyanın bugünkü vəziyyəti heç də parlaq görünmür. Hər ölkə, gəncliyini bir başqa ideologiyaya sahib olaraq yetişdirmə səyi içərisindədir. İtaliya faşizm ideologiyasına dörd əllə sarılmışdır. Bu ölkənin diktatoru Mussolini ölkəsinin səkkiz milyon faşist gəncin süngüsü üzərində yaşadığını bağırır... Almaniyada Hitlerin yaradıb inkişaf etdirdiyi Nazilik də faşizmin bir başqa böyük təhlükəli bənzəridir. Hitler irqçidir. Diqqət edin, milliyyətçidir demirəm, irqçidir deyirəm. Alman irqini ən üstün irq olaraq görən bir məcnundur. Təkmil Alman gəncliyini arxasına taxmış, onlara bu idealı təlqin etmişdir. Moskvada oynanan oyun isə bir başqa cürdür. Stalin təkcə öz gəncliyinə deyil, dünya gəncliyinə kommunistlik ideologiyasını aşılamağa çalışır. Kommunistlik təbliğatının, füqərası və cahili bir çox ölkələrdə asanlıqla tərəfdar yığdığı isə ortada olan bir həqiqidir...*



“Həyatımda ən böyük dayaq və gücüm, vətəndaşlarımdan gördüyüm etimad və dəstəkdir. Bütün vəzifələrimdə mənəvi, vicdani olan ən böyük narahatlığım, əmanətinizin hörmət və müqəddəsliyinə davamlı olaraq diqqət yetirməkdir.”

**M. Kamal Atatürk**

...Xeyr, nə kommunizm nə də faşizm... Bu iki ideologiya da məmləkətimizin, xalqımızın həqiqilərinə, xarakterinə əsla uyğun gəlməz. Bunu da əlavə edim ki, nə faşizmin, nə də Nasizmin sonu yoxdur.”





Bu sözlər Atamızın nə qədər uzaqgörən olduğunu bir daha göstərir. Hər iki ideologiya da arxalarında milyonlarla ölü, minlərlə şikəst insan buraxmış, girdikləri hər ölkəyə acı, tənəzzül və fəlakət gətirmişdir. Bu ideologiyalar, içdən-içə milləti gəmirən və istismar edən ideologiyalardır. Həqiqi vətənpərvərlərin bu ideologiyalarla fikri sahədə mübarizə aparmaları Atamızın əhəmiyyətli vəsiyyətidir. Türk milləti möhkəm xarakteri, yüksək səciyyəsi və Atamızın bizə qazandırdığı şüuru sayəsində bu tərz ideologiyaların təsirinə heç bir zaman girməmişdir və Türk milliyyətçilərinin

fədakarca çalışmaları sayəsində də bu ideologiyalar vətənimizdə əsla müvəffəqiyyət əldə edə bilməyəcəklər. Ancaq bu həqiqət təhlükənin əhəmiyyətini azaltmır. Üstəlik, ölkəmiz istər geosiyasi mövqeyi, istərsə sahib olduğu tarixi miras səbəbi ilə həmişə dağıdıcı və gücdən salıcı hücumlarla qarşı-qarşıya qalma riski altındadır.

Üstəlik unudulmamalıdır ki, faşizm və kommunizm başda olmaqla bütün dinsiz və materialist ideologiyalar, milli birliyi, bütövlüyü, mənəvi dəyərləri hədəf alırlar. Materialistlər vətənlərinə, bayraqlarına, millətlərinə deyil, öz fərdi mənfəətlərinə bağlıdırlar. Milliyyətçi deyil, internasionalistdirlər. Millətin xoşbəxtliyi üçün deyil, öz xoşbəxtlikləri üçün çalışarlar. Böyük Öndərimizin bizə öyrətdiyi və buraxdığı vəsiyyət isə, milli və mənəvi dəyərlərə bağlı, vətənini, bayrağını, millətini sevən, milli əxlaq inancına sahib olan, milli-mentalitetini qorumaq üçün lazım olsa, canını verə biləcək insanlar olmaqdır. Atamız bizim və bizdən sonra gələcək nəsillərin, dindar, milliyyətçi duyğular daşıyan, vətəni və bayrağı üçün həyatını ortaya qoyan, həyatı boyunca millətinin xoşbəxtliyi üçün çalışan, ailə təşkilatının müqəddəsliyini müdafiə edən insanlar olmağımızı istəyir. Materialist zehniyyət isə Atamızın bizə müqəddəsliyini öyrətdiyi bütün bu dəyərlərin qarşısında yer alır. Bu səbəbdən milliyyətçi və vətənpərvər insanların, yalnız bu iki ideologiyaya qarşı deyil, materialist bütün sistem və ideologiyalara qarşı fikri mübarizə içində olmaları, hiyləgər mövqelərin çirkli oyunlarına gəlməmək üçün diqqət göstərmələri əsas şərtdir.

Atatürk qanunlarının ən yaxın təqibçisi və qoruyucusu olan qəhrəman Türk ordusu vətənimizi hər cür təhlükəyə qarşı qürurla qoruyur. Bizə düşən də, vətənimizin qorunmasının təməl mərhələlərindən biri olan, bu fikri mübarizəyə imkanlarımız daxilində fayda verməkdir. Unutmamaq lazımdır ki, Atatürkün əsl istəyi bizim, Onun "fikirlərini, duyğularını anlamağımız və hiss etməyimiz"dir. O zaman hər kəs bir Mustafa Kamal olacaq və Atamızın idealı tam mənası ilə reallaşdırılacaq.

*"İki Mustafa Kamal vardır: Biri mən, ət və sümük, keçici Mustafa Kamal... İkinci Mustafa Kamal, onu "mən" sözü ilə ifadə edə bilmərəm; o, mən deyil, bizdir! O, hər tərəfində yeni fikir, yeni həyat və böyük ideal üçün məşğul olan aydın və döyüşçü bir birlikdir. Mən, onların yuxusunu təmsil edirəm. Mənim təşəbbüslərim, onların həsrətini çəkdikləri şeyləri təmin etmək üçündür. O Mustafa Kamal sizsiniz, hamınızsınız. Keçici olmayan, yaşaması və müvəffəqiyyətli olmalı olan Mustafa Kamal odur!"*

## Həqiqi Atatürkçülərin vətənə xidməti

Böyük Atatürk Türk millətinin boynuna götürdüyü vəzifəni belə izah edir:

*"Böyük idealımız ən çiçəklənən millət olaraq varlığımızı yüksəltməkdir. Bu, tək müəssisələrində deyil, düşüncələrində də əsaslı islahat etmiş Türk millətinin dinamik idealıdır. Bu idealı ən qısa zamanda bacarmaq üçün, düşüncə və hərəkəti birlikdə icra etmək məcburiyyətindəyik. Hər fərdin son nəfəsi Türk millətinin nəfəsinin heç sönməyəcəyini, onun sonsuz olduğunu göstərməkdir. Yüksəl Türk, sənin üçün yüksəlməkdə sərhəd yoxdur."*



Atatürk qanun və islahatlarının qoruyucusu olan qəhrəman ordumuz vətənimizi hər cür təhlükəyə qarşı qoruyur.

Bu, həqiqi Atatürkçülərin uğrunda mübarizə etməkdən əsla imtina etməyəcəkləri, bu uğurda ümidsizliyə qapılıb yorulmayacaqları ideallarıdır. Əvvəlki hissədə vətənimizin qorunmasında əhəmiyyətli olan fikri mübarizənin əhəmiyyəti üzərində dayandıq. Bu fikri mübarizənin dayaq nöqtəsi Atatürk qanun və islahatlarıdır. Bu qanunların qorunması, doğru, aydın olub davamlı gündəmdə tutulması çox əhəmiyyətlidir. Unutmamaq lazımdır ki, Atatürkün bənzərsiz şəxsiyyətinin və tarixi mübarizəsinin məhsulu olan bu qanunlar, yıxılıb yerlə bir edilmiş imperatorluğun ardından güclü, müstəqil, ümidli yeni Cümhuriyyət yaratmışdır. Bu səbəbdən müasirləşmə yolunda irəliləməyimizi təmin edəcək əsas yol da Atatürk qanunlarını rəhbər etmək olacaq. Atatürk Türk millətinin davamlı öz getdiyi yolda irəliləyəcəyindən əmindir:

*"Mən ölsəm, soylu millətimizin birlikdə getdiyimiz yoldan heç vaxt ayrılmayacağına əminəm; bununla ürəyim rahatdır!"*

Atatürk bizi öz qanunlarını unutdurmaq istəyən şəxslərin ortaya çıxa biləcəyi vəziyyətə qarşı da xəbərdar etmişdir. Ancaq Böyük Öndərin diqqət çəkdiyi çox əhəmiyyətli məqam vardır; o da heç

kimin bunu bacara bilməyəcəyidir. Çünki Atatürk qanunlarının təməli Türk millətinin yüz illərə əsaslanan milli mədəniyyətinə, əxlaqına və xarakterinə bağlıdır. Və bu qanunlar köklü və qüvvətli qanunlardır:



> *"Zaman gələr məni unutmaq və ya unutdurmaq istəyənlər meydana çıxa bilər. Fikirlərimi inkar edənlər və məni tənqid edənlər çıxa bilər. Hətta bunlar, mənim yaxın bildiyim və inandıqlarım arasından belə ola bilərlər. Lakin əkdiyimiz toxumlar o qədər köklü və qüvvətlidirlər ki, bu fikirlər Hinddən, Misirdən dönər gəzər yenə gələr, nəticələri qəlbləri doldurar."*

Atatürk ölkəmizə yeni çöhrə qazandırarkən çox əhəmiyyətli nöqtəni həmişə göz önündə saxlamış, Türk millətini millət edən ünsürləri; tarixini, dilini, dinini, yəni qısaca öz mədəniyyətini daima yaşadacaq köklü tədbirlər almışdır. İnanc, həmrəylik, vətən və millət sevgisi, birlik və bərabərlik duyğuları bu tədbirlərin təməlidir. Türk milləti bu ərdəmlər sayəsində dünyanın ən güclü və təchizatlı ordularına qarşı tarix yazmışdır. Bu dəyərlərə həmişə dəstək verilməsi, həqiqi Atatürkçülərin ən əhəmiyyətli vətəni görəvləridir. Bunların bilinməsi və yeni nəsillərə ötürülməsi çox əhəmiyyətlidir. Bu gün biz əziz vətənimizdə müstəqil həyat yaşayarıqsa, bunu bu ərdəmləri özlərinə düstur etmiş imanlı, cəsur, fədakar şəhidlərimizə, qazilərimizə və hamısından əhəmiyyətlisi Atamıza borcluyuq. Türk millətinin hər fərdi bu borcu dərk etməli, bu vətəni bizə hədiyyə edənlərə minnət və təşəkkür duymalı və ən əhəmiyyətlisi yeni nəsillər də bu duyğularla yetişdirilməlidir. Vətənpərvərlər və həqiqi Türk milliyyətçiləri bu şərəfli vəzifəni boynuna götürüblər və bu, vətənləri üçün edəcəkləri ən böyük xidmətdir.

İndi qısacası, Atatürk qanunlarının təməlini meydana gətirən anlayışları ələ alacağıq.

## “Milli tarix” şüuru

Tarix bir millətin bütün fərdlərinin bilməli və qorumalı olan mədəniyyət xəzinələrindən biridir. Tarix millətin keçmişdəki varlığı, onun mirası və bu günə qalan xatirəsidir. Hər fərd milli tarixindəki üstün şəxsiyyət və hadisələrdən qürur duyar, ibrət götürülməli olan dərslərə də heç bir zaman laqeyd qalmaz. Millətlərin həyatında tarix içində vəziyyət və gələcəkdə qarşılaşıla biləcək hadisələr bir yerdə qiymətləndirildiyində müvəffəqiyyətli nəticələr əldə edilə bilər. Milli tarixinə sahib çıxmayan, bu tarixi yeni nəsillərə ötürməyən millətlər, yaşama güclərini itirərlər. Bu təcrübə, o milləti irəli daşıyacaq ən əhəmiyyətli itələyici gücdür.

Atatürk milli tarix şüuruna çox əhəmiyyət vermiş, bir çox çıxışında Türk tarixinin ona ilham qaynağı olduğunu ifadə etmişdir. Atatürk, Türk tarixini Orta Asiyadan başlayan və bu günə qədər gələn bir bütün olaraq qiymətləndirir. Türk tarixinə olan marağı isə Monastir Hərbi Liseyində oxuduğu illərə əsaslanır. Məktəbdə milliyyətçi Türk zabiti olan Tofiq Beydən tarix dərsi öyrənən Mustafa Kamal bu dövrdə Türk tarixini bütün genişliyi və dərinliyi ilə qavramış, müstəqilliyə yönəlik bir çox düşüncəsi ilk olaraq bu illərdə şəkillənməyə başlamışdır. Tofiq Beyən “ona minnət borcum vardır, mənə yeni bir üfüq açdı” deyə bəhs edən Atatürk Türk tarixinin zənginliyindən çox faydalanmışdır.



Atamız özündən sonra gələn nəsillərin onun izindən gedəcəklərinə əmin idi. Türk milləti Atamızı heç bir zaman yanıltmadı.

Milli tarix şüuru Atatürkün Türk milləti üçün təyin etdiyi “müasir millətlər səviyyəsinə çatmaq” idealında mənimsənəcək yolun necə olduğu nöqtəsində də ön plana çıxır. Atatürk müasirləşməyi davamlı təşviq edərkən, bunun öz dəyərlərimizdən uzaqlaşmaq, tariximizi rədd etmək olmadığını əhəmiyyətlə vurğulamışdır:

*"Hər millətin özünəməxsus ənənələri, özünə görə milli xüsusiyyətləri vardır. Heç bir millət, eynilə digər bir millətin təqlidçisi olmamalıdır. Çünki belə bir millət nə təqlid etdiyi millətin eyni ola bilər, nə də öz milləti içində qala bilər. Bunun nəticəsi şübhəsiz ki, əzabdır."*

Bir başqa sözündə isə Atatürk belə deyir:



Hərbi muzeydə nümayiş etdirilən bu portret Fateh Sultan Mehmeti Ədirnədən İstanbula irəliləyərkən göstərir.

Atatürk Türkiyənin aydın gələcəyi üçün milli tariximizə həmişə sahib çıxılmalı olduğuna inanan dövlət adamı idi.

"İndiyə qədər millətə edə bilməyəcəyim bir şeyi vəd etmədim. Mən edəcəyəm dediyim zaman, buna inanmayanlar var idi. Buna baxmayaraq, hərəkət etdim. Görürsünüz ki bacardıq. Mənim və mənimlə çalışanlar yeni hədəflərimizə də müvəffəqiyyətlə çatacağımıza inanırdıq."

*"Biz Qərb sivilizasiyasını təqlid edək deyə almırıq, onda yaxşı gördüklərimizi, öz bünyəmizə uyğun gördüyümüz üçün dünya sivilizasiya səviyyəsi içində mənimsəyirik."*

Türkiyənin tək iqtisadiyyat sahəsində deyil, ictimai və mədəni sahədə də davamlı inkişafına inanan Atatürk bu hədəfə çatmaqda milli tarix şüurunun böyük rol oynadığına inanır. Bir milləti ayaqda saxlayan əhəmiyyətli dəyərlərdən olan milli şüur, Atatürk üçün milli tarix şüuruna paralel inkişaf edər və irəliləyər. “Dil və tarix naminə çalışmalıyıq ki, milli şüur yaşasın və oyaq olsun” deyən Atatürk bu mövzuda nə dərəcədə həssas olduğunu ortaya qoymuşdur. Bu səbəblə, yeni yetişən nəslin həmişə tarix şüuruna sahib olmasını istəmiş, bunun üçün də gənclərə, şübhəsiz, mənəvi dəyərlərin əhəmiyyətinin, ənənə və adətlərimizin, mədəniyyət təcrübəmizin izah edilməli olduğunu vurğulamışdır. Bununla da qalmamış, mənəviyyatımızı, milli dəyərlərimizi, mentalitetimizi, mədəniyyətimizi hədəf alan hər cür ünsürlə sonuna qədər mübarizə aparmaq lazım olduğunun gənclərə öyrədilməsini istəmişdir.



“İndiyə qədər söylədiklərimin reallaşması, bütün təsəvvürlərimin məni yalanlamaması, millətin ciddi və səmimi olaraq mənə kömək və dəstək olması ilə mümkün olmuşdur. Onun üçün yeni məqsədlərə çatmaq üçün də bu kömək və dəstəyə ehtiyacım vardır; onu məndən əsirgəməyin!”
M. Kamal Atatürk
Həqiqi Atatürkçülük milli mədəniyyət və təcrübəmizin qorunmasını tələb edir.
Atatürkə görə müasirləşmənin təməl şərtlərindən biri milli tarix şüuruna sahib olmaqdır.

Yetişəcək uşaqlarımıza və gənclərimizə görəcəkləri təhsilin hüdudu nə olursa olsun, ən əvvəl Türkiyənin istiqlalına, öz mənliyinə, milli ənənələrində düşmən olan bütün ünsürlərlə mübarizə etmə əhəmiyyəti öyrədilməlidir.

Buna görə Atatürk, tarix elminin təhsil proqramında geniş yer almasından yana olmuşdur. Gənclərə və Türk millətinə elmi şəkildə öyrədiləcək milliyyət anlayışı ilə cəmiyyət həyatının daha şüurlu olacağına inanmışdır. Bu səbəblə, insanların millətləri üçün işləri və gələcək günlərin təhlükəsizliyini təmin etmək təməl fikri üzərində haqlı olaraq dayanır:

*"Millət sevgisi qədər böyük sevgi yoxdur. Qurtuluş savaşında mənim də millətimə etdiyim bəzi xidmətlərim olduğunu zənn edirəm. Lakin bunlardan heç birini özümə aid etmədim. Edilənin hamısı millətin əsəridir dedim. Doğrusu da budur. Keçmişdə saysız mədəniyyət qurmuş bir irqin və millətin uşaqları olduğumuzu isbat etmək üçün, etməli olduğumuz şeylərin hamısını etdiyimizi irəli sürürəm. Bu günə və sabaha buraxılmış daha bir çox böyük işlərimiz vardır. Elmi araşdırmalar da bunlar arasındadır. Mənim yoldaşlarıma tövsiyəm budur: Şəxsiniz üçün deyil, lakin mənsub olduğumuz millət üçün birlikdə çalışaq. Çalışmaların ən böyüyü budur."*

## 2) Milli mədəniyyətin inkişaf etdirilməsi



Atatürk Türkiyə Cümhuriyyətinin təməlinin milli mədəniyyət olduğunu ifadə etmişdir. Milli mədəniyyət bir millətə şəxsiyyət qazandıran, digər millətlərlə arasındakı fərqi ortaya qoyan, o millətə aid maddi və mənəvi dəyərlərin hamısına verilən addır. Bir cəmiyyəti millət edən və onun bütövlüyünü təmin edən, milli mədəniyyətdir. Milli mədəniyyətin, o millətin mənliyinin şəkillənməsində, inkişafında və güclənməsində böyük payı vardır. Milli mədəniyyətinə sahib çıxa bilməyən, bu dəyərləri gərəyi kimi qavrayıb mənimsəməmiş bir cəmiyyətin güclü olması və hətta varlığını davam etdirə bilməsi mümkün deyil. Atatürk "Öz mədəni dəyərlərinə hörmət etməyən millətləri, başqa millətlər də saymaz. Beləlsri, digər millətlərin ovu olmağa məhkumdur" sözləri ilə bu həqiqətə işarə etmişdir.

Atatürk islahatlarının təməlində də, "Türkiyə Cümhuriyyətinin təməli Türk qəhrəmanlığı və Türk mədəniyyətidir" sözlərində də görüldüyü kimi, Türk milli mədəniyyəti vardır. Çünki Atatürk çox yaxşı bilir ki, islahatlar ancaq millətin dəyərləri ilə, ehtiyacları ilə, düşüncə quruluşu ilə uyğun olduğu müddətcə qalıcı və müvəffəqiyyətli ola bilər. Bu sosioloji bir həqiqidir. Bu həqiqəti Atamız belə ifadə edir:

*"Araşdırmalarımıza təməl olaraq çox vaxt öz məmləkətimizi, tariximizi, ənənələrimizi, xüsusiyyətlərimizi və ehtiyaclarımızı almalıyıq. Ziyalılarımız bəlkə bütün dünyanı, digər millətləri tanıyır. Lakin özümüzü bilmirik. Ziyalılarımız "millətimizi ən xoşbəxt millət edim" deyər. "Başqa millətlər necə olmuşdursa, onu da eynilə edək" deyir. Lakin düşünməliyik ki, elə nəzəriyyə heç bir dövrdə müvəffəqiyyət qazana bilməyib. Bir millət üçün səadət olan bir şey digər millət üçün fəlakət ola bilər. Eyni səbəb və şərtlər birini xoşbəxt etdiyi halda digərini bədbəxt edə bilər. Onun üçün bu millətə gedəcəyi yolu göstərərkən, dünyanın hər cür elmindən, kəşfindən faydalanaq, lakin unutmayaq ki, əsl təməli öz içimizdən çıxarmalıyıq."*

Bu sözlər, Türkiyə Cümhuriyyətinin milli mədəniyyətə əsaslanaraq qurulduğunu və bu mədəniyyətə əsaslanaraq yüksəlib inkişaf edəcəyinin bir ifadəsidir. Böyük Öndər üçün milli mədəniyyət, milli birliyin və vətənin bölünməzliyinin ən əhəmiyyətli ünsürlərindəndir. Atatürkün anlayışında milli mədəniyyət və milli birlik, bir-birini tamamlayan, bir-birindən ayrılması mümkün olmayan iki əhəmiyyətli dəyərdir.

Atatürk milli mədəniyyət mövzusunda hədəflərin nələr olduğunu da belə ifadə etmişdir:

*"Yüksək insani cəmiyyət olan Türk millətinin tarixi xüsusiyyəti də gözəl sənətləri sevmək və yüksəlməkdir. Bunun üçün, millətimin yüksək xarakterini, yorulmaz çalışqanlığını, yaradıcı zəkasını, elmə bağlılığını, gözəl sənətlər sevgisini və milli birlik duyğusunu davamlı və hər cür araşdırmalarla bəsləyərək inkişaf etdirmək milli idealımızdır."*

## 3) Türk cəmiyyətinin müasir sivilizasiya səviyyəsində ən üstün olması



"Budinin alınması" adlı bu portret İstanbul Hərbi muzeyində nümayiş etdirilir.

Atatürk həyatı boyunca yalnız millətini düşünmüş, öz mənfəəti və fərdi gələcəyi üçün heç vaxt çalışmamışdır. Bu, aldığı bütün qərarlarda, atdığı bütün addımlarda açıq-aydın görülür. Atatürkün həyatdakı ən böyük idealı müstəqil vətən torpaqları üzərində milli birlik duyğusu ilə birləşmiş müasir cəmiyyət meydana gətirmək idi. Vətəni qurtaran, azad və müstəqil Türkiyə idealını reallaşdıran Mustafa Kamal yeni Türkiyəni müasirləşdirmək məqsədi ilə müasir mədəniyyət idealına yönəltmişdir. Atatürk Türk millətinin müasirləşməsini vacib ideal kimi görmüş və bunu əsla imtina edilməməli olan mübarizə olaraq qəbul etmişdir. Bunu, "böyük idealımız ən mədəni və ən üst rifah səviyyəsində bir millət olaraq varlığımızı yüksəltməkdir" sözləri ilə dilə gətirmişdir. Bir başqa sözündə isə bu hədəfi belə vurğulamışdır:

> *"Millətimizin hədəfi, millətimizin idealı bütün dünyada tam mənasıyla mədəni cəmiyyət olmaqdır. Mədəni olmayan insanlar mədəni olanların ayaqları altında qalmağa məhkumdurlar."*

Ümumiyyətlə, Atatürkün həyatını iki dövrə ayırmaq mümkündür: Milli mübarizə dövrü və Cümhuriyyətin elan edilməsindən sonra başlayan müasirləşmə dövrü. Atatürk müasirləşmənin

gərəyi olaraq elm və texnologiyadan faydalanma və təhsil sahəsini genişlətmə mövzuları üzərində əhəmiyyətlə dayanmışdır. Bununla yanaşı, iqtisadiyyat sahəsində və ictimai həyatın müxtəlif sahələrində atılan addımlarla, millətin önünə yeni üfüqlər açılmış, çox qısa müddət içərisində böyük hadisələr yaşanmışdır.



"30 avqustda idarə etdiyim müharibə Türk millətinin yanımda olduğu halda idarə etdiyim ilk və son müharibədir. Bir insan millətlə birlikdə hiss etdiyi zaman özünü necə güclü hiss edir, bilirsiniz? Bunu tərif etmək müşküldür."

**M. Kamal Atatürk**

Bir çox təşkilat Qərb ilə uyğunlaşacaq şəkildə yenidən qurulmuş və beləliklə, müasirləşmənin təməli atılmışdır. Atatürk müasirləşmənin nə qədər vacib olduğunu və bunun üçün izlənəcək yolu isə belə təsvir etmişdir:

*"Ölkəmiz daxilində mədəni düşüncələrin, müasir incəliklərin zaman itirmədən yayılması və inkişafı zəruridir. Müəllimlərimiz, ozanlarımız, yazıçılarımız xalqa keçmiş tənəzzül günlərini, bunların həqiqi səbəblərini izah edəcəklər. Bu qara günlərin geri dönməməsi üçün yer üzündə mədəni və müasir Türkiyənin varlığını tanımaq istəməyənlərə, onu tanıtmaq məcburiyyətində olduğumuzu xatırladacaqlar. Görülür ki, ən əhəmiyyətli və ən faydalı tapşırıqlarımız, təhsil çalışmalarıdır. Bu işlərdə mütləq müvəffəqiyyət əldə etməliyik. Bir xalqın həqiqi qurtuluşu ancaq bu yoldadır. Bu zəfərin təmin edilməsi üçün hamımız bir bədən kimi müəyyən proqram üzərində çalışmalıyıq."*



Müasir sivilizasiyaya çatmaq üçün göstərilən səyin davamlı olduğunu isə, 29 oktyabr 1933-cü ildə Cümhuriyyətin elan edilməsinin 10-cu il dönümündə etdiyi çıxışında bu şəkildə izah etmişdir:



> *"Lakin etdiklərimizi əsla yetərli görməməliyik. Çünki daha çox və böyük işlər görmək məcburiyyətində və əzmindəyik. Yurdumuzu dünyanın ən xoş və ən mədəni məmləkətləri səviyyəsinə çıxaracağıq. Millətimizi ən geniş rifah vasitə və qaynaqlarına sahib edəcəyik."*

Müasirləşmə idealının əhəmiyyətini anlayacaq, izah edəcək, özündən sonrakı nəsillərin də bunu yaşamasını təmin edəcək şəxs və təşkilatları meydana gətirmək Atatürk üçün çox əhəmiyyətli idi. Müasirləşmənin reallaşdırılması üçün elm və texnologiyadakı inkişafların yaxından izlənilməsi və gənc nəslin çox yaxşı yetişdirilməsi Atatürkə görə təməl şərtlərdir. Atatürk ən böyük arzularından biri olan Türk cəmiyyətinin mədəniyyət yolunda irəliləməsi hədəfinin gənclər tərəfindən reallaşdırılacağına inanan bir lider idi. Bu səbəblə də, bu əhəmiyyətli vəzifəni gənclərə vermiş, Cümhuriyyəti qorumaq və yüksəltmək üçün gəncləri məsul etmişdi. Müasir və hər tərəfli mədəni cəmiyyətin ortaya çıxarılması üçün məlumatlı, mədəni, yüksək xarakterli şəxslərin yetişdirilməsi əsas şərtdir. Atatürk bu düşüncəsini belə ifadə edir:

> *"Gəncliyi tamamilə idealist sahibi və ölkə ilə əlaqədar yetişdirmək hər kəsin, hamımızın, hər dövlət adamının ilkin gələn vəzifəsidir. Gəncliyi yetişdirin. Onlara elm və mədəniyyətin müsbət düşüncələrini verin. Gələcəyin aydınlığına onlarla qovuşacaqsınız. Azad fikirlər tətbiq edildiyi zaman Türk milləti yüksələcək."*

## 4) Türk millətinə inanmaq və güvənmək

Atatürk gənclik illərindən etibarən Türk millətinin böyüklüyünü qavramış və Türkün ruhuna, cəsarətinə, xarakterinə çox güvənmişdir. Türk millətinin əxlaqını, quruluşunu, mədəniyyətini, tarixi təcrübəsini müxtəlif çıxışlarında tərifləyən və bütün müvəffəqiyyətinin əsl sahibinin Türk milləti olduğunu bilən Atatürk Türk millətinə inanmağı və güvənməyi qanunlarının da təməl dayaqlarından biri olaraq görmüşdür. Milli mübarizəyə Türk millətinə güvənərək başlamış və "Xəzinəmiz, istiqlal və vətənpərvərliyin qiymətini təqdir etməyi öyrənmiş olan millətimizdir" sözləri ilə Türk millətinə duyduğu inancı vurğulamışdır. Türkiyə Cümhuriyyəti dövlətini qurarkən Türk millətinə olan sonsuz inanc və etibarını heç itirməmiş, qanun və islahatlarının ən gözəl şəkildə tətbiq olunacağına inanmışdır. Samsuna ayaq basdığı ilk gündən etibarən ona ümid verən əsl gücün milləti olduğunu ifadə etmişdir.

> *"Mən 1919-cu il may ayı içində Samsuna gəldiyim gün əlimdə maddi güc yox idi. Tək Türk millətinin nəcibliyindən doğan və mənim vicdanımı dolduran yüksək və mənəvi qüvvə vardı. Mən məhz bu milli gücə, bu Türk millətinə güvənərək işə başladım."*

1919-cu ildə baş verən və Atatürkün Türk millətinə inancını gücləndirən bir hadisə isə belədir:

3 iyul 1919-cu ildə Atatürk Ərzuruma gəlir. Ilıca qarşısında ərzurumlular tərəfindən coşğu ilə qarşılandığı zaman, Çukurovada mühacir olan və Ərzuruma qayıdan Mevlüt Ağanı görər və ondan soruşar:

- Çukurova kimi məhsuldar məmləkətdən niyə getdin, yoxsa dolana bilmədin?

- Xeyr, paşam. Dolanışığımız çox rahat idi. Son günlərdə eşitdim ki, İstanbuldakı isməti qırıqlar bizim ərzurumu ermənilərə verəcəklərmiş. Gəldim ki görüm, bu namərdlər kimin malını kimə verirlər.

Tunc çöhrəli, ağ saqqallı, gün görmüş Mevlüt Ağanın iman dolu sinəsindən gələn bu səs yenə onun kimi tunc çöhrəli əsgərin gözlərini yaşardır. Bu cavabdan gözü yaşla dolan Mustafa Kamal Paşa ətrafındakılara dönər və belə deyər:

- Bu millətlə nələr edilməz ki...



Samsundakı məşhur Atatürk heykəli

Böyük Öndərin anlayışında Milli mübarizəni edən birbaşa millətin özüdür. Bu səbəblə də, millət sevgisi üzərində çox dayanmışdır. Həqiqətən, millətini sevən insanın millət tərəfindən də çox seviləcəyini bildirmişdir. “Millət sevgisi qədər böyük mükafat yoxdur” sözü Atatürkün mövzuya verdiyi əhəmiyyəti göstərir.



Gəncliyin millət və vətən sevgisi ilə, milli və mənəvi dəyərlərinə sahib çıxmasını öyrənərək yetişdirilməsi Atatürk üçün çox əhəmiyyətli idi. Atatürkə görə bu, həm milli varlığımızı davam etdirməyimiz, həm də müasirləşməyimiz üçün zəruri idi. Şəkildə Atamız bir şagirdin yazdığı şeiri dinləyərkən görülür.

Atatürk vətən üçün yola çıxanların və təvazökarlıqla, mərd, dürüst çalışanların mütləq millətimizdən böyük dəstək görəcəyinə inanmışdır. “Türk milləti arzu və istedadının yönəldiyi istiqamətləri görməyə çalışan və görə bilən övladını daim təqdir və himayə etmişdir” sözləri bu inancın ifadəsidir. Bu xüsusiyyətləri və daha çoxunu üzərində daşıyan Atamıza millətimizin göstərdiyi sevgi bu inancın doğruluğunu göstərir. Atatürk Türk millətinə duyduğu sevgini, heyranlığı və etibarı dəfələrlə vurğulamışdır. Türk millətinin digər dünya millətlərinə nümunə olan tərəflərini bir çox çıxışında dilə gətirən Böyük Öndər bir çıxışında belə deyir:

> *“Qərb millətlərini, bütün dünyanın millətlərini tanıyıram. Fransızları, almanları, rusları... şəxsən tanıyıram və bu tanışlığım da hərbi sahələrində, atəş altında olmuşdur. Ölüm qarşısında olmuşdur. And içərək, sizi inandırıram ki, bizim millətimizin mənəvi gücü bütün millətlərin mənəvi gücündən çoxdur.”*

Atatürkün millət sevgisini ən gözəl ifadə edən nümunələrdən biri də hörmətli İsmət İnönünün Atamızın vəfatından sonra Böyük Millət Məclisində etdiyi çıxışdır:

*“Atatürk ən böyük zəfərləri qazandıqdan sonra da ömrünü tək Türk millətinin haqlarını, insaniyyətə əzəli xidmətlərini və tarixə layiq olduğu üstünlüklərini isbat etməklə keçirmişdir. Millətimizin böyüklüyünə, qüdrətinə, fəzilətinə, mədəniyyət istedadına və mükəlləf olduğu insaniyyət vəzifələrinə sarsılmaz etiqadı vardı. “Mən türkəm deyən nə qədər xoşbəxtdir” dediyi zaman, öz geniş ruhunun, heç sönməyən eşqini və mənalı surətdə xülasə etmişdir.”*

# 5) Milli birlik və bərabərlik

Milli birlik və bərabərlik anlayışı Atatürk qanunlarının və Atatürk milliyyətçiliyinin əsas elementidir. Millətlərin doğuşunu, yaşamasını və irəliləməsini təmin edən ən əhəmiyyətli ünsürdür. Atatürk qanunlarına görə millət eyni ideala bağlı insanların meydana gətirdiyi bir topluluqdur, milləti millət edən, bu millətin mənsublarının birlik, bərabərlik və həmrəylik içində olmalarıdır. Fərdi müvəffəqiyyətlər də ancaq milli və mənəvi ittifaq ilə güc tapar. Atatürkün də müxtəlif sözlərində görüldüyü kimi, birlik və bərabərlik içində hərəkət etməyən, qarşılıqlı sevgi, hörmət və həmrəylik içində olmayan cəmiyyətlərin heç bir zaman müasir və dünya xalqları içində yer ala bilməyəcəyi və bir millət olaraq var ola bilməyəcəyi qətidir. Bu səbəblə də, milli birlik və bərabərlik bütün Türk milləti tərəfindən diqqətlə qorunmalı olan qanundur.



Atatürkün də ifadə etdiyi kimi, Qurtuluş savaşının zəfərlə nəticələnməsinin təməlində döyüş boyunca Türk millətinin tarixdə az rast gəlinən birlik və bərabərlik içində hərəkət etməsi dayanır. Qadın, uşaq, gənc, qoca demədən bütün Türk milləti müstəqillik üçün düşmənə qarşı tək nəfər olmuşdur.

Atatürk də bu məqama əhəmiyyətlə diqqət çəkmişdir. Atatürk Milli mübarizəni ilk başlatdığı andan etibarən, müvəffəqiyyətin ancaq milli birlik və bərabərliyin təsis edilməsi ilə təmin ediləbiləcəyini bilirdi. Zəfərin qazanılmasından sonra da bu tarixi müvəffəqiyyətin milli birlik və həmrəylik ilə əldə edildiyini dəfələrlə gündəmə gətirmişdi. Atatürk Türk millətinin milli birlik içində hərəkət etdiyi zaman öhdəsindən gələ bilməyəcəyi heç bir çətinlik olmadığını çox yaxşı bilirdi.



Böyük Öndərin vəfatından sonra Cümhuriyyətin başçısı seçilən İsmət İnönü TBMM-də etdiyi çıxışda Atamızın millət sevgisinin üzərində dayanmışdır.

Buna görə Atatürk, Türk milləti bir bütün halına gəlmədən Qurtuluş savaşını başlatmamış, bölücü axınları və üsyanları basdırdıqdan sonra əsas hədəfə yönəlmişdir. Sivas konqresi isə müstəqillik qərarının alındığı Ərzurum konqresindən sonra milli birlik və bərabərliyin köklərinin gücləndiyi yer olmuş və bütün yurddan nümayəndələrin qatılması ilə keçirilən konqresdə milli bütünlük ön plana çıxmışdır. Milli birlik və bərabərlik duyğusundan qaynaqlanan milli şüur o çətin dövrdə olduğu kimi müasir dövrdə də Türk vətəninin bölünməz bütövlüyünün təminatıdır.

Türk milləti Qurtuluş savaşı boyunca milli birlik və bərabərliyin tarixdəki ən gözəl, ən şərəfli nümunələrindən birini nümayiş etdirmişdir. Bu hərəkət Türk millətinin əsarətə qarşı istiqlalını qorumaq yolunda reaksiyanın, üsyanın və milli şüurlanmanın bir nümunəsidir. Gücü çatan bütün vətən övladları cəbhədə müstəqillik üçün vuruşarkən, arxa cəbhədə də millətimiz bütün imkanlarını səfərbər etmişdir. Məsələn, Sakarya meydan müharibəsindən əvvəl nəşr olunan fərmanın əmrinə uyğun olaraq hər Türk ailəsi bir paltar, bir cüt corab və çarıq hazırlayıb orduya geyindirmiş, millət tərəfindən əllərindəki yun, tiftik, bez, parça, dəri nə varsa silahlı güclərin əmrinə vermişdir.

Unutmamaq lazımdır ki, yaşadığı həyat Atatürkə vətənə və millətə qarşı yönəldilən ən böyük təhlükənin, milli birlik və bərabərliyimizi pozaraq dövlətimizi yıxmaq istəyənlər olduğunu göstərmişdir. Buna görə Atamız “Milli birlik duyğusunu mütəmadi olaraq və hər cür vasitə və tədbirlərlə inkişaf etdirmək milli idealımızdır” deyərək milli idealın əhəmiyyətini ifadə etmişdir.

Atatürk həyatı boyunca hər baxımdan birləşdirici insan olmuşdur. Müxtəlif dünyagörüşlərinə sahib insanları ortaq məqsəd üçün birləşdirmişdir. Onun bu qabiliyyəti Türk millətinin birlik sevgisindən qaynaqlanır. “Millət və biz yox, birlik halında millət var. Biz və millət ayrı-ayrı şeylər deyilik. Və bunu qəti olaraq deyim ki, bir millət, varlığı və müstəqilliyi üçün hər şeyi edər və bu məqsəd üçün hər fədakarlığı etsə, müvəffəqiyyətli olmaması mümkün deyil. Əlbəttə bacarar. Bacara bilməzsə, o millət ölmüş deməkdir” deyərək milli birliyi güclü olan xalqların həmişə qüvvətli olacağını ifadə etmişdir:

*"Bir insan özünü millətlə birlikdə hiss etdiyi zaman nə qədər qüvvətli olar bilirsiniz? Bunu tərif etmək müşküldür. Əgər mən izah etməkdə acizlik etsəm, məni üzrlü hesab edin."*



Qurtuluş savaşı xalqımızın böyük fədakarlıqları ilə qazanılmışdır. Yoxluq içindəki milləti dünyanın ən güclü ordularına qarşı müzəffər edən güc, bu millətin imanı və üstün xarakteridir.

Böyük Öndər milli həmrəyliyə verdiyi əhəmiyyəti bu sətirlərdə açıq-aydın dilə gətirir; "Türkiyə Cümhuriyyəti xalqını; ayrı-ayrı siniflərdən meydana gəlmiş deyil, fərdi və ictimai həyat içində əmək bölgüsü etibarilə müxtəlif peşələrə ayrılmış bir cəmiyyət olaraq görmək əsas prinsiplərimizdəndir." Bu ifadədən də aydın olduğu kimi, məqsəd həmişə cəmiyyətdəki fərdlər arasında həmrəyliyi təmin etmək olmuşdur. Atatürkün Türk milləti ilə əlaqədar olan bu fikirləri onun nə qədər birləşdirici və irqçilikdən uzaq olduğunun göstəricisidir:

*"...Bugünkü Türk milləti siyasi və ictimai cəmiyyəti içində özlərinə Kürdlük, Çərkəzlik, hətta Lazlıq və ya Boşnaklık fikri təbliğ edilmək istənmiş vətəndaş və soydaşlarımız vardır. Lakin keçmişin despotizm dövrlərinin məhsulu olan bu səhv adlandırmalar, bir neçə düşmən aləti, mürtəce beyinsizdən başqa heç bir millət fərdi üzərində kədərlənməkdən başqa bir təsir doğurmamışdır. Çünki bu millət fərdləri də, bütün Türk cəmiyyəti kimi eyni ortaq keçmişə, tarixə, əxlaqa, hüquqa sahibdirlər.*



Şəkildə Van gölünün kənarında bir kilsə görülür. Türk milləti tarix boyunca fərqli dinlərdən və irqlərdən insanlara göstərdiyi tolerantlıq və ədalət anlayışı ilə dünyaya nümunə olmuşdur.

Bu gün içimizdə olan xristian, musəvi vətəndaşlar müqəddərat və talelərini Türk millətinə vicdani arzuları ilə bağladıqdan sonra onlara yan gözlə, xarici nəzərlə baxmaq, mədəni Türk millətinin nəcib əxlaqından gözlənilə bilərmi?"

Atamızın milli birlik və bərabərliyin əhəmiyyətini dilə gətirdiyi bir başqa nitqi isə belədir:

*"Haqq-Təala birləşmiş və birlikdə çalışan, şərəfini, namusunu qoruyan millətləri xoşbəxt edər. Biz də bundan əvvəl olduğu kimi, bundan sonra da birləşərək və birlikdə çalışaraq Allahdan bu cür səadəti haqlı olaraq gözləyə bilərik."*

# 6) Vətənin bölünməzliyi

Milli birliyin ən əhəmiyyətli nəticələrindən biri və Atatürk qanunlarının əsas maddəsi vətənin bölünməz birliyidir. Vətənin bütövlüyü dövlətin fiziki quruluşunu meydana gətirən xalqın birliyini, bütövlüyünü və bölünməzliyini ifadə edir. Atatürk heç bir zaman vətəni millətdən ayrı düşünməmişdir. Millətin üzərində yaşadığı vətən bütövdür, müqəddəsdir. Atatürkün vətənin müstəqilliyi və bölünməzliyi qanunu Amasiya bildirişində "ya istiqlal, ya ölüm", Ərzurum konqresində "milli sərhədlər daxilində vətən bölünməzdir" şəklində ifadə edilmişdir. Sivas konqresində də eynilə qəbul edilərək, Misak-ı Milli ilə millət tərəfindən tətbiq olunan bir siyasət halını almışdır. Misak-ı Milli və Kuva-yi Milliyə ruhu ilə Atatürkün liderliyində qurulan Türkiyə Cümhuriyyəti, həm siyasi quruluş, həm də insan ünsürü baxımından (unitar) dövlət təməl xüsusiyyəti ilə yaradılmışdır.



"Mənim üçün dünyada ən böyük mükafat millətimin ən kiçik təqdir və iltifatıdır."

**M. Kamal Atatürk**

Türkiyə Cümhuriyyəti dövləti unitar dövlətdir, digər sözlə, öz bünyəsində fərqli qanunların keçərli olduğu, fərqli rəhbərlik bölgələri yoxdur. Federativ strukturlar yoxdur. TBMM-nin səlahiyyəti bütün Türkiyə torpaqlarını əhatə edir və hər Türk vətəndaşı bu torpaqlar üzərində bərabər rəftar görür. Bu unitar dövlət quruluşu, Türkiyənin bütövlüyünün və daxili sülhün təminatıdır. Unitar dövlət sturukturumuzun təməlində isə, Atatürkün bizə öyrətdiyi milliyyətçilik anlayışı və Misak-ı Milli ilə çəkilən vətən sərhədləri vardır.



Yüzlərlə ildir birlikdə yaşayaraq, uğrunda birlikdə ölərək vətən halına gətirdiyimiz əziz yurdumuz isə, millətimizin hər fərdi üçün canından daha qiymətlidir. "Türk milləti, özünün və məmləkətinin yüksək mənfəətlərinin əleyhinə çalışmaq istəyən təxribatçı, vətənsiz və milliyyətsiz beyinlərdəki gizli və çirkli əməlləri anlamayacaq millət deyil" deyən Atatürk Türk millətinin vətəninin bölünməzliyini qorumadakı həssaslıq və dayanıqlılığını vurğulamışdır.

Üstəlik, Atamız daxili və xarici düşmənlərin həmişə ola biləcəyinə, bu art niyyətli şəxslərin vətənimizin bütövlüyünü hədəf ala biləcəklərinə diqqət çəkmiş və bizdən bu təhlükələrə qarşı həmişə ayıq olmağımızı istəmişdir. Türkiyə beynəlxalq siyasət sahəsində sahib olduğu geosiyasi vəziyyəti və boynuna götürdüyü əhəmiyyətli rola görə tarix boyunca şiddətli düşmənliklərə, zalım və xain planlara, müxtəlif hücumlara hədəf olmuşdur. Türk milləti tarix boyunca həm regional, həm də universal təhdidlərlə qarşı-qarşıya qalmışdır. Amma millətimiz həmişə düşmənin kənardan gələn hücumlarına etiraz etməyi bacarmışdır.

Bura qədər ələ aldığımız Atatürk qanunlarının əsasını təşkil edən ünsürlər sayəsində bu gün Atatürkçülük tarixə ən əhəmiyyətli milli müasirləşmə hərəkəti olaraq keçmişdir. Bu hərəkət, Türkiyənin xaricində daha bir çox millətə müstəqillik yolunda işıq olmuş, yol göstərmişdir. Parçalanan, paylaşılan və devrilən dövlətdən yeni Cümhuriyyətin qurulması, heç şübhə yoxdur ki, Atatürkün üstün liderlik xüsusiyyətinin bir nəticəsidir. Dağılmış və işğala məruz qalmış, milli mənliyini itirmiş millətin yenidən meydana gəlməsinin və öz mənliyini qazanma prosesinin təməlində Atatürk qanunları vardır və bu qanunların qorunub yaşadılması hamımızın məsuliyyətidir.

## Atamızın Türk millətinə vəsiyyəti xüsusiyyətində olan 10-cu il nitqi

“Türk milləti!

Qurtuluş savaşına başlamağımızın on beşinci ilindəyik. Bu gün Cümhuriyyətimizin onuncu ilini tamamladığı ən böyük bayramdır. Mübarək olsun!

İndi, böyük Türk millətinin bir fərdi olaraq bu müqəddəs günə qovuşmanın ən dərin sevinci və həyəcanı içindəyəm.

Yurddaşlarım!

Az zamanda çox və böyük işlər gördük. Bu çalışmaların ən böyüyü təməli Türk qəhrəmanlığı və yüksək Türk mədəniyyəti olan Türkiyə Cümhuriyyətidir. Bundakı müvəffəqiyyəti, Türk millətinin və onun qiymətli ordusunun bir və bərabər, əzmlə getməsinə borcluyuq. Lakin etdiklərimizi əsla yetərli görə bilmərik, çünki daha çox və daha böyük işlər görmək məcburiyyətində və əzmindəyik.

Yurdumuzu dünyanın ən xoş və ən mədəni ölkələri səviyyəsinə çıxaracağıq. Millətimizi ən geniş, rifaha və qaynaqlara sahib edəcəyik. Milli mədəniyyətimizi müasir mədəniyyət səviyyəsinə çatdıracağıq. Bizim fikrimizcə, bunun üçün zaman ölçüsü keçmiş əsrlərin boşaldıcı zehniyyətinə görə deyil, əsrimizin sürət və hərəkət məfhumuna görə düşünülməlidir. Keçən zamana nisbətən daha çox çalışacağıq, daha az zamanda daha böyük işlər bacaracağıq. Bunda da müvəffəq olacağımıza şübhəm yoxdur.

Çünki Türk millətinin xarakteri yüksəkdir; çalışqandır, ağıllıdır. Çünki Türk milləti milli birlik və bərabərliklə çətinlikləri məğlub etməyi bilmişdir. Və çünki Türk millətinin getməkdə olduğu tərəqqi və mədəniyyət yolunda əlində və başında tutduğu məşəl müsbət elmdir. Bunu da əhəmiyyətlə bildirməliyəm ki, yüksək insani cəmiyyət olan Türk millətinin tarixi bir xüsusiyyəti də gözəl sənətləri sevmək və onda yüksəlməkdir. Bunun üçündür ki, millətimizin yüksək xarakterini, yorulmaz çalışqanlığını, fitri zəkasını, elmə bağlılığını, gözəl sənətlərə sevgisini və milli birlik duyğusunu mütəmadi olaraq və hər cür vasitə və tədbirlərlə bəsləyərək inkişaf etdirmək milli idealımızdır. Türk millətinə çox yaraşan bu ideal onu bütün bəşəriyyətdə həqiqi hüzurun təmin edilməsi yolunda özünə düşən mədəni vəzifəni etməkdə müvəffəq edəcək.

Böyük Türk milləti!

On beş ildən bəri gördüyümüz işlərdə müvəffəqiyyət vəd edən çox sözlərimi eşitdiniz. Bəxtiyaram ki, bu sözlərimin heç birində millətimin haqqımdakı etimadını sarsıdacaq hadisə ilə qarşılaşmadım. Bu gün eyni inam və qətiyyətlə söyləyirəm ki, milli ideala birlikdə gedən Türk millətinin böyük millət olduğunu bütün mədəni aləm qısa müddətdə bir daha tanıyacaq. Əsla şübhəm yoxdur ki, Türklüyün unudulmuş böyük mədəni xüsusiyyəti və böyük mədəni qabiliyyəti bundan sonrakı inkişafı ilə, gələcəyin yüksək mədəniyyət üfüqündən yeni bir günəş kimi doğulacaq.

Türk milləti!

Əbədiyyətə axıb gedən hər on ildə bu böyük millət bayramını daha böyük şərəflərlə, səadətlərlə, hüzur və rifah içində qeyd etməyini könüldən diləyirəm.”

III FƏSİL

# Vətənpərvər və milliyyətçi insanların xüsusiyyətləri

Vətənpərvər və həqiqi Türk milliyyətçilərinin qarşısındakı ən əhəmiyyətli nümunə Mustafa Kamal Atatürkdür. Buna görə də ideal vətənpərvər və milliyyətçi insanın necə olmalı olduğunu təyin edərkən Atatürkün üstün əxlaqı və qəhrəmanlıqlarla dolu həyatı bizə yol göstərəcək. Atamızın bizə vəsiyyəti Atatürk milliyyətçiliyinə bağlı; Atatürk qanun və islahatlarını rəhbər edən; Türk millətinin milli, əxlaqi, insani, mənəvi və mədəni dəyərlərini daşıyan; Türk olmanın şərəfini hiss edən; millətinin mənfəətini öz mənfəətlərindən üstün tutan; ailə, ölkə və millət sevgisi ilə dolu; dövlətimizə qarşı məsuliyyətlərinin şüurunda olan; azad və elmi düşüncəni müdafiə edən; tarixini çox yaxşı bilən, ancaq üzü həmişə irəliyə dönük insanlar olmağımızdır. Atatürk göstərdiyi yolda irəliləyərkən bəzi maneələrlə qarşılaşa biləcəyimizi, ancaq vətən sevgisi ilə, dürüstlüklə, çalışqanlıqla bütün bu çətinliklərin öhdəsindən gələ biləcəyimizi söyləmişdir. Həqiqi vətənpərvərlərin və Atatürk milliyyətçilərinin boynuna götürdüyü məsuliyyət böyük, izlədiyi yol isə müxtəlif çətinliklərlə doludur. Ancaq Atatürk qanun və islahatlarını rəhbər edən şəxslərin yolu həmişə bu qanunlarla aydınlanacaq, vətən və millət sevgisi cəsarətlərini gücləndirəcək.



Sultanahmet məscidi

Bizim də gələcək nəsillərə buraxacağımız ən əhəmiyyətli miras, Atamızın izində ucaltdığımız Cümhuriyyətimiz və Cümhuriyyətimizin təməl daşı olan dəyərlər olacaq. Gələcək nəsilləri Türk millətinin varlığının təməli olan Atatürkçülükdə inteqrasiya etmək, gənclərə Atatürkçülüyə bağlı milli aşılamaq və Atatürkçülüyü bir bütün olaraq, ən doğru və saf halı ilə öyrətmək Türk milliyyətçilərinin boynuna götürdüyü böyük vəzifədir. Bu vəzifəni yerinə yetirə bilmək üçün, əvvəlcə həqiqi vətənpərvərin və Türk milliyyətçisinin sahib olacağı xüsusiyyətləri qazanmaq lazımdır.

## Mənəvi dəyərlərə sahib çıxmaq



Atatürk dinə və mənəvi inanclara bağlı və onlara hörmət edən lider idi. O, İslam əxlaqını hələ uşaq ikən öyrənmiş, təhsil həyatı boyunca da məlumatlarını gücləndirərək inkişaf etdirmişdir. Atatürk Türk millətini dindar olmağa və dini dəyərlərini mühafizə etməyə təşviq etmişdir. “Din əhəmiyyətli müəssisədir. Dinsiz millətlərin davam etməsi mümkün deyil.”40 sözü Atamızın millətimiz üçün mənəvi dəyərləri nə qədər əhəmiyyətli gördüyünü göstərir. Mustafa Kamal Atatürk İslam dininin əslini və tam mənasıyla yaşanmasını istəmişdir.

Atamızın da diqqət çəkdiyi kimi, milləti bir yerdə tutan ən güclü bağ olan din, ailə, əxlaq və dövlət müəssisələrinin də davam etməsini təmin edən ən əhəmiyyətli ünsürdür. Dini dəyərlərin olmadığı və ya laqeyd yanaşıldığı cəmiyyətdə ailə, əxlaq, dövlət anlayışları da dəyərini itirməyə başlayar və bunun ardından sürətli sosial tənəzzül baş verər. Üstəlik tarixi və mədəniyyəti nə qədər qədim olursa olsun bu cür hadisə bir milləti bir-birinə bağlayan milli və mənəvi bütün bağların parçalanmasını, anarxiyanın başlamasını və cəmiyyətin bölünməsini qaçınılmaz hala gətirəcək. Atatürk bir çıxışında belə demişdir:

*“Türk milləti daha dindar olmalıdır, yəni bütün sadəliyi ilə dindar olmalıdır, demək istəyirəm. Şəxsən həqiqətə necə inanıramsa, dinimə də elə inanıram. Şüura müxalif, tərəqqiyə manea heç bir şey ehtiva etmir.”41*

Görüldüyü kimi, Atatürk bütün istiqamətləri ilə olduğu kimi dindarlığı ilə və mənəvi dəyərlərə verdiyi əhəmiyyətlə də millətinə mükəmməl nümunə olmuşdur. Necə ki, Atamızın vəfatından çox qısa müddət əvvəl xalqına çatdırdığı sözləri də vətənpərvər insanların dinlərinə bağlı olmalarını bir daha vurğulayır:

> *"Bütün dünyanın müsəlmanları Allahın son peyğəmbəri hz. Məhəmmədin (s.ə.v.) göstərdiyi yolu izləməli və verdiyi təlimatları tam olaraq tətbiq etməlidirlər. Bütün müsəlmanlar hz. Məhəmmədi (s.ə.v.) nümunə götürməli və onun kimi hərəkət etməli; İslamiyyətin hökmlərini olduğu kimi yerinə yetirməlidirlər. Çünki ancaq bu şəkildə insanlar xilas ola bilər və inkişaf edə bilərlər."42*

## Dövlətə bağlı olmaq



Dövlət ortaq həyatı və mədəniyyəti paylaşan cəmiyyətdə, bu cəmiyyəti tənzimləmə, bu cəmiyyətə rifah və hüzuru güdmə məqsədini daşıyan və bu məqsədə yönəlik qanun qoyma, bu qanunları tətbiq etmə, mühakimə etmə, cəzalandırma kimi güclərə sahib olan təşkilatdır. Tarixin bilinən ən qədim dövrlərindən bəri var olan dövlət, cəmiyyətlər üçün imtina edilməz bir təşkilatdır. Bir cəmiyyətdə asayiş və təhlükəsizliyi təmin edəcək, zərərli davranışları qanunla qadağan edəcək və bu qanunların tətbiq olunmasını təmin edəcək yeganə güc dövlətdir. Bunun yanında cəmiyyətlərin təməl ehtiyacları olan sağlamlıq, milli təhsil, mədəniyyət, infrastruktur kimi xidmətlərin də əksəriyyəti dövlət tərəfindən qarşılanır. Dövlət tərəfindən təmin edilən bu nizamın qalıcı olması isə cəmiyyətin fərdlərinin dövlətə hörməti və itaəti ilə doğru mütənasibdir.

Türk tarixində dövlət təşkilatı həmişə müqəddəs olmuşdur. Türklər qurduqları güclü dövlətlərlə tarixdə adını yazdırmış bir millətdir. Bilge Kağanın "Ey Türk, üstünə mavi göy çökmədikcə, altında yağız yer deşilmədikcə sənin elini, adətini kim poza bilər?" sözü ilə ifadə etdiyi kimi, Türk dövlət anlayışında davamlılıq əsasdır. Eyni şəkildə Mustafa Kamal da "Mənim aciz bədənim əlbət bir gün torpaq olacaq, amma Türkiyə Cümhuriyyəti əbədi yaşayacaq" sözləri ilə bunu vurğulamışdır.



Atatürk dövlətə bağlılığın üzərində əhəmiyyətlə dayanmışdır. Çünki bir millətin varlığı və davamlılığı üçün güclü dövlətə sahib olması zəruridir. Və Türkiyə Cümhuriyyəti Türk millətinin faydasını güdən, millətin rifahının, təhlükəsizliyini və gələcəyinin yeganə təməli olan bir dövlətdir. Dövlətimizin qorunması, hər Türk vətəndaşının birinci vəzifəsidir. Vətənpərvər və milliyyətçi insanlar, dövlətin təşkilatlarına zərər verəcək, bu təşkilatların işləməsini axsadacaq, ya da dövlətin dəyərlərinə zərər verəcək fəaliyyətə qətiyyən girməyəcəkləri kimi, buna cürət edənlərin də qarşısında olacaq.



*"Əfəndilər, biz bizə bənzəyirik. Böyük dövlətlər quran atalarımız böyük və əhatəli mədəniyyətlərə sahib olmuşdular. Bunu axtarmaq, araşdırmaq, Türklüyə və dünyaya bildirmək bizim borcumuzdur. Türk uşaqları atalarını tanıdıqca daha böyük işlər görmək üçün özlərində güc tapacaqlar."43*

Yaxşı idarəetmə millətinin hüzur və səadətini təmin etmək üçün çalışar. Mustafa Kamal Atatürk bütün həyatı boyunca bunu etməyə çalışdı. Milləti üçün çalışmağı vəzifə hesab edirdi. "Millətə əfəndilik yoxdur. Xidmət vardır. Bu millətə xidmət edən, onun əfəndisi olar" sözü ilə rəhbərlərdə olmalı xüsusiyyəti ifadə etmişdir. Mustafa Kamal həyatı boyunca Türk dövlətinin və millətinin mənfəətlərini öz mənfəətlərinin üstündə tutan nadir dövlət adamlarından biridir. Müharibədəki qəhrəmanlığı qədər, dövlət qurub idarə etmədəki ustalığı, uzaqgörənliyi və sülhpərvərliyi ilə, Atatürk tarixdə tayı-bərabərinə az rast gəlinən bir rəhbərdir.

## HÖRMƏTLİ ADNAN OKTARIN KANAL MALATYA TV-DƏKİ MÜSAHİBƏSİ, 7 YANVAR 2009-Cİ İL

KANAL MALATYA: Atatürk dindar idi?

ADNAN OKTAR: Atatürk həm dindar, həm də mükəmməl insan idi. Səhərə qədər izah etsək, bitməz. Düşünün ki, bir insan müsəlmanların təməl ehtiyacı olan məlumatı, yəni Quranı təfsir etdirir. Və ən mükəmməl alimə, Almalılı Həmdi Yazar Əfəndiyə təfsir etdirir. Və bu təfsiri Türk xalqına təqdim edir. Və ən mötəbər hədis kitabını açıqlatdırır. Şərh etdirir. Səhihi Buxarini xalqına təqdim edir. Diyanət İşləri Nazirliyini qurur, xalqına təqdim edir. Və Türk millətinin ən böyük düşməni kommunistlikdir deyir. Və hər görüldüyü yerdə əzilməlidir. Tam aslan üslubudur, maşaAllah. Türk birliyini, İslam Birliyini, Türk İslam Birliyini müdafiə edir. Və Quran aşiqi idi, hər axşam Quran oxutdurub dinləyirdi. Peyğəmbərimizin (s.ə.v.) gözəl əxlaqını, onun gözəl həyatını çox yaxşı bilən insan idi. Peyğəmbərə pərəstiş edirdi. Yəni Atatürkün Peyğəmbərimiz (s.ə.v.) haqqında o qədər gözəl sözü vardır ki, söylədiyim kimi mən səhərə qədər izah etsəm, bitməz.... Məsələn, Atatürk deyir ki "Ey millət, Allah birdir. Şanı böyükdür." Ağzından nur axır, bax, maşaAllah. "Allahın salamı, xeyiri üzərinizə olsun. Qoyduğu əsas qanunlar" - diqqət edin- "Quranı azimüşandaki ayələrdir. İnsanlara bolluq ruhunu vermiş dinimiz son dindir. Mükəmməl dindir. Çünki dinimiz ağla, məntiqə, həqiqətə uyğun olmasaydı, bununla digər İlahi və təbii qanunlar arasında ziddiyyət olmalı idi. Bütün İlahi qanunları edən Allah-Təaladır." Tam Müsəlman övladıdır, bax, maşaAllah. "Bütün dünyanın Müsəlmanları Allahın son peyğəmbəri Hz. Məhəmmədin göstərdiyi yolu izləməlidirlər. Və verdiyi təlimatları tam tətbiq etməlidirlər."

## HÖRMƏTLİ ADNAN OKTARIN EKİN TV-DƏKİ MÜSAHİBƏSİ, 2 FEVRAL 2009-Cİ İL

ADNAN OKTAR: Atatürk dindarlığını bütün açıqlığı ilə ortaya qoyan bir insandır. Baxın, Atatürkün gündəliyindən bir az izah edim. Onda daha yaxşı başa düşərlər. 9 mart 1922-ci il, cümə axşamı, Sivrihisar, öz əl yazısı ilə. "Axşam saat səkkizə doğru İsmət Paşa gəldi. Əvvəla yemək, yeməkdən sonra 10 mart üçün proqram qərarlaşdırıldı. Siyasi vəziyyət haqqında məlumat verdim." Baxın, diqqət edin. "Ondan sonra hafizə Quran oxutduq." Buyurun. 10 mart 1922-ci il, cümə günü, Əziziyə. Öz əl yazısı ilə yazdığı gündəliyidir. "Səlahəddin Paşa da gəlmişdi. Birlikdə yemək yedik. Bəzi teleqraflar gəlmişdi. Gördüm," Sonra baxın nə deyir, "Hafizə Quran oxutdum". 17 mart cümə, Akşehir, qərargaha qayıdış. "Saat səkkizə qədər tək qaldım. Mustafa Abdülhalik Bəy gəldi, hafizə Quran oxutduq" və davam edir. 20 mart bazar ertəsi, Akşehir. "Fahrettin Altan Paşa və qərargahını yeməyə dəvət etmişdim. Hafizə Quran oxutduq." 24 mart cümə, Akşehir. "Sülh təklifini Cəlal Bey bildirdi. Cümə namazında hafiz Ulucamidə mövlud oxudu. Gecə yarısından sonra saat beşdə səhərə qədər Ankarada Nazirlər kabineti ilə görüş keçirdim." Gecə-gündüz Quran oxudan, hafizin oxuduğu Quranı zövqlə dinləyən bir insandır.

## Cəsur olmaq

Mustafa Kamal vətəni və milləti üçün canını fəda etməkdən çəkinməzdi. Çanaqqala müharibəsi əsnasında Anafartalar qrupunun komandiri ikən həmişə ön cəbhədə döyüşdü. Bu döyüş əsnasında Atatürkə bir qəlpə parçası dəymiş, lakin sağ cibində olan saatı onu ölümdən qurtarmışdı. Sakarya müharibəsi əsnasında atından yıxıldığına görə qabırğa sümükləri qırılmışdı. Buna baxmayaraq, cəbhədən ayrılmamış, müharibəni xərək üzərindən idarə etmişdi. Mənsubu olduğu Türk millətini sonsuz eşqlə sevən Mustafa Kamal Atatürk milləti üçün hər cür çətinliyə dözmüş və özünü ona həsr etmişdir. Onun "Mən lazım olduğu zaman ən böyük hədiyyəm olmaqla Türk millətinə canımı verəcəyəm" sözü vətən sevgisinin və cəsarətinin ən gözəl nümunələrindən biridir.

Atamızın cəsarəti Qurtuluş savaşı əsnasında Türk əsgərlərinə də cəsarət vermiş, bu cəsarətlə böyük möcüzə reallaşdırılmışdır. Cəbhədə həmişə ön sıralarda yer alan Atatürk, "Döyüşdə yağan güllə yağışı, o yağışdan ürkməyənləri ürkənlərdən daha az isladar"44 deyir. Hərbi sursat və hərbi gücü çox məhdud imkanlara sahib olan, yoxluq və kasıblıq içindəki Türk milləti dünyanın inkişaf etmiş ordularına qarşı tarixi zəfər qazanmışdır. Atatürkün Müstəqillik savaşında göstərdiyi saysız cəsarət nümunələrindən bir başqası da Çanaqqala müharibəsi əsnasında Conkbayırında yaşandı:

> *"9-cu diviziyaya bağlı 27-ci alayın əsgərlərinin Conkbayırına doğru qaçdıqlarını görən Mustafa Kamal, əsgərlərin önünü kəsərək soruşar:*

- Hara gedirsiniz?

- Düşmən gəldi.

- Haradadır?



Qəhrəman Türk ordusunun mehmetcikləri hər mövzuda olduğu kimi cəsarət mövzusunda da Atamızı özlərinə nümunə götürürlər.

Qaçan əsgərlər 261 rəqəmli təpəni işarə edərlər. Həqiqətən də, düşmən qarşısında heç bir mane olmayan təpəyə doğru yaxınlaşır. Mustafa Kamalın yanında isə bir-iki zabit və qaçan əsgərlərdən başqa heç kim yoxdur. Öz alayı hələ Kocaçimendədir. Dərhal idarəni ələ alaraq əmr verər:

- Düşməndən qaçılmaz.

- Sursatımız yoxdur.

- Sursatınızdan daha güclü süngünüz var.

- Süngü tax! Hücum!

- Dərhal arxasından “Allah, Allah” səsləri bütün düzənliyə yayılar. Qəhrəman Türk əsgəri süngüsü ilə, boğaz-boğaza düşmənlə döyüşər.”45

Vətənimizi əsarətdən qurtaran məhz bu nəcib ruh və böyük cəsarətdir. Və bu tarixi cəsarət bütün Türk millətinə nümunədir.

## Ağıllı və məntiqli davranmaq



Atatürk həyatı boyunca həmişə ağıllı davranan, aldığı qərarlarda çox məntiqli və məqsədəuyğun olan bənzərsiz dövlət adamı idi. Atatürk onun yolunu izləyənlərin də ağıllı və məntiqli olmasına əhəmiyyət verərdi. Necə ki, Atatürk qanun və islahatları da ictimai irəliləmədə, təməl olaraq ağıl və məntiqi əsas götürmüşdü. Atatürkün bu sözü onun islahatçılığını, ağıl və məntiqə verdiyi dəyəri ən gözəl şəkildə ifadə edir:

> *"Bizim ən böyük xüsusiyyətimiz ağıl, məntiq və zəka ilə hərəkət etməkdir. Bütün həyatımızı dolduran hadisələr bu həqiqətin dəlilidir."*46

Mustafa Kamalın hadisələrə yanaşması həmişə məntiqli və real olmuşdur. Millətinə həmişə həqiqətləri söyləmiş və bunu tövsiyə etmişdir. "Milləti ağlımızın yetmədiyi, etmək qüdrət və qabiliyyətini özümüzdə görmədiyimiz məqamlar haqqında aldadaraq müvəqqəti mənfəətlər əldə etməyə tənəzzül etmərik" sözü bunun ən təəccüblü nümunələrindən biridir. "Dünyada hər şey üçün, mədəniyyət, həyat, müvəffəqiyyət üçün ən həqiqi mürşid elmdir, fəndir" sözü ilə də ağıl və elmə verdiyi əhəmiyyəti bir daha göstərmiş, həqiqəti ancaq bu yolla gələ biləcəyini bildirmişdi.

Atatürkün ağlının əhəmiyyətli göstəricilərindən biri də həmişə düşünərək, bir neçə addım sonranı yaxşı hesablayaraq, planlı və proqramlı hərəkət etməsidir. "Hər şeyi düşünmədən hərəkət etsəm, səhv edərəm" deyən Atatürkün yaxın iş yoldaşları da bu xüsusiyyətinə dəfələrlə şahid olmuşlar. Atatürk istər əsgərlik illərində, istərsə islahatların ard-arda edildiyi Cümhuriyyətin ilk illərində hər mərhələni çox yaxşı planlamış, hər ehtimalı hesaba almışdır. Hər tərəfli qiymətləndirib, qərar verdiyi mövzuları tətbiq etməkdə də, heç bir şərt altında əsla zəiflik göstərməmişdir. Heç bir zaman duyğuları ilə hərəkət etməmiş, həmişə ağlına tabe olmuşdur. Atatürkün bu xüsusiyyətini ifadə edən bəzi sözləri belədir:

> *"Müxtəlif ehtimalları çox yaxşı hesab etməli, ən yaxşı görünəni cürət və qətiyyətlə tətbiq etməlidir."47*

> *"Bu təklifi ortaya qoyarkən bütün o yoldaşlarımızın və mənim heç vaxt duyğularımıza tabe olmadığımızı düşünürəm. Əksinə, özümüzü duyğulardan maddəyə sövq etdik. Rəqəmlərə əsaslandıq, həqiqətlərə baxdıq."48*

> *"Bu son yurd parçasını qurtararkən ehtiraslarımızı bir kənara buraxıb düşüncəli olaq."49*

Atatürkün bu xüsusiyyətləri onun realist olmasını təmin etmişdir. Başda ölkənin inkişafı mövzusu olmaqla realizmdən heç ayrılmadığını, etdiyi islahatların və ölkəmizi inkişaf etdirmə planlarının nə qədər həqiqi olduğunu isə belə ifadə edir:

> *"Biz məmləkəti bir neçə ildə tamamilə dəyişdirmək xülyasına qapılmamış; edəcəyimiz şeylər haqqında hiyləgər vədlərdə verməməyi prinsip olaraq qəbul etmişik. "Məmləkəti abadlıq edəcəyik" dediyimiz zaman yalnız edə biləcəyimiz şeyləri edəcəyik."50*

Şübhəsiz ki, realizm bir dövlət adamının sahib olduğu çox əhəmiyyətli xüsusiyyətdir. Tarix boyunca həqiqi davranmayan, öz ehtiras və duyğularına qapılan bir çox lider millətlərini böyük fəlakətlərin içinə sürümüşdür. "Həqiqətin də gözünün içinə baxmaq lazımdır" deyən Atamız isə ağılı, məntiqi, realistliyi ilə bütün dünyaya nümunədir. Əlbəttə, vətənə xidmət etmək istəyən səmimi insanlar da Atamızın bu nümunəvi rəftarını ağıllarından heç çıxarmamalıdırlar.

## Dürüst olmaq

Mustafa Kamal Atatürkün ən əhəmiyyətli ərdəmlərindən biri də şərtlər nə olursa olsun dürüst olması, hər zaman doğrunu söyləməsi və doğru bildiyini açıqca ifadə etməkdən əsla çəkinməməsi idi. Bu sözləri bunun ən gözəl nümunəsidir:

*"Mən düşündüklərimi sevdiklərimə olduğu kimi söyləyirəm. Eyni zamanda əhəmiyyətsiz sirri ürəyimdə daşımaq iqtidarında olmayan şəxsəm. Çünki mən bir xalq adamıyam. Mən düşündüklərimi daim xalqın hüzurunda söyləməliyəm."51*

*"Yoldaşlar, bir-birimizə daim həqiqəti söyləyəcəyik. Fəlakət və səadət gətirsin, yaxşı və pis olsun, heç vaxt həqiqətdən ayrılmayacağıq."52*




Atatürkün millətinə duyduğu sevgi və hörmətin ən əhəmiyyətli nümunələrindən biri suverenliyin yalnız millətə aid olmalı olduğunu söyləməsi idi. 1920-ci ildə qurulan TBMM isə milli suverenliyin təmsil edildiyi ən əhəmiyyətli təşkilatdır.

*"Millətin başçısı olan adamın xalqa doğrunu söyləməsi və xalqı aldatmaması, xalqı ümumi vəziyyətdən xəbərdar etməsi çox əhəmiyyətlidir."53*

Atatürkü böyük əsgər, qüsursuz dövlət adamı edən ən əhəmiyyətli xüsusiyyətlərindən biri xalqına qarşı həmişə səmimi olması idi. Atatürk səmimiyyətin, dürüstlüyün və doğruluğun bir çox fəlakəti maneə törədici gücü olduğunu bilirdi. Problemlərin gizlənərək deyil, ortaya qoyulub əməkdaşlıq ilə üzərinə gedilərək həll edilə biləcəyinə inanırdı. "İctimaiyyəti həqiqi vəziyyətlə qarşı-qarşıya buraxmağı üstün tuturam" deyərkən də bu anlayışını ən gözəl şəkildə ifadə edirdi. Böyük

Öndərin açıqlığa, dürüstlüyə və səmimiyyətə verdiyi əhəmiyyəti göstərən digər bəzi sözləri də belədir:

> *“Bir şeyi vicdani olaraq yaxşı etdiyimizə, sözlərimizin yaxşı olduğuna inanırıqsa, onu olduğu kimi açıq, tərəddüddən və bilinməzdən təmizlənmiş olaraq izah etməyi məqsəd qoymalıyıq.”54*

> *“Səmimi və qanuni olmaq şərti ilə hər fikrə hörmət edərik. Hər fikir bizim üçün şərəflidir.”55*

## Təhsilə əhəmiyyət vermək

Atatürk üçün təhsil, ictimai və mədəni inkişafın ən təsirli vasitələrindən biri Cümhuriyyətin davamlılığını təmin edəcək ən əhəmiyyətli yol idi. Qurtuluş savaşını qazandıqdan sonra yeni qurulacaq Türkiyə Cümhuriyyətinin ayaqda qala bilməsi üçün gənc nəslin müasir təhsil üsulları ilə yetişdirilməsi lazım idi. Bu səbəblə, təhsil mövzusuna böyük əhəmiyyət verdi. Qurtuluş savaşından sonra, “Məmləkəti qurtardınız, indi nə etmək istəyərsiniz?” sualına Atatürk: “Maarif vəkili olaraq milli mədəniyyəti yüksəltməyə çalışmaq ən böyük amalımdır” cavabını vermişdi.

Atamız Türk millətinin aydın sabahları üçün əlində təbaşir, lövhə başına keçərək xalqımıza oxuma-yazma öyrətdi, müasir təhsil siyasətinin əsaslarını təyin edib təhsil sahəsində böyük islahatlar apardı. Təhsil proqramlarının hazırlanması ilə əlaqədar komissiyaları idarə etdi, dərslik yazdı, kürsüyə çıxıb dərs keçdi. Millətimizin baş müəllimi oldu. Hər fürsətdə təhsilə verilməli olan əhəmiyyəti dilə gətirdi. Milli təhsilin əhəmiyyətinin fərqində olan Atamız gənclərimizə verilən təhsildə hansı məqamlara diqqət yetirilməli olduğunu da bizə bildirmişdi:

> *“Milli təhsil gənc beyinlərə insanlığa xidməti, millət və dövlətə sevgini və millət olaraq müstəqil yaşamanın şərəfini öyrətməlidir. Lakin insan toplumundakı xəstəliyi görmək, onu müalicə etmək, o toplumu əsrin zərurətlərinə görə inkişaf edə bilmək üçün, bu mənəvi xüsusiyyətlər tək başına yetərli olmaz; bunların yanında elm və fənn də öyrədilməlidir.”56*



1938-ci ildəki Bursa gəzintisində gənclər və uşaqlar Atamızı coşğuyla qarşılamışlar.

Atatürkün idealı verilən təhsil sayəsində, əxlaqlı, mədəni, məmləkət problemləri ilə əlaqədar, milli mədəniyyətimizi yaşayan və yaşadan, çalışqan və vətənpərvər bir gəncliyin yetişməsini təmin etmək idi. Bu səbəblə, gənclərin milli şüuru qazanmalarını təmin edəcək təhsil anlayışının yaradılması üzərində çox dayanmış, gənclərimizin tarix şüurunun inkişafını xüsusilə istəmişdir. Keçmişi yaxşı bilən nəsillərin gələcəyə daha etibarla baxacaqlarına inanan Atatürkün təhsil mövzusunda diqqət çəkdiyi mövzulardan biri də gənclərin təhlükəli fikirlər və ideologiyalar mövzusunda xəbərdar edilməsi idi. Bunların başında vətənimizin bölünməzliyini təhdid edən, dövlətimizin böhrana düşməsinə yönəlik fəaliyyətlər edən, milli birliyi və bərabərliyi sarsıdacaq fikirlər gəlirdi.

Uşaqlarımıza və gənclərimizə görəcəkləri təhsilin sərhədi nə olursa olsun, əvvəlcə və hər şeydən əvvəl Türkiyənin müstəqilliyinə, öz mənliyinə, milli ənənələrinə düşmən olan bütün ünsürlərlə mübarizə etmək lazım olduğu öyrədilməlidir.

Bu, böyük öndərin bizə əhəmiyyətli vəsiyyətidir. Bu səbəblə, müasir dövrdə də gənclərin bölücü və materialist ideologiyalara, milli birliyimizi və mənəviyyatımızı hədəf alan fikirlərə qarşı xəbərdar edilmələri, bu mövzuda şüurlandırılmaları həqiqi Atatürkçülərin prioritet məsuliyyətlərindəndir.

## Qərarlı olmaq



Atatürk qərarlı və mübarizəçi lider idi. Çətinliklər qarşısında qorxmayan, ümidsizliyə düşməyən şəxsiyyəti ilə uşaqlığından etibarən yoldaşlarının arasında önə çıxmışdı. Müvəffəqiyyət əldə edə bilmək üçün əzmli davranmaq lazım olduğunu çox yaxşı bilirdi. Hələ gənclik illərində vətəni üçün yeni gələcək planlamış və göstərdiyi dayanıqlılıqla addım-addım bu planı reallaşdırmışdır. Atamızın əzmi və dayanıqlılığı bütün Türk millətinə nümunədir. Atamızın bu mövzudakı tövsiyələri bu şəkildədir:

*"Təşəbbüslərin müvəffəqiyyətli olması üçün çətin şərtlərə sinə gərmək lazımdır."57*

*"Fəlakətlər insanları daim daha əzmkar, dinc hücumlara sövq edər."58*

*"Müvəffəqiyyətlərdə qüruru məğlub etmək, fəlakətlərdə ümidsizliyə müqavimət göstərmək lazımdır."59*

Atatürkün əzmini və dayanıqlılığını ortaya qoyan bir nümunə isə, Qurtuluş savaşının ilk illərində yaşanan bir hadisədir:

*“Qurtuluş savaşın başladığı sırada Atatürkə dedilər ki:*

- Necə ola bilər? Ordu yoxdur!

Atatürk dərhal cavab verdi:

- Edilər!

- Yaxşı, amma bunun üçün pul lazımdır...o da yoxdur?

- Tapılar!

- Deyək ki tapdıq, düşmənlərimiz həm böyük, həm də çoxdurlar.

- Olsun, məğlub olar!”60

Atamızın dayanıqlılığını və idealına olan bağlılığını və inancını gözlər önünə sərən digər bəzi sözləri isə bu şəkildədir:

*“Heç vaxt ümidsiz olmayacağıq, çalışacağıq və məmləkəti qurtaracağıq.”61*

*“Tərəqqi yolumuza mane olmaq istəyənləri əzib keçəcəyik. Yenilik vadisində dayanmayacağıq. Dünya böyük sürətlə irəliləyir. Biz bu ahəngin kənarında qala bilərikmi?”62*

## Sülhpərvər olmaq



*"Yurdda sülh, dünyada sülh" anlayışını mənimsəyən Atatürk sülhə əhəmiyyət verən lider idi. Onun fikrincə bütün dünya ölkələri sülhün qorunması üçün səy göstərməli idilər. Atatürkə görə Türk milləti dünya sülhünü təmin edə biləcək, dünyaya hüzur və güvən gətirə biləcək bir millət idi. Həyatı boyunca millətlər arasında sülhün təməl olduğu bir əlaqə yaratmaq üçün səy göstərdi. Bu səylərinə nümunə olaraq 1934-cü ildə imzalanan Balkan müqaviləsi idi, 1937-ci ildə imzalanan Sədabat paktı göstərilə bilər. Atatürkün sülhə verdiyi əhəmiyyətin təməlində insana duyduğu hörmət və sevgi vardı. Rumıniya Xarici İşləri Naziri ilə etdiyi çıxışda insana və insanların sülh içində yaşamaları lazım olduğu mövzusuna verdiyi əhəmiyyəti belə ifadə etmişdir:*

*"İnsan, mənsub olduğu millətin varlığını və xoşbəxtliyini düşündüyü qədər, bütün dünya millətlərinin hüzur və rifahını düşünməli və öz millətinin xoşbəxtliyinə nə qədər qiymət verirsə, bütün dünya millətlərinin xoşbəxtliyinə xidmət etməyə əlindən gəldiyi qədər çalışmalıdır. Bütün ağıllı insanlar bu yolda çalışmaqla heç bir şeyin itirilmədiyini bilirlər. Çünki dünya millətlərinin xoşbəxtliyinə çalışmaq, digər bir yoldan öz hüzur və xoşbəxtliyini təmin etməyə çalışmaq deməkdir."63*

Atatürkə görə müharibə ancaq zəruri şərtlər altında və müdafiə etmə məqsədi ilə edilməli olan bir üsul idi və bütün millətlər problemlərini prioritet olaraq mütləq sülh yolu ilə həll etməli idi.

*"Müharibə zəruri və vacib olmalıdır. Həqiqi qənaətim budur, milləti müharibəyə aparınca vicdanımda əzab duymamalıyam. "Öldürəcəyik" deyənlərə "ölməyəcəyik" deyərək hərbə girə bilərik. Lakin millətin həyatı təhlükəyə məruz qalmadıqca müharibə cinayətdir."64*

Atatürkün əhəmiyyətlə üzərində dayandığı sülhpərvərlik Türk millətində olan xüsusiyyətdir. Türk milləti tarix boyunca ədaləti və tolerantlığı ilə fəth etdiyi bütün torpaqlara hüzur, təhlükəsizlik və sülh aparmışdır. Türk milləti iradəsi altındakı fərqli irq və dindən insanlar həmişə Türk idarəsindən məmnun və razı olmuşlar. Osmanlı İmperatorluğu bunun gözəl bir nümunəsidir. Osmanlı sərhədləri daxilində olan heç bir bölgə müstəmləkə rəftarı görməmiş, yerli xalqın razı olmayacağı, sülhün zədələniləcəyi heç bir tətbiq edilməmişdir.

## Xidmətdən qaçmamaq



Sivilizasiya yolunda getməyi və mütləq müvəffəqiyyətə çatmağı bizim üçün hədəf olaraq təyin edən Atamızın gözləntilərini reallaşdıra bilmək üçün vətənə xidməti hər şeyin üstündə tutmaq çox əhəmiyyətlidir. Atatürk gənclik illərindən etibarən həmişə vətəni üçün hər cür fədakarlığa və vəzifəyə talib olmuş, vətən xidmətindən heç vaxt qaçmamışdır. Mustafa Kamalın həyatı vətənə xidmət eşqinin və bu uğurda gözə alınan bir çox fədakarlığın nümunələri ilə doludur. Mustafa Kamal xatirələrin tək başına da olsa, vətəni düşmənlərdən qurtarma vəzifəsinə necə talib olduğunu belə təlqin edir:

> *"Məncə, bütün məmləkətin gözlə görülər fəlakətə atıldığını gördükdən və bütün Türk ordusunun fəlakətin hər çarəyə müraciət edərək qarşısını almaq üçün qanını tökməyə hazırlanmasından başqa çarə qalmadığını anladıqdan sonra, mənim hələ Sofyada diplomatik korpus içində rahat salon həyatı keçirməmə imkan ola bilərdi? Ali Baş Komandanlıq vəkalətinə yazı ilə müraciət etdim. Ordu içində rütbəmlə mütənasib bir vəzifənin mənə verilməsini xahiş etdim. Ali Baş Komandan vəkili tərəfindən mənə çox nəzakətli bir cavab verildi:*

- Sizin üçün orada da həmişə bir vəzifə mövcud idi. Lakin Sofya hərbi attaşesi qalmağınız daha əhəmiyyətli görüldüyü üçün sizi orada qoyuruq.

Cavab verdim:

- Vətənin müdafiə etməsinə aid hərəkəti vəzifələrdən daha əhəmiyyətli və uca vəzifə ola bilməz. Yoldaşlarım müharibə cəbhələrində, atəş xətlərində olarkən, mən Sofyada attaşelik edə bilmərəm. Əgər birinci sinif zabit olmaq ləyaqətindən məhrumamsa, qənaətiniz budursa, xahiş edirəm, açıq söyləyin.

Bundan sonra 19-cu diviziya komandirliyinə təyin edildim."65

Böyük Öndərin məsuliyyəti boynuna götürmənin əhəmiyyəti üzərinə digər fikirləri isə bu şəkildədir:

> *"Məsuliyyəti üzərinə götürmək cəsarət və həvəsi hər işdə ən çox lazım olan xasiyyətdir. Əksər insanlar məsuliyyətin başqalarında olduğunu bildikləri zaman, ən cəsur və cürətli olarlar; lakin əgər məsuliyyət özlərində olsa, bu cəsarət və cürətin azaldığı və utancaq olduqları görülər. Halbuki məsuliyyəti bilərək, hesablayaraq üzərinə alan insanlar, kiçik və böyük aldıqlarda işlərdə müvəffəqiyyət əldə edərlər."66*

Mustafa Kamal Atatürk də vacib mövzularda məsuliyyəti tək başına boynuna götürərək, əsla utancaqlıq və tərəddüd göstərməyərək bütün Türk millətinə nümunə olmuşdur. Vətənpərvər insanlara da yaraşan, hər cür maddi dəyəri itirmək, müxtəlif çətinliklərə dözmək uğuruna da olsa, vətənin və millətin gələcəyi üçün ediləcək işlərdə canı bahasına bir an belə dayanmamaq, vətən xidmətində tərəddüdsüz önə atılmaq və cəsarəti ilə digərlərinə nümunə olmaqdır.

IV FƏSİL

# Nəticə

Kitab boyunca böyük Öndər Atatürkün vətən eşqini, millətinə duyduğu dərin sevgi və bağlılığını, Atamızın sözləri və həyatından nümunələr ilə ələ aldıq. Atamızın millətinə inancı və etibarı sonsuzdur. Gücünün qaynağını Türk millətindən aldığı hər fürsətdə vurğulamışdır. Türk olmaqla öyünən, Türk millətinin tarixi, əxlaq xüsusiyyətləri, mənəvi dəyərləri, mədəniyyəti, inancı ilə şərəf duyan böyük bir liderdir. Böyük Öndərin bizə öyrətdiyi ən əhəmiyyətli dərslərdən biri isə, vətən və millət sevgisi ilə dolu olanların aşa bilməyəcəkləri heç bir maneə olmadığıdır. Atatürk öz həyatı ilə bu həqiqətin açıq bir nümunəsi olaraq qarşımızda dayanır.

Atatürk özündən sonra gələn nəslin də, eynilə özü kimi, vətən və millət sevgisini hər şeyin üstündə tutan fərdlər olmalarını istəmiş, vətən torpağına, müstəqilliyimizə, bayrağımıza göz dikən hər cür ünsürə qarşı millət olaraq mübarizə aparmanın vəzifələrin ən ucası olduğunu bildirmişdir. Bu müqəddəs vəzifəni əvvəlcə qəhrəman Türk ordumuz və ordumuzla birlikdə bütün millətimiz boynuna götürmüşdür. Böyük Öndər ordumuzun boynuna götürdüyü bu vəzifəni belə ifadə etmişdir:

> *"Zəfərləri və keçmişi insanlıq tarixi ilə başlayan, həmişə zəfərlə birlikdə mədəniyyət nurları daşıyan qəhrəman Türk ordusu məmləkətini ən böhranlı və müşkül anlarda zülm, fəlakət və müsibətlərdən və düşmən zəbtindən necə qorumuş və qurtarmısansa, Cümhuriyyətin müasir silah və sursatları ilə təchiz edildiyi halda vəzifəni eyni bağlılıqla edəcəyinə heç şübhəm yoxdur."67*

Bizə düşən vəzifə isə milli düşüncəni inkişaf etdirmək, milli tariximizi yeni nəsillərə ötürmək, həmişə milli şüura dəstək olmaq, milli iradəni gücləndirmək üçün səy göstərməkdir. Milli birlik anlayışı içərisində tək bədən olaraq hərəkət edildiyində vətənimizi çiçəklənən, inkişaf etmiş və güclü bir dövlət olaraq yaşada bilər və dünya millətləri arasında layiq olduğu lider mövqeyə gətirə bilərik. Həqiqi vətənpərvərlərin və Atatürk milliyyətçilərinin izləməli olduğu yol budur. Atamızın aşağıdakı sözündə bildirdiyi kimi, milli birlik və həmrəy olunduğu müddətcə nəcib Türk millətinin aşa bilməyəcəyi çətinlik yoxdur. Türk milləti böyük Öndərin bu mövzudakı vəsiyyətini izləməkdən əsla yorğun düşməyəcək, heç bir şəkildə bu mövzuda güzəştə getməyəcək.

> *"Məmləkətin hüzuru millətin qurtuluş məqsədi nöqtəsində, birlik və həmrəyliyi təmin edilmədikcə, nə xarici düşmən işğallarının köklərini qurutmağa çalışmaq mümkündür, nə də bundan əsaslı nəticə və fayda gözlənilməlidir."68*

ƏLAVƏ BÖLMƏ

# TƏKAMÜL YALANI

Darvinizm, yəni təkamül nəzəriyyəsi yaradılış həqiqətini inkar etmək məqsədilə irəli sürülmüş, ancaq uğursuzluqla nəticələnmiş elmdən kənar cəfəngiyatdan başqa bir şey deyil. Canlıların cansız maddələrdən təsadüfən əmələ gəldiyini iddia edən bu nəzəriyyə kainatda və canlılarda çox möcüzəvi nizam olduğunun elm tərəfindən sübut edilməsi ilə və təkamül prosesinin əsla baş vermədiyini göstərən 350 milyona yaxın fosilin tapılması ilə süqut etmişdir.

Beləliklə, Allahın bütün kainatı və canlıları yaratdığı elm tərəfindən də sübut edilmişdir. Bu gün təkamül nəzəriyyəsini dirçəltmək üçün dünya səviyyəsində aparılan təbliğat sadəcə elmi həqiqətlərin təhrif olunmasına, tərəfli şərhinə, elm adı altında söylənilən yalan və saxtakarlıqlara əsaslanır.

Ancaq bu təbliğat həqiqəti gizlətmir. Təkamül nəzəriyyəsinin elm tarixində ən böyük xəta olması son 20-30 il ərzində elm dünyasında getdikcə daha ucadan dilə gətirilir. Xüsusilə 1980-ci illərdən sonra aparılan tədqiqatlar darvinist iddiaların tamamilə səhv olduğunu üzə çıxarmış və bu həqiqət bir çox elm adamı tərəfindən dilə gətirilmişdir. ABŞ-da biologiya, biokimya, paleontologiya kimi fərqli sahələrlə məşğul olan bir çox elm adamı darvinizmin əsassızlığını görür, canlıların mənşəyini artıq yaradılışla açıqlayırlar.

Təkamül nəzəriyyəsinin süqutundan və yaradılış dəlillərindən digər bir çox əsərimizdə bütün elmi təfərrüatları ilə bəhs etmişik və etməyə davam edirik. Ancaq əhəmiyyəti baxımından mövzudan burada da bəhs etməkdə fayda var.

## Darvini məhv edən çətinliklər




Çarlz Darvin

Təkamül nəzəriyyəsi tarixi qədim yunanlara gedib çıxan bir təlim olmasına baxmayaraq, XIX əsrdə hərtərəfli şəkildə irəli sürüldü. Nəzəriyyəni elm dünyasının gündəminə gətirən ən mühüm irəliləyiş Çarlz Darvinin 1859-cu ildə nəşr edilən “Növlərin mənşəyi” adlı kitabı idi. Darvin bu kitabda dünyadakı müxtəlif canlı növlərini Allahın ayrı-ayrı yaratdığına qarşı çıxırdı. Darvinin fikrincə, bütün növlər ortaq əcdaddan törəmiş və zaman ərzində kiçik dəyişikliklərlə müxtəlifləşmişdilər.

Darvinin nəzəriyyəsi heç bir konkret elmi tapıntıya əsaslanmırdı; özünün də qəbul etdiyi kimi, sadəcə bir məntiq yeritmə idi. Hətta Darvin kitabındakı "Nəzəriyyənin qarşısında duran çətinliklər" başlıqlı uzun bölmədə etiraf etdiyi kimi, nəzəriyyə bir çox mühüm suala cavab verə bilmirdi.

Darvin nəzəriyyəsinin qarşısındakı çətinliklərə inkişaf edən elmin üstün gələcəyinə, yeni elmi kəşflərin nəzəriyyəsini gücləndirəcəyinə ümid edirdi. Bunu kitabında tez-tez bildirirdi. Ancaq inkişaf edən elm Darvinin ümidlərinin tam əksinə, nəzəriyyənin əsas iddialarını bir-bir əsassız qoydu.

Darvinizmin elm qarşısındakı məğlubiyyətini üç əsas başlıq altında təhlil etmək olar:

Nəzəriyyə həyatın yer üzündə ilk dəfə necə ortaya çıxdığını əsla açıqlaya bilmir.

Nəzəriyyənin irəli sürdüyü təkamül mexanizmlərinin, əslində, təkamül xarakterinə malik olduğunu göstərən heç bir elmi tapıntı yoxdur.

Fosillər təkamül nəzəriyyəsinin iddialarının tam əksini göstərir.

Bu bölmədə bu üç əsas başlığı əsaslı təhlil edəcəyik.

## Keçilməz ilk pillə: Həyatın mənşəyi

Təkamül nəzəriyyəsi bütün canlı növlərinin bundan təxminən 3.8 milyard il əvvəl dünyada fantastik şəkildə təsadüfən meydana gələn bircə canlı hüceyrədən törədiklərini iddia edir. Bircə hüceyrənin milyonlarla kompleks canlı növünü necə əmələ gətirməsi və əgər həqiqətən bu cür təkamül baş vermişsə, nə üçün izlərinin fosillərdə tapılmadığı nəzəriyyənin açıqlaya bilmədiyi suallardandır. Ancaq bütün bunlardan əvvəl iddia edilən təkamül prosesinin ilk pilləsi üzərində dayanmaq lazımdır. Həmin ilk hüceyrə necə ortaya çıxmışdır?

Təkamül nəzəriyyəsi cahilliklə yaradılışı inkar etdiyinə görə, həmin ilk hüceyrənin heç bir plan və nizam olmadan təbiət qanunları çərçivəsində təsadüfən meydana gəldiyini iddia edir. Yəni bu nəzəriyyəyə əsasən, cansız maddə kortəbii təsadüflər nəticəsində ortaya canlı hüceyrə çıxarmalıdır. Ancaq bu, məlum olan ən təməl biologiya qanunlarına zidd iddiadır.

## Həyat həyatdan gəlir

Darvin kitabında həyatın mənşəyindən heç bəhs etməmişdi. Çünki onun dövründəki ibtidai elm anlayışı canlıların çox sadə quruluşa malik olduqlarını fərz edirdi. Orta əsrlərdən bəri "spontane generation" adlı nəzəriyyəyə əsasən, cansız maddələrin təsadüfən birləşərək canlı varlıq əmələ gətirməsinə inanırdılar. Bu dövrdə həşəratların yemək artıqlarından, siçanların da buğdadan əmələ gəlməsi geniş yayılmış düşüncə idi. Bunu sübut etmək üçün qəribə təcrübələr aparılmışdı. Çirkli əsginin üstünə bir az buğda qoyulmuş və bir müddət sonra bu qarışıqdan siçanların əmələ gəlməsini gözləmişdilər.

Ətin qurdlanması da həyatın cansız maddələrdən törədiyinə dəlil hesab edilirdi. Lakin daha sonra məlum olacaqdı ki, ətin üstündəki qurdlar öz-özlərindən əmələ gəlmirlər, milçəklərin gətirib qoyduğu gözlə görülməyən sürfələrdən çıxırdılar. Darvin "Növlərin mənşəyi" adlı kitabını yazdığı

dövrdə isə bakteriyaların cansız maddədən əmələ gəlməsi inancı elm dünyasında geniş şəkildə qəbul edilirdi.

Lakin Darvinin kitabının nəşr edilməsindən beş il sonra məşhur fransız bioloq Lui Paster təkamülə əsas verən bu inancı qəti şəkildə təkzib etdi. Paster apardığı uzun elmi fəaliyyət və təcrübələrdə gəldiyi nəticəni belə şərh etmişdi:

> *"Cansız maddələrin həyatı əmələ gətirməsi iddiası artıq qəti şəkildə tarixə gömülmüşdür". (Sidney Fox, Klaus Dose, Molecular Evolution and The Origin of Life, New York: Marcel Dekker, 1977, səh. 2)*

Təkamül nəzəriyyəsinin tərəfdarları Pasterin kəşflərinə uzun müddət qarşı çıxdılar. Ancaq inkişaf edən elm canlı hüceyrəsinin mürəkkəb quruluşunu üzə çıxardıqca həyatın öz-özünə əmələ gəlməsi iddiasının əsassızlığı daha da açıq şəkil aldı.

## XX əsrdəki nəticəsiz səylər



Aleksandr Oparinin həyatın mənşəyinə təkamülçü izah gətirmək üçün icra etdiyi səylər böyük bir uğursuzluqla nəticələndi. Ən son təkamülçü qaynaqların da qəbul etdiyi kimi, həyatın mənşəyi, hələ təkamül nəzəriyyəsi üçün böyük bir dilemmadır.

XX əsrdə həyatın mənşəyi mövzusunu tədqiq edən ilk təkamülçü məşhur rus bioloq Aleksandr Oparin oldu. Oparin 1930-cu illərdə irəli sürdüyü bəzi tezislərlə canlı hüceyrəsinin təsadüfən meydana gələ biləcəyini sübut etməyə çalışdı. Ancaq bu fəaliyyətlər uğursuzluqla nəticələnəcək və Oparin bu etirafı etməli olacaqdı:

*“Təəssüf ki, hüceyrənin mənşəyi təkamül nəzəriyyəsinin tamamilə əhatə edən ən qaranlıq nöqtədən ibarətdir”. (Alexander I. Oparin, Origin of Life, (1936) New York, Dover Publications, 1953 (Reprint), səh. 196)*




Oparinin yolunu davam etdirən təkamülçülər həyatın mənşəyi problemini həll etmək üçün təcrübələr aparmağa çalışdılar. Bu təcrübələrin ən məşhuru amerikalı kimyaçı Stenli Miller tərəfindən 1953-cü ildə aparıldı. Miller ibtidai atmosferdə mövcud olduğunu iddia etdiyi qazları bir

təcrübədə birləşdirdi və bu qarışığa enerji verərək zülalları təşkil edən bir neçə üzvi molekul (amin turşusu) sintezlədi.

O illərdə təkamüllə bağlı mühüm mərhələ kimi tanıdılan bu təcrübənin əsassız olduğu və təcrübədə tətbiq edilən atmosferin yer şərtlərindən çox fərqli olduğu sonrakı illərdə üzə çıxacaqdı. ("New Evidence on Evolution of Early Atmosphere and Life", Bulletin of the American Meteorological Society, c. 63, Kasım 1982, səh. 1328-1330)

Uzun sükutdan sonra Millerin özü də tətbiq etdiyi atmosfer mühitinin həqiqi olmadığını etiraf etdi. (Stanley Miller, Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules, 1986, səh. 7)

Həyatın mənşəyi problemini açıqlamaq üçün XX əsr boyu göstərilən bütün təkamülçü səylər uğursuzluqla nəticələndi. San Diyeqo Skrips İnstitutundan məşhur geokimyaçı Cefri Bada təkamülçü "Earth" jurnalında 1998-ci ildə dərc edilən bir məqalədə bu həqiqəti belə qəbul edir:

> *"Bu gün XX əsri arxada qoyarkən hələ də XX əsrin başlanğıcındakı ən böyük həll edilməmiş problemlə qarşı-qarşıyayıq: həyat yer üzündə necə başlayıb". (Jeffrey Bada, Earth, Şubat 1998, səh. 40)*

## Həyatın kompleks quruluşu

Təkamülçülərin həyatın mənşəyi ilə bağlı bu qədər çıxılmaz vəziyyətə düşməsinin başlıca səbəbi ən sadə hesab etdikləri canlıların bu qədər mürəkkəb quruluşa malik olmasıdır. Canlı hüceyrəsi insanın hazırladığı bütün texnoloji məhsullardan daha mürəkkəbdir. Belə ki, bu gün dünyanın ən qabaqcıl laboratoriyalarında belə cansız maddələr birləşdirilərək nəinki canlı hüceyrə, hətta hüceyrəyə aid bircə zülal da hasil etmək mümkün deyil.

Bir hüceyrənin meydana gəlməsi üçün lazımlı şərtlər əsla təsadüflərlə açıqlanmayacaq qədər çoxdur. Lakin bunu açıqlamağa heç ehtiyac yoxdur. Təkamülçülər hələ hüceyrə səviyyəsinə çatmadan çıxılmaz vəziyyətə düşürlər. Çünki hüceyrənin əsasını təşkil edən zülalların təsadüfən sintezlənmə ehtimalı riyazi cəhətdən sıfırdır.

Bunun ən əsas səbəbi budur ki, bir zülalın əmələ gəlməsi üçün başqa zülallar da olmalıdır. Bu səbəb bir zülalın təsadüfən əmələgəlmə ehtimalını tamamilə aradan qaldırır. Ona görə, təkcə bu fakt təkamülçülərin təsadüf iddiasını təkzib etmək üçün kifayətdir. Mövzunun əhəmiyyətini qısaca açıqlayaq:

Fermentlər olmasa, zülal sintezlənə bilməz, fermentlər də zülaldır.

Bircə zülalın sintezlənməsi üçün 100-ə yaxın hazır zülal olmalıdır. Ona görə, zülalların olması üçün zülallar lazımdır.



Canlı hüceyrələrinin nüvəsində yer alan DNT molekulu, dörd ayrı molekulun fərqli düzülməsindən yaranan bir növ məlumat bankıdır. Bu məlumat bankında canlı ilə əlaqədar bütün fiziki xüsusiyyətlərin şifrələri yer alar. İnsan DNT-si kağıza yazılsa, ortaya təxminən 900 cildlik ensiklopediya ortaya çıxacağı hesablanmışdır. Əlbəttə bu cür fövqəladə bir məlumat, təsadüf anlayışını qəti şəkildə etibarsız edir.

Zülalları sintezləyən fermentləri DNT hazırlayır. DNT olmasa, zülal sintezlənə bilməz. Ona görə, zülalların əmələ gəlməsi üçün DNT də lazımdır.

Zülal sintezləmə prosesində hüceyrədəki bütün orqanoidlərin mühüm funksiyaları var. Yəni zülalların əmələ gəlməsi üçün tam funksional hüceyrə bütün orqanoidləri ilə birlikdə mövcud olmalıdır.

Hüceyrənin nüvəsində yerləşən, genetik məlumat daşıyan DNT molekulu isə informasiya bankıdır. İnsan DNT-sindəki informasiyanı kağıza köçürmək istəsək, hər biri 500 səhifədən ibarət 900 cildlik kitabxana ortaya çıxar.

Burada çox maraqlı dilemma da var: DNT ancaq bir sıra xüsusi zülalların (fermentlərin) köməyi ilə qoşalaşa bilər. Amma bu fermentlər də ancaq DNT-dəki informasiya əsasında sintezlənir. Bir-birlərindən asılı olduqlarına görə, DNT-nin qoşalaşması üçün ikisi də eyni anda mövcud olmalıdır. Bu isə həyatın öz-özünə meydana gəlməsi ssenarisini çıxılmaz vəziyyətə salır. San Diyeqo Kaliforniya Universitetindən məşhur təkamülçü prof. Lesli Orcel "Scientific American" jurnalının 1994-cü il oktyabr sayında bu həqiqəti belə etiraf edir:

> *"Olduqca kompleks quruluşa malik olan zülalların və nuklein turşularının (RNT və DNT) eyni yerdə və eyni zamanda təsadüfən əmələ gəlmələri həddindən artıq ehtimaldan kənardır. Ancaq bunların biri olmadan digərini əldə etmək də mümkün deyil. Ona görə, insan məcburən həyatın kimyəvi yollarla meydana gəlməsinin tamamilə qeyri-mümkün olduğu nəticəsinə gəlir". (Leslie E. Orgel, The Origin of Life on Earth, Scientific American, cild 271, oktyabr 1994, səh. 78)*

Şübhəsiz ki, əgər həyatın kortəbii təsadüflərlə öz-özünə meydana gəlməsi mümkün deyilsə, onda həyatın yaradıldığı qəbul edilməlidir. Bu həqiqət əsas məqsədi yaradılışı inkar etmək olan təkamül nəzəriyyəsini açıq-aydın əsassız edir.

## Təkamülün xəyali mexanizmləri



Təbii seleksiyaya görə, güclü olan və yaşadığı mühitə uyğunlaşa bilən canlılar həyatda qalar, digərləri isə yox olarlar. Təkamülçülər isə təbii seleksiyanın canlıları təkamülləşdirdiyini, yeni növlər meydana gətirdiyini qarşıya qoyarlar. Halbuki təbii seleksiyanın belə bir nəticəsi yoxdur və bu iddianı təsdiqləyən tək bir sübut belə yoxdur.

Darvinin nəzəriyyəsini əsassız edən ikinci əsas cəhət nəzəriyyənin təkamül mexanizmləri kimi irəli sürdüyü iki anlayışın da, əslində, heç bir təkamül gücünə malik olmamasıdır.

Darvin irəli sürdüyü təkamül iddiasını tamamilə təbii seleksiya mexanizmi ilə əlaqələndirmişdi. Bu mexanizmə verdiyi əhəmiyyət kitabının adından da açıq şəkildə başa düşülür: "Növlərin mənşəyi, təbii seleksiya yolu ilə..."

Təbii seleksiya təbii seçmə deməkdir, təbiətdəki həyat uğrunda mübarizədə təbii şərtlərə uyğun və güclü canlıların həyatda qalacağı düşüncəsinə əsaslanır. Məsələn, yırtıcı heyvanlar tərəfindən təhlükəyə məruz qalan bir maral sürüsündə daha sürətlə qaçan marallar həyatda qalacaq. Beləliklə, maral sürüsü sürətlə qaçan və güclü fərdlərdən ibarət olacaq. Amma bu mexanizm maralların təkamül keçirməsinə səbəb olmaz, onları başqa bir canlı növünə, məsələn, atlara çevirməz.

Ona görə, təbii seçmə mexanizmi heç bir təkamül gücünə malik deyil. Darvin də bu həqiqəti anlamışdı və "Növlərin mənşəyi" adlı kitabında: "Faydalı dəyişikliklər baş vermədikcə təbii seçmə heç bir şey edə bilməz", - demək məcburiyyətində qalmışdı. (Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 184)

## Lamarkın təsiri

Bəs bu faydalı dəyişikliklər necə baş verə bilərdi? Darvin öz dövrünün ibtidai elm anlayışı çərçivəsində bu suala Lamarka əsaslanaraq cavab verməyə çalışmışdı. Darvindən əvvəl yaşamış fransız bioloq Lamarka görə, canlılar həyatları boyu keçirdikləri fiziki dəyişiklikləri sonrakı nəslə ötürürlər, nəsildən-nəslə toplanan bu xüsusiyyətlər nəticəsində yeni növlər meydana gəlir. Məsələn, Lamarkın fikrincə, zürafələr ceyranlardan törəyiblər, hündür ağacların yarpaqlarını yeməyə çalışarkən nəsildən-nəslə boyunları uzanmışdır.

Darvin də buna bənzər misallar çəkmiş, məsələn, "Növlərin mənşəyi" kitabında qida tapmaq üçün suya girən bəzi ayıların tədricən balinalara çevrildiyini iddia etmişdi. (Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 179)

Lakin Mendelin kəşf etdiyi və XX əsrdə inkişaf edən genetika elmi ilə qəti şəkildə sübut edilən genetika qanunları qazanılmış xüsusiyyətlərin sonrakı nəsillərə ötürülməsi əfsanəsini məhv etdi. Beləliklə, təbii seçmə "təkbaşına" və tamamilə təsirsiz mexanizm olaraq qaldı.

## Neodarvinizm və mutasiyalar

Darvinistlər isə bu vəziyyətə bir çıxış yolu tapmaq üçün 1930-cu illərin sonlarında müasir sintetik nəzəriyyəni və ya daha geniş yayılmış adı ilə neodarvinizmi ortaya atdılar. Neodarvinizm təbii seçmənin yanına faydalı dəyişiklik səbəbi kimi mutasiyaları, yəni canlıların genlərində radiasiya kimi xarici amillər və ya transkripsiya xətaları nəticəsində əmələ gələn pozulmaları əlavə etdi. Bu gün də elmi cəhətdən əsassız olduğunu bilmələrinə baxmayaraq, darvinistlər neodarvinist modeli müdafiə edirlər.

Nəzəriyyə yer üzündəki milyonlarla canlı növünün, onların qulaq, göz, ağciyər, qanad kimi saysız-hesabsız mürəkkəb orqanlarının mutasiyalara, yəni genetik pozulmalara əsaslanan bir

proses nəticəsində əmələ gəldiyini iddia edir. Amma nəzəriyyəni çarəsiz qoyan bir açıq elmi həqiqət var: mutasiyalar canlıları təkmilləşdirmirlər, əksinə, hər zaman canlılara zərər verirlər.

Bunun səbəbi çox sadədir: DNT çox mürəkkəb quruluşa malikdir. Bu molekula olan hər hansı təsadüfi təsir ancaq zərər verir. Amerikalı genetik B.G. Ranqanatan bunu belə açıqlayır:

> *"Mutasiyalar kiçik, təsadüfi və zərərlidirlər. Çox nadir meydana gəlirlər və ən yaxşı halda təsirsizdirlər. Bu üç xüsusiyyət mutasiyaların təkamül xarakterli təsir meydana gətirməyəcəyini sübut edir. Yüksək dərəcədə xüsusiləşmiş orqanizmdə meydana gələn təsadüfi dəyişiklik ya təsirsiz, ya da zərərli olur. Bir qol saatında meydana gələn təsadüfi dəyişiklik qol saatını təkmilləşdirməz. Ona böyük ehtimalla zərər verər və ya ən yaxşı halda təsir etməz. Bir zəlzələ bir şəhəri daha yaxşı hala salmaz, onu məhv edər". (B. G. Ranganathan, Origins?, Pennsylvania: The Banner Of Truth Trust, 1988.)*

Bu günə qədər heç bir faydalı, yəni genetik məlumatı təkmilləşdirən mutasiya müşahidə edilməyib. Bütün mutasiyaların zərərli olması aşkar edilib. Aydın olmuşdur ki, təkamül nəzəriyyəsinin təkamül mexanizmi kimi göstərdiyi mutasiyalar, əslində, canlıları sadəcə məhv edən, şikəst edən genetik hadisələrdir (insanlarda mutasiyanın ən çox rast gəlinən təsiri xərçəngdir). Əlbəttə, məhvedici mexanizm təkamül mexanizmi ola bilməz. Təbii seçmə isə Darvinin də qəbul etdiyi kimi, tək başına heç bir şey edə bilməz. Bu həqiqət bizə təbiətdə heç bir təkamül mexanizminin olmadığını göstərir. Təkamül mexanizmi olmadığına görə, təkamül deyilən xəyali proses də baş verməyib.

## Fosillər: Ara-keçid formalardan əsər-əlamət yoxdur



Sekvoya yarpağı Dövr: Kaynozoy erası, Eosen dövrü Yaş: 50 milyon il

Təkamül nəzəriyyəsinin iddia etdiyi prosesin baş vermədiyinin ən açıq göstəricisi isə fosillərdir.

Təkamül nəzəriyyəsinə görə, bütün canlılar bir-birlərindən törəyiblər. Əvvəlcədən mövcud olan bir canlı növü zaman ərzində digərinə çevrilmiş və bütün növlər bu şəkildə əmələ gəlmişlər. Nəzəriyyəyə əsasən, bu çevrilmə yüz milyon illər davam edən uzun dövrü əhatə etmiş və mərhələ-mərhələ irəliləmişdir. Bu təqdirdə iddia edilən uzun çevrilmə prosesi zamanı saysız-hesabsız ara növlər əmələ gəlməli və yaşamalıdırlar.



Günəş balığı Dövr: Kaynozoy erası, Eosen dövrü Yaş: 54-37 milyon il

Məsələn, keçmişdə balıq xüsusiyyətlərini daşımalarına baxmayaraq, bir tərəfdən də bəzi sürünən canlı xüsusiyyətlərini qazanmış yarı-balıq, yarı-sürünən canlılar yaşamalıdır və ya sürünən xüsusiyyətlərini daşıyan, bir tərəfdən də bəzi quş xüsusiyyətləri qazanmış sürünən quşlar ortaya çıxmalıdır. Bunlar bir keçid prosesində olduqları üçün şikəst, yarımçıq, qüsurlu canlılar olmalıdır. Təkamülçülər keçmişdə yaşadığına inandıqları bu nəzəri məxluqları "ara-keçid forması" adlandırırlar.

Əgər, həqiqətən, bu cür canlılar keçmişdə yaşayıbsa, onların sayı və növü milyonlarla, hətta milyardlarla olmalıdır və bu əcaib canlıların qalıqlarına mütləq fosil izlərində rast gəlinməlidir. Darvin "Növlərin mənşəyi"ndə bunu belə açıqlamışdır:



Tozağacı yarpağı Dövr: Kaynozoy erası, Eosen dövrü Yaş: 50 milyon il

> *"Əgər nəzəriyyəm doğrudursa, növləri bir-biri ilə əlaqələndirən saysız-hesabsız ara-keçid növləri keçmişdə mütləq yaşamalıdır... Onların yaşadığının dəlilləri də sadəcə fosil qalıqları arasında tapıla bilər". (Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

Ancaq bu sətirləri yazan Darvin ara-keçid formaların heç cür tapılmadığını bilir və bunun nəzəriyyəsi üçün böyük problem olduğunu görürdü. Ona görə, "Növlərin mənşəyi" kitabının "Nəzəriyyənin qarşısında duran çətinliklər" (Difficulties on Theory) adlı bölməsində belə yazmışdı:



Dəniz şabalıdı Dövr: Paleozoy erası, Daş kömür dövrü Yaş: 295 milyon il

*"Əgər, həqiqətən, növlər digər növlərdən yavaş dəyişikliklərlə törəyibsə, nə üçün saysız-hesabsız ara-keçid formasına rast gəlmirik? Nə üçün bütün təbiət qarmaqarışıq vəziyyətdə deyil, məhz yerli-yerindədir? Saysız-hesabsız ara-keçid forması olmalıdır, bəs nə üçün yer üzünün çoxsaylı təbəqələrində onları tapmırıq?... Nə üçün hər geoloji forma və hər təbəqə belə qalıqlarla dolu deyil?" (Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

## Darvinin puç olan ümidləri



Dəniz ulduzu Dövr: Paleozoy erası, Ordovik dövrü Yaş: 490-443 milyon il

Ancaq XIX əsrin ortasından indiyə qədər dünyanın hər tərəfində qızğın fosil araşdırmaları aparılmasına baxmayaraq, ara-keçid formalarına rast gəlinməmişdir. Aparılan qazıntı işlərində və tədqiqatlarda əldə edilən bütün tapıntılar təkamülçülərin gözlədiklərinin əksinə, canlıların yer üzündə birdən-birə, tam və qüsursuz formada ortaya çıxdıqlarını göstərmişdir.

Məşhur ingilis paleontoloq Derek V. Eycer təkamülçü olmasına baxmayaraq, bu həqiqəti belə etiraf edir:



*"Problemimiz budur: fosilləri hərtərəfli tədqiq etdikdə növlər və ya siniflər səviyyəsində belə daima eyni həqiqətlə qarşılaşırıq; mərhələli təkamüllə təkmilləşən deyil, birdən-birə yer üzündə əmələ gələn qruplar görürük". (Derek A. Ager, "The Nature of the Fossil Record", Proceedings of the British Geological Association, cild 87, 1976, səh. 133)*

Yəni fosil qeydlərində bütün canlı növləri aralarında heç bir keçid forması olmadan, tam formada ani surətdə ortaya çıxırlar. Bu, Darvinin fikirlərinin tam əksidir. Habelə, bu, canlı növlərinin yaradıldıqlarını göstərən çox güclü dəlildir. Çünki bir canlı növünün heç bir əcdadı olmadan, bir anda və qüsursuz şəkildə ortaya çıxmasının tək açıqlaması var: o növ yaradılmışdır. Bu həqiqət məşhur təkamülçü bioloq Duqlas Futuyma tərəfindən də qəbul edilir:

*"Yaradılış və təkamül yaşayan canlıların mənşəyi haqqında iki yeganə açıqlamadır. Canlılar dünyada ya tamamilə mükəmməl və tam formada ortaya çıxmışlar, ya da belə olmamışdır. Əgər belə olmamışdırsa, bir dəyişiklik prosesi nəticəsində özlərindən əvvəl mövcud olan bəzi canlı növlərindən təkamül keçirərək meydana gəlməlidirlər. Amma əgər tam və mükəmməl formada ortaya çıxıblarsa, onda sonsuz güc sahibi olan bir ağıl tərəfindən yaradılmışlar". (Douglas J. Futuyma, Science on Trial, New York: Pantheon Books, 1983. Səh. 197)*



Çayır ağcaqanadı Dövr: Kaynozoy erası, Eosen dövrü Yaş: 48-37 milyon il

Fosillər isə canlıların yer üzündə tam və mükəmməl formada ortaya çıxdıqlarını göstərir. Yəni “növlərin mənşəyi” Darvinin hesab etdiyinin əksinə, təkamül deyil, yaradılışdır.

## İnsanın təkamülü nağılı



Təkamül nəzəriyyəsinin tərəfdarlarının ən çox gündəmə gətirdikləri məsələ insanın mənşəyidir. Bununla bağlı darvinist iddia bu gün yaşayan müasir insanın meymunabənzər məxluqlardan törədiyini zənn edir. 4-5 milyon il əvvəl başladığı fərz edilən bu prosesdə müasir insan ilə əcdadları arasında bəzi ara-keçid formaların yaşadığı iddia edilir. Əslində, tamamilə fantastik olan bu ssenaridə dörd əsas kateqoriya var:

Australopithecus

Homo habilis

Homo erectus

Homo sapiens



Təkamülçülər insanların ilk “meymunabənzər əcdadları”na “cənub meymunu” mənasını verən “australopithecus” adını veriblər. Bu canlılar, əslində, nəsli kəsilmiş meymun növüdür. Lord Solli Zukerman və prof. Çarlz Oksnard kimi İngiltərə və ABŞ-dan iki məşhur anatomun australopithecus nümunələri üzərində apardığı hərtərəfli araşdırmalar bu canlıların sadəcə nəsli kəsilmiş meymun növünə aid olduqlarını və insanlarla heç bir bənzərlik təşkil etmədiklərini göstərmişdir. (Charles E. Oxnard, “The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt”, Nature, cild 258, səh. 389)

Təkamülçülər insanın təkamülünün sonrakı mərhələsini də “homo”, yəni insan kimi təsnif edirlər. İddiaya əsasən, homo sırasındakı canlılar australopithecuslardan daha çox inkişaf ediblər. Təkamülçülər bu fərqli canlılara aid fosilləri ardıcıl düzərək fantastik təkamül sxemi qururlar. Bu sxem xəyalidir, çünki bu fərqli siniflərin arasında təkamül xarakterli əlaqə olması əsla sübut edilə bilməmişdir. Təkamül nəzəriyyəsinin XX əsrdəki ən mühüm tərəfdarlarından biri olan Ernst Mayr: “Homo sapiensə uzanan zəncir halqası, əslində, itib”, - deyərək bunu qəbul edir. (J. Rennie, “Darwins Current Bulldog: Ernst Mayr”, Scientific American, dekabr 1992)



Təkamülçülər “ausrtalopithecus > homo habilis > homo erectus > homo sapiens” ardıcıllığını qurarkən bu növlərin hər birinin daha sonrakının əcdadı olmasını irəli sürürlər. Lakin paleoantropoloqların son kəşfləri australopithecus, homo habilis və homo erectusun dünyanın müxtəlif bölgələrində eyni dövrlərdə yaşadıqlarını göstərir. (Alan Walker, Science, c. 207, 1980, s. 1103; A. J. Kelso, Physical Antropology, 1. baskı, New York: J. B. Lipincott Co., 1970, səh 221; M. D. Leakey, Olduvai Gorge, cild 3, Cambridge: Cambridge University Press, 1971, səh. 272)

Habelə, homo erectus sinfinə aid olan insanların bir qismi çox müasir dövrlərə qədər yaşayıblar, homo sapiens neandertalensis və homo sapiens sapiens (insan) ilə eyni mühitdə birlikdə mövcud olmuşlar. (Time, noyabr 1996)

Bu isə, əlbəttə, bu siniflərin bir-birilərinin əcdadı olduqları iddiasının əsassızlığını açıq şəkildə ortaya qoyur. Harvard Universitetinin paleontoloqlarından Stiven Cey Quld, təkamülçü olmasına baxmayaraq, darvinist nəzəriyyənin düşdüyü bu çıxılmaz vəziyyəti belə açıqlayır:

*“Əgər bir-biri ilə paralel şəkildə yaşayan üç müxtəlif hominid (insanabənzər) sxemi varsa, onda bizim soy ağacımıza nə oldu? Aydındır ki, bunların biri digərindən törəyə bilməz. Habelə, biri digəri ilə müqayisə edildikdə təkamül xarakterli inkişaf meyli göstərmirlər”. (S. J. Gould, Natural History, cild 85, 1976, səh. 30)*




Qısaca desək, KİV-də və ya dərsliklərdə verilən bir cür fantastik yarı-meymun yarı-insan canlıların rəsmləri ilə, yəni sırf təbliğat yolu ilə dirçəldilməyə çalışılan insanın təkamülü ssenarisi heç bir elmi əsası olmayan nağıldan ibarətdir. Bu mövzunu uzun illər tədqiq edən, xüsusilə australopithecus fosilləri üzərində 15 il araşdırma aparan İngiltərənin ən məşhur və hörmətli elm adamlarından biri olan Lord Solli Zukerman təkamülçü olmasına baxmayaraq, meymunabənzər canlılardan insana uzanan nəsil ağacı olmadığı nəticəsinə gəlmişdir.

Zukerman maraqlı elm şkalası da qurmuşdur. Elmi hesab etdiyi elm sahələrindən elmdən kənar qəbul etdiyi elm sahələrinə qədər şaxəli cədvəl çəkmişdir. Zukermanın bu cədvəlində ən elmi, yəni konkret faktlara əsaslanan elm sahələri kimya və fizikadır. Cədvəldə bunlardan sonra bioloji elmlər, daha sonra sosial fənlər gəlir. Şaxələnmənin ən kənar ucunda, yəni elmdən kənar hesab edilən hissədə isə Zukermanın fikrincə telepatiya, altıncı hiss kimi hissin fövqündə olan qavrama anlayışları və bir də insanın “təkamülü” yerləşir! Zukerman şaxələnmənin bu ucunu belə açıqlayır:

*“Obyektiv reallıq sahəsindən çıxıb bioloji elm fərz edilən bu sahələrə, yəni hissin fövqündə olan qavramaya və insanın fosil tarixinin şərh edilməsinə daxil olduqda, təkamül nəzəriyyəsinə inanan bir şəxs üçün hər şeyin mümkün olduğunu görürük. Belə ki, nəzəriyyələrinə qəti şəkildə inanan bu şəxslərin ziddiyyətli bəzi rəyləri eyni anda qəbul etmələri belə mümkündür”. (Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, səh. 19)*

İnsanın təkamülü nağılı da nəzəriyyələrinə kor-koranə inanan bir sıra insanların tapdıqları bəzi fosillər haqqında qabaqcadan rəy verərək şərh etmələrindən ibarətdir.

## Darvin düsturu!

İndiyə qədər təhlil etdiyimiz bütün dəlillərlə yanaşı, istəyirsinizsə, təkamülçülərin necə cəfəng inanca malik olduqlarına bir də uşaqların belə anlayacağı qədər açıq misalla baxaq.

Təkamül nəzəriyyəsi canlıların təsadüfən əmələ gəldiyini iddia edir. Ona görə, bu iddiaya əsasən, cansız və şüursuz atomlar birləşərək əvvəlcə hüceyrəni əmələ gətirmiş və sonra eyni atomlar birləşərək digər canlıları və insanı meydana gətirmişlər. İndi düşünək, canlıların əsasını təşkil edən karbon, fosfor, azot, kalium kimi elementləri birləşdirdikdə bir yığın əmələ gəlir. Bu atom yığını hansı prosesdən keçirilsə də, bircə canlı belə əmələ gətirməz. İstəyirsinizsə, bununla bağlı bir təcrübə keçirək və təkamülçülərin, əslində, müdafiə etdikləri, amma ucadan söyləyə bilmədikləri iddianı onların adından “Darvin düsturu” adı ilə nəzərdən keçirək:

Təkamülçülər çoxlu sayda böyük çənin içinə canlıların əsasını təşkil edən fosfor, azot, karbon, oksigen, dəmir, maqnezium kimi elementlərdən bol miqdarda qoysunlar. Hətta normal şərtlərdə mövcud olmayan, ancaq bu qarışığın içində lazımlı bildikləri maddələri də bu çənlərə əlavə etsinlər. Qarışıqların içinə istədikləri qədər amin turşusu, istədikləri qədər də zülal doldursunlar. Bu qarışıqlara istədikləri nisbətdə temperatur və rütubət versinlər.



Təkamülçülərin istədikləri bütün şərtlər təmin edilsə bir canlı meydana gələ bilərmi? Əlbəttə ki xeyr. Bunu daha yaxşı anlamaq üçün belə bir təcrübə edək. Yuxarıdakına bənzər bir qaba canlıların meydana gəlməsi üçün lazımlı olan bütün atomları, fermentləri, hormonları, zülalları, qısacası təkamülçülərin istədikləri, lazımlı gördükləri bütün elementləri qoyaq. Ola biləcək hər cür kimyəvi və fiziki üsulu istifadə edərək bu elementləri qarışdıraq və istədikləri qədər gözləyək. Nə edilirsə edilsin, nə qədər müddət gözlənilsin bu qabdan canlı tək bir varlıq belə çıxara bilməyəcəklər.

Bunları istədikləri ən yaxşı texnoloji cihazlarla qarışdırsınlar. Çənlərin başında nəzarətçi kimi dünyanın qabaqcıl elm adamlarını qoysunlar. Bu mütəxəssislər atadan oğula, nəsildən-nəslə ötürülərək növbə ilə milyardlarla, hətta trilyonlarla il fasiləsiz çənlərin başında gözləsinlər. Bir canlının əmələ gəlməsi üçün hansı şərtlərin mövcud olmasını lazım bilirlərsə, hamısını tətbiq etsinlər. Ancaq nə etsələr də, o çənlərdən əsla bir canlı çıxara bilməzlər.

Zürafələri, aslanları, arıları, bülbülləri, tutuquşuları, atları, delfinləri, gülləri, səhləb çiçəklərini, zanbaqları, qərənfilləri, bananları, portağalları, almaları, xurmaları, pomidorları, qovunları, qarpızları, əncirləri, zeytunları, üzümləri, şaftalıları, tovuz quşlarını, qırqovulları, rəngarəng kəpənəkləri və bunlar kimi milyonlarla canlı növündən heç birini əmələ gətirə bilməzlər. Nəinki burada sadaladığımız bir neçə canlını, bunların bircə hüceyrəsini belə əldə edə bilməzlər.

Qısaca desək, şüursuz atomlar birləşərək hüceyrəni əmələ gətirə bilməzlər. Sonra yeni qərar verərək bir hüceyrəni iki yerə bölüb, sonra ardıcıl başqa qərarlar verib elektron mikroskopunu icad edən, sonra öz hüceyrə quruluşunu bu mikroskop altında tədqiq edən professorları əmələ gətirə bilməzlər. Maddə ancaq Allahın üstün yaratması ilə həyat qazanır. Bunun əksini iddia edən təkamül nəzəriyyəsi isə ağıla tamamilə zidd cəfəngiyatdır. Təkamülçülərin ortaya atdığı iddialar üzərində bir az düşünmək yuxarıdakı misalda göstərildiyi kimi, bu həqiqəti üzə çıxarar.

## Göz və qulaqdakı texnologiya

Təkamül nəzəriyyəsinin qətiyyən açıqlaya bilmədiyi digər məsələ isə göz və qulaqdakı üstün duyğu keyfiyyətidir.

Gözlə bağlı mövzuya keçməzdən əvvəl “Necə görürük?” sualına qısaca cavab verək. Bir cisimdən gələn şüalar gözdə tor qişaya tərsinə düşür. Bu şüalar buradakı hüceyrələr tərəfindən elektrik siqnallarına çevrilir və beyinin arxa hissəsindəki görmə mərkəzi adlanan kiçik nöqtəyə ötürülür. Bu elektrik siqnalları bir sıra ardıcıl proseslərdən sonra beyindəki bu mərkəzdə görüntü kimi şərh edilir.

Bu məlumatdan sonra düşünək: beyin işığa qapalıdır. Yəni beyinin içi qapqaranlıqdır, işıq beyinin yerləşdiyi yerə girə bilməz. Görmə mərkəzi adlanan yer qapqaranlıq, işığın düşmədiyi, bəlkə, heç qarşılaşmadığınız qədər qaranlıq yerdir. Ancaq siz bu zülmət qaranlıqda işıqlı, aydın dünyanı izləyirsiniz.

Üstəlik, bu, o qədər aydın və keyfiyyətli görüntüdür ki, XXI əsrin texnologiyası belə hər cür imkanı olmasına baxmayaraq, bu aydın görüntünü əldə edə bilmir. Məsələn, hal-hazırda oxuduğunuz kitaba, kitabı tutan əllərinizə baxın, sonra başınızı qaldırın və ətrafınıza baxın. Hal-hazırda gördüyünüz aydın və keyfiyyətli görüntünü başqa bir yerdə görmüsünüzmü? Bu qədər aydın görüntünü sizə dünyanın qabaqcıl televizor şirkətlərinin istehsal etdiyi təkmilləşdirilmiş televizor ekranı belə verə bilməz.




100 ildən bəri minlərlə mühəndis bu aydın görüntünü əldə etmək üçün çalışır. Bunun üçün fabriklər, böyük müəssisələr qurulur, tədqiqatlar aparılır, planlar və dizaynlar edilir. Bir televizor ekranına baxın, bir də hal-hazırda əlinizdə tutduğunuz bu kitaba. Arada böyük aydınlıq və keyfiyyət fərqi olduğunu görəcəksiniz. Həm də televizorun ekranı sizə iki ölçülü görüntü göstərir, lakin siz üç ölçülü, dərin perspektivi olan görüntü izləyirsiniz.

Uzun illərdən bəri on minlərlə mühəndis üç ölçülü televizor icad etməyə, gözün görmə keyfiyyətini əldə etməyə çalışırlar. Bəli, üç ölçülü televizor kimi sistem istehsal edə bildilər, amma onu da eynəksiz üç ölçülü görmək mümkün deyil, həm də bu, süni üçölçülü görüntüdür. Arxa tərəf daha bulanıq, ön tərəf isə kağız dekorasiya kimi görünür. Heç bir zaman gözün gördüyü qədər aydın və keyfiyyətli görüntü əmələ gəlmir. Kamerada da, televizorda da mütləq görüntü itkisi olur.

Təkamülçülər bu keyfiyyətli və aydın görüntünü əmələ gətirən mexanizmin təsadüfən əmələ gəldiyini iddia edirlər. İndi birisi sizə otağınızdakı televizorun təsadüflər nəticəsində əmələ gəldiyini, atomların birləşib bu görüntünü əmələ gətirən aləti meydana gətirdiyini desə, nə düşünərsiniz? Minlərlə insanın birlikdə edə bilmədiyini şüursuz atomlar necə etsin?

Gözün gördüyündən daha bəsit görüntünü əmələ gətirən alət təsadüfən əmələ gəlmirsə, gözün və gözün gördüyü görüntünün də təsadüfən meydana gəlməyəcəyi çox açıqdır. Eyni vəziyyət qulağa da aiddir. Xarici qulaq ətrafdakı səsləri qulaq seyvanı vasitəsilə toplayıb daxili qulağa ötürür; daxili

qulaq da bu titrəyişləri elektrik impulslarına çevirərək beyinə göndərir. Eynilə görmədə olduğu kimi, eşitmə prosesi də beyindəki eşitmə mərkəzində həyata keçir.

Göz üçün dediklərimiz qulağa da aiddir, yəni beyin işıq kimi səsə də qapalıdır, səs keçirmir. Ona görə, xarici aləm nə qədər səs-küylü olsa da, beyinin içi tamamilə səssizdir. Buna baxmayaraq, ən aydın səslər beyində eşidilir. Səs keçirməyən beyninizdə orkestr simfoniyaları dinləyir, ətraf mühitin bütün səs-küyünü eşidirsiniz. Ancaq həmin anda həssas bir cihazla beyninizin içindəki səs səviyyəsi ölçülsə, burada səssizliyin hakim olduğu məlum olacaqdır.

Aydın görüntü əldə etmək ümidi ilə texnologiyadan necə istifadə edilirsə, səs üçün də eyni səylər on illərdən bəri davam etdirilir. Səsyazma cihazları, musiqi mərkəzləri, bir çox elektron alət, səs qəbul edən musiqi sistemləri bu fəaliyyətlərin nəticələrindən bəziləridir. Ancaq bütün texnologiyaya və bu sahədə minlərlə mühəndis və mütəxəssis işləməsinə baxmayaraq, qulağın əmələ gətirdiyi qədər aydın və keyfiyyətli səs əldə edilməmişdir. Ən böyük musiqi sistemi şirkətinin istehsal etdiyi ən keyfiyyətli musiqi mərkəzini düşünün.

Səsi qeyd etdikdə mütləq səsin bir hissəsi itir, az da olsa təhrif olur və ya musiqi mərkəzini işə saldıqda hələ musiqi çalmazdan əvvəl mütləq bir cızıltı eşidirsiniz. Ancaq insan orqanizmindəki texnologiyanın məhsulu olan səslər olduqca aydın və qüsursuzdur. İnsan qulağı heç vaxt musiqi mərkəzində olduğu kimi cızıltılı və ya təhrif olunmuş şəkildə səs eşitmir; səs necədirsə, tam və aydın şəkildə onu eşidir.

Bu, insan yaradıldığı gündən bəri belədir. İndiyə qədər insanın istehsal etdiyi heç bir görüntü və səs cihazı göz və qulaq qədər həssas və keyfiyyətli qəbuledici olmamışdır. Ancaq görmə və eşitmə hadisəsində bütün bunların fövqündə duran çox böyük həqiqət də var.

## Beyinin içində görən və eşidən şüur kimə aiddir?

Beyinin içində parlaq, rəngli dünyanı izləyən, simfoniyaları, quşların civiltilərini dinləyən, gülü qoxulayan kimdir?



Bir cisimdən gələn xəbərdarlıqlar elektrik siqnalına çevrilərək beyində bir təsir meydana gətirərlər. Görürəm deyərkən, əslində zehnimizdəki elektrik siqnallarının təsirini seyr edirik. Beyin işığa bağlıdır. Yəni beynin içi qapqaranlıqdır, işıq beynin olduğu yerə qədər girə bilməz. Görüntü mərkəzi deyilən yer qapqaranlıq, işığın əsla çatmadığı, bəlkə də heç qarşılaşmadığınız qədər qaranlıq bir yerdir. Ancaq siz bu zülmət qaranlıqda işıqlı, tərtəmiz bir dünyanı seyr edirsiniz.

İnsanın gözlərindən, qulaqlarından, burnundan gələn siqnallar elektrik impulsu kimi beyinə ötürülür. Biologiya, fiziologiya və ya biokimya kitablarında bu görüntünün beyində necə əmələ gəlməsinə dair bir çox şey oxuyursunuz. Ancaq bu mövzu haqqında ən mühüm həqiqətə heç bir yerdə rast gələ bilməzsiniz: beyində bu elektrik impulslarını görüntü, səs, qoxu və hiss kimi qavrayan kimdir? Beyinin içində gözə, qulağa, buruna ehtiyac hiss etmədən bütün bunları qavrayan bir şüur var. Bu şüur kimə aiddir?

Əlbəttə, bu şüur beyini təşkil edən sinirlər, yağ təbəqəsi və sinir hüceyrələrinə aid deyil. Elə buna görə, hər şeyin maddədən ibarət olduğunu zənn edən darvinist-materialistlər bu suallara heç cür cavab verə bilmirlər. Çünki bu şüur Allahın yaratdığı ruhdur. Ruhun görüntünü izləmək üçün gözə, səsi eşitmək üçün qulağa ehtiyacı yoxdur. Eyni zamanda, düşünmək üçün beyinə də ehtiyacı yoxdur.

Bu açıq və elmi həqiqəti oxuyan hər insan beyinin içindəki bir neçə sm3-lik, qapqaranlıq yerə bütün kainatı üçölçülü, rəngli, kölgəli və işıqlı şəkildə sığışdıran uca Allahı düşünüb, Ondan qorxub Ona sığınmalıdır.

## Materialist inanc

Bura qədər təhlil etdiklərimiz təkamül nəzəriyyəsinin elmi kəşflərə zidd iddia olduğunu göstərir. Nəzəriyyənin həyatın mənşəyi haqqındakı iddiası elmə ziddir, irəli sürdüyü təkamül mexanizmlərinin heç bir təkamül gücü yoxdur və fosillər nəzəriyyənin iddia etdiyi ara keçid formalarının yaşamadığını göstərir. Bu təqdirdə, əlbəttə, təkamül nəzəriyyəsi elmə zidd fərziyyə kimi bir kənara qoyulmalıdır. Belə ki, tarix boyu dünya mərkəzli kainat modeli kimi bir çox düşüncə tərzi elmin gündəmindən çıxarılmışdır.

Ancaq təkamül nəzəriyyəsi təkidlə elmin gündəliyində saxlanılır. Hətta bəzi insanlar nəzəriyyənin tənqid edilməsini elmə təcavüz kimi göstərməyə çalışırlar. Axı niyə? Bunun səbəbi təkamül nəzəriyyəsinin bəzi kütlələr üçün əl çəkilməz doqmatik inanc olmasıdır. Bu kütlələr materialist fəlsəfəyə kor-koranə bağlıdırlar və darvinizmi də təbiət haqqında yeganə materialist açıqlama olduğu üçün mənimsəyiblər. Bəzən bunu açıq şəkildə etiraf edirlər. Harvard Universitetindən məşhur genetik və eyni zamanda, qabaqcıl təkamülçülərdən olan Riçard Levontin əvvəlcə materialist, sonra elm adamı olduğunu belə etiraf edir:

> *"Bizim materializmə bir inancımız var, bu "a priori" (əvvəlcədən qəbul edilmiş, doğru fərz edilmiş) inancdır. Bizi dünya haqqında materialist açıqlama verməyə məcbur edən şey elmi metodlar və qanunlar deyil. Əksinə, materializmə olan "a priori" bağlılığımız səbəbi ilə dünya haqqında materialist açıqlama verən tədqiqat metodları və anlayışlarını uydururuq. Materializm mütləq doğru olduğuna görə də İlahi açıqlamanın səhnəyə çıxmasına icazə verə bilmərik". (Richard Lewontin, "The Demon-Haunted World", The New York Review of Books, 9 yanvar 1997, səh. 28)*

Bu sözlər darvinizmin materialist fəlsəfəyə bağlılıq uğrunda davam etdirilən bir doqma olduğunun açıq ifadəsidir. Bu doqma maddədən başqa heç bir varlıq olmadığını qəbul edir. Bu səbəbdən də cansız, şüursuz maddənin həyatı əmələ gətirdiyinə inanır. Milyonlarla müxtəlif canlı növünün, məsələn, quşların, balıqların, zürafələrin, pələnglərin, həşəratların, ağacların, çiçəklərin, balinaların və insanların maddənin öz daxilindəki reaksiyalarla, yəni yağan yağışla, çaxan şimşəklə, cansız maddədən əmələ gəldiyini qəbul edir. Əslində isə bu, həm ağıla, həm də elmə ziddir. Amma darvinistlər Allahın açıq-aşkar varlığını qəbul etməmək üçün bu ağıldan və elmdən kənar fikri cahilliklə müdafiə etməkdə davam edirlər.

Canlıların mənşəyinə materialist düşüncə ilə baxmayan insanlar isə bu açıq həqiqəti görəcəklər: bütün canlılar üstün güc, bilik və ağıla malik olan Yaradanın əsəridir. Yaradan bütün kainatı yoxdan var edən, ən qüsursuz şəkildə nizama salan və bütün canlıları yaradan Allahdır.

## Təkamül nəzəriyyəsi dünya tarixinin ən təsirli sehridir

Burada bunu da bildirmək lazımdır ki, heç bir ideologiyanın təsiri altında qalmadan, sadəcə ağlını və məntiqini işlədən hər insan elm və mədəniyyətdən uzaq xalqların xurafatlarını xatırladan təkamül nəzəriyyəsinə inanmağın qeyri-mümkün olduğunu asanlıqla anlayacaqdır.

Yuxarıda da bildirildiyi kimi, təkamül nəzəriyyəsinə inananlar böyük bir çənin içinə bir çox atomu, molekulu, cansız maddəni dolduran və bunların qarışığından zaman ərzində düşünən, dərk edən, kəşflər edən professorların, universitet tələbələrinin, Eynşteyn, Habl kimi elm adamlarının, Frank Sinatra, Çarlton Heston kimi aktyorların, bununla yanaşı, ceyranların, limon ağaclarının, qərənfillərin çıxacağına inanırlar. Həm də bu cəfəng iddiaya inananlar elm adamları, professorlar, mədəniyyətli, təhsilli insanlardır.

Bu səbəbdən, təkamül nəzəriyyəsi haqqında dünya tarixinin ən böyük və ən təsirli sehri ifadəsini işlətmək yerinə düşər. Çünki dünya tarixində insanların bu dərəcədə ağlını başından alan, ağıl və məntiqlə düşünmələrinə imkan verməyən, gözlərinin qarşısına sanki bir pərdə çəkib çox açıq olan həqiqətləri görmələrinə mane olan başqa inanc və ya iddia yoxdur.

Bu, afrikalı bəzi qəbilələrin totemlərə, Səba xalqının Günəşə tapınmasından, hz. İbrahimin qövmünün düzəltdikləri bütlərə, hz. Musanın qövmünün qızıldan düzəltdikləri buzova tapınmalarından daha qorxulu və ağlasığmaz korluqdur. Əslində, bu vəziyyət Allahın Quranda işarə etdiyi ağılsızlıqdır. Allah bəzi insanların anlayışlarının bağlı olacağını və həqiqətləri görməkdən məhrum olacağını bir çox ayəsində bildirir. Bu ayələrdən bəziləri belədir:

> *Həqiqətən, kafirləri əzabla qorxutsan da, qorxutmasan da, onlar üçün birdir, iman gətirməzlər. Allah onların ürəyinə və qulağına möhür vurmuşdur. Gözlərində də pərdə vardır. Onları böyük bir əzab gözləyir! (Bəqərə surəsi, 6-7)*

وَاِذْ اَخَذَ رَبُّكَ مِنْ بَنٖى اٰدَمَ مِنْ ظُهُورِهِمْ ذُرِّيَّتَهُمْ
وَاَشْهَدَهُمْ عَلٰٓى اَنْفُسِهِمْ اَلَسْتُ بِرَبِّكُمْ قَالُوا بَلٰى
شَهِدْنَا اَنْ تَقُولُوا يَوْمَ الْقِيٰمَةِ اِنَّا كُنَّا عَنْ هٰذَا غَافِلٖينَ

*... Onların qəlbləri vardır, lakin onunla anlamazlar. Onların gözləri vardır, lakin onunla görməzlər. Onların qulaqları vardır, lakin onunla eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də, daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır! (Əraf surəsi, 179)*

Allah "Hicr" surəsində də bu insanların möcüzələr görsələr də, inanmayacaq qədər sehrləndiklərini belə bildirir:

*Əgər onlara göydən bir qapı açsaq və oradan durmadan yuxarı dırmaşsalar yenə də: "Gözümüz bağlanmış, biz sehrlənmişik", - deyərlər. (Hicr surəsi, 14-15)*

Bu qədər geniş kütləyə bu sehrin təsir etməsi, insanların həqiqətlərdən bu qədər uzaq saxlanması və 150 ildən bəri bu sehrin pozulmaması isə sözlə ifadə edilməyəcək qədər heyrətli vəziyyətdir. Çünki bir və ya bir neçə insanın qeyri-mümkün ssenarilərə, cəfəng və məntiqsiz iddialara inanmalarını anlamaq olar.

Ancaq dünyanın hər tərəfindəki insanların şüursuz və cansız atomların ani qərarla birləşib qeyri-adi mütəşəkkillik, nizam, ağıl və şüur nümayiş etdirərək qüsursuz sistemlə işləyən kainatı, həyat üçün uyğun hər cür xüsusiyyətə malik olan Yer planetini və saysız-hesabsız kompleks sistemdən ibarət canlıları meydana gətirdiyinə inanmasının sehrdən başqa heç bir açıqlaması yoxdur.

Allah Quranda inkarçı fəlsəfənin tərəfdarı olan bəzi şəxslərin etdikləri sehrlərlə insanlara təsir etdiklərini hz. Musa ilə firon arasında baş verən bir hadisə ilə bizə bildirir. Hz. Musa firona haqq dini təbliğ etdikdə firon hz. Musaya öz bilici sehrkarları ilə insanların toplaşdığı bir yerdə qarşılaşmasını söyləyir. Hz. Musa sehrkarlarla qarşılaşdıqda əvvəlcə onların bacarıqlarını göstərməsini əmr edir. Bu hadisənin danışıldığı ayə belədir:

*(Musa:) "Siz atın", - dedi. Onlar (əsalarını yerə) atdıqda, adamların gözlərini bağlayıb (sehrləyib) onları qorxutdular və böyük bir sehr göstərdilər. (Əraf surəsi, 116)*

Göründüyü kimi, fironun sehrkarları hz. Musa və ona inananlardan başqa insanların hamısını sehrləyə bilmişdilər. Ancaq onların atdıqlarına qarşı hz. Musanın ortaya qoyduğu dəlil onların bu sehrini, ayədəki ifadə ilə uydurduqlarını udmuş, yəni təsirsiz etmişdir:

*Biz də Musaya: "Əsanı tulla!" - deyə vəhy etdik. Bir də (baxıb gördülər ki,) əsa onların uydurub düzəltdikləri bütün şeyləri udur. Artıq haqq zahir, onların uydurub düzəltdikləri yalanlar isə batil oldu. (Sehrbazlar) orada məğlub edildilər və xar olaraq geri döndülər. (Əraf surəsi, 117-119)*

Ayələrdə də bildirildiyi kimi, əvvəllər insanlara sehrləyərək təsir göstərən bu şəxslərin etdiklərinin saxtakarlıq olmasının başa düşülməsi ilə sözügedən şəxslər alçalmışlar. Dövrümüzdə də bir sehrin təsiri ilə elmilik adı altında olduqca cəfəng iddialara inanan və bunları müdafiə etmək üçün həyatlarını qurban verənlər əgər bu iddialardan əl çəkməsələr, həqiqətlər tam mənası ilə üzə çıxdıqda və sehr pozulduqda alçalacaqlar. Belə ki, təqribən 60 yaşına qədər təkamülü müdafiə edən və ateist filosof olan, ancaq sonradan həqiqətləri görən Malkolm Maqeric təkamül nəzəriyyəsinin yaxın gələcəkdə düşəcəyi vəziyyəti belə açıqlayır:

*"Mən özüm təkamül nəzəriyyəsinin xüsusilə tətbiq edildiyi sahələrdə gələcəyin tarix kitablarındakı ən böyük yumor hədəflərindən biri olacağına inandım. Gələcək nəsillər bu qədər çürük və qeyri-müəyyən hipotezin inanılmaz saflıqla qəbul edilməsini heyrətlə qarşılayacaqlar". (Malcolm Muggeridge, The End of Christendom, Grand Rapids: Eerdmans, 1980, səh. 43)*

Bu gələcək uzaq deyil, əksinə, çox yaxın gələcəkdə insanlar "təsadüf"lərin ilah olmasının mümkünsüzlüyünü anlayacaqlar və təkamül nəzəriyyəsi dünya tarixinin ən böyük yalanı və ən güclü sehri kimi tərif ediləcəkdir. Bu güclü sehr böyük sürətlə dünyanın hər tərəfində insanlar üzərində təsirini itirməyə başlamışdır. Təkamül yalanının sirrinin öyrənən bir çox insan bu yalana necə aldandığını heyrət və təəccüblə qarşılayır.

*...Sənin bizə öyrətdiklərindən başqa bizdə heç bir bilik yoxdur! Həqiqətən, Sən bilənsən, müdriksən! (Bəqərə surəsi, 32)*

# ƏDƏBİYYAT

1. Mahmut Esat Bozkurt, "Yakınlarından Hatıralar", Sel nəşrləri, İstanbul 1955, səh.95

2. Milli Təhsil Nazirliyinin internet saytı, http://www.meb.gov.tr/belirligunler/10kasim/yazilar/vecizeler.htm

3. Afet İnan, "Medeni Bilgiler ve Atatürk'ün El Yazıları", səh. 21

4. Afet İnan, "Medeni Bilgiler ve Atatürk'ün El Yazıları", səh. 19

5. Enver Ziya Karal, "Atatürk'ten Düşünceler", 1956, səh. 45

6. Milli Təhsil Nazirliyinin internet saytı, http://www.meb.gov.tr/belirligunler/10kasim/ilkeleri/milliyet.htm

7. "Atatürk'ün 12 ocak 1914 tarihli mektubu", http://217.160.138.148/ www.add-dortmund.de/add-dortmundcontent/mektuplar.html

8. "Atatürk ve Gençlik", Milli Təhsil mətbəəsi, Ankara, 1987, səh. 13

9. "Atatürk'ün Söylev ve Demeçleri I", səh. 98

10. Afet İnan, T.T.K. Belleten, cild: XXXII, No: 128, 1968, səh. 557

11. "Atatürk'ün Söylev ve Demeçleri V", səh.114

12. Afet İnan, "Medeni Bilgiler ve Atatürk'ün El Yazıları", 1969, səh.20-21

13. "Nutuk", Atatürk araşdırma mərkəzi,1999, s.8-9

14. Ceyhun Atuf Kansu, "Ya Bağımsızlık, Ya Ölüm", Bilgi nəşrləri, Ankara 1997, səh. 68

15. "Atatürk'ün Söylev ve Demeçleri II", səh.16

16. Sabiha Gökçen, "Atatürk'ün İzinde Bir Ömür Böyle Geçti", səh.155

17. Utken Kocatürk, "Atatürk'ün Fikir ve Düşünceleri", Turhan Kitabevi, 1984, səh.342

18. http://www.kho.edu.tr/yayinlar/btym/yayinlistesi/yayinlar/Yayin2002/255

19. Milli Təhsil Nazirliyinin internet saytı, http://www.meb.gov.tr/belirligunler/10kasim/yazilar/vecizeler.htm

20. Milli Təhsil Nazirliyinin internet saytı,http://www.meb.gov.tr/belirligunler/10kasim/yazilar/vecizeler.htm

21. "Atatürk ve Gençlik", Milli Eğitim Basımevi, Ankara, 1987, səh. 12

22. "Atatürk Konferansları", Atatürk Kültür, Dil ve Tarih Yüksek Kurumu, Atatürk araşdırma mərkəzi, Divan nəşrləri, Ankara 2000, səh. 191

23. Milli Təhsil Nazirliyinin internet saytı, http://www.meb.gov.tr/belirligunler/10kasim/inkilaplari/kultur/milli_kultur.htm

24. “Atatürk ve Gençlik”, Milli Təhsil nəşrləri, Ankara, 1987, səh. 8

25. Afet İnan, “Atatürk Hakkında Hatıralar ve Belgeler”, səh. 309

26. “Atatürk ve Gençlik”, Milli Təhsil nəşrləri, Ankara, 1987, səh. 12

27. “Onuncu Yıl Nutku”, http://www.mkutup.gov.tr/ata10.html

28. “Atatürk ve Gençlik”, Milli Təhsil nəşrləri, Ankara, 1987, səh. 12

29. “Atatürk’ün Söylev ve Demeçleri III”, səh.68-7

30. “Atatürk ve Gençlik”, Milli Təhsil nəşrləri, Ankara 1987, səh. 61

31. http://www.meb.gov.tr/belirligunler/19mayis/vecizeler/ataturk_genclik.html

32. “Atatürk’ün Söylev ve Demeçleri I”, səh.15-16

33. http://www.kho.edu.tr/yayinlar/btym/yayinlistesi/yayinlar/Yayin1999/219-MilliBirlikpaneli.htm

34. Milli Təhsil Nazirliyinin internet saytı,
http://www.meb.gov.tr/belirligunler/10kasim/yazilar/vecizeler.htm

35. Selahaddin Çiller, “Atatürk İçin Diyorlar ki”, Varlık nəşrləri, Mayıs 1981, səh. 203

36. Milli Təhsil Nazirliyinin internet saytı,
http://www.meb.gov.tr/belirligunler/10kasim/yazilar/vecizeler.htm

37. Ahmet Mumcu, “Atatürk İlkeleri ve İnkilap Tarihi”, Cild 2, Ankara 1986

38. http://www.kho.edu.tr/yayinlar/btym/yayinlistesi/yayinlar/yayin2000/233

39. http://www.kho.edu.tr/yayinlar/btym/yayinlistesi/yayinlar/Yayin1999/219-MilliBirlikpaneli.htm

40. Asaf İlbay, “Yakınlarından Hatıralar”, səh. 102

41. Ahmet Gürbaş, “Atatürk ve Din Eğitimi”, Diyanet İşleri Başkanlığı Yayınları, səh.32

42. Nedim Senbai, “Atatürk”, A.Ü. Dil, Tarih, Coğrafya Yayınları, 1979, səh. 102

43. Yeni Hayat, May 1996

44. Cahit İmer, “Atatürk’ten Seçme Sözler”, səh. 135

45. Falih Fıfkı Atay, “Çankaya”, səh. 87

46. Sadi Borak, “Bilinmeyen Yönleriyle Atatürk”, səh. 88

47. Seyit Kemal Karaalioğlu, “Resimlerle Atatürk: Hayatı, İlkeleri, Devrimleri”, səh. 215

48. Kandemir, “Yakın Tarihimiz”, 3-cü cild, səh. 255

49. Mustafa Kemal Atatürk, “Söylev” I-II cild, səh. 310

50. Hasan Rıza Soyak, “Atatürk’ten Hatıralar”, səh. 459

51. Enver Ziya Karal, “Atatürk’ten Düşünceler”, səh. 147

52. Necati Çetinkaya, “Atatürk’ün Hayatı, Konuşmaları ve Yurt Gezileri”, səh. 227

53. Cahit İmer, “Atatürk’ten Seçme Sözler”, səh. 24

54. Cahit İmer, “Atatürk’ten Seçme Sözler”, səh. 108

55. Seyit Kemal Karaalioğlu, “Resimlerle Atatürk: Hayatı, İlkeleri, Devrimleri”, səh. 77

56. http://www.stanford.edu/~ofidaner/aboutme/koyenst.html

57. Necati Çetinkaya, “Atatürk’ün Hayatı, Konuşmaları ve Yurt Gezileri”, səh. 225

58. Seyit Kemal Karaalioğlu, “Resimlerle Atatürk: Hayatı, İlkeleri, Devrimleri”, səh. 61

59. Afet İnan, “Atatürk Hakkında Hatıralar ve Belgeler”, səh. 90

60. Niyazi Ahmet Banoğlu, “Nükte ve Fıkralarla Atatürk”, s. 87

61. Necati Çetinkaya, “Atatürk’ün Hayatı, Konuşmaları ve Yurt Gezileri”, səh. 30

62. Seyit Kemal Karaalioğlu, “Resimlerle Atatürk: Hayatı, İlkeleri, Devrimleri”, səh. 441

63. Hasan Rıza Soyak, “Atatürk’ten Hatıralar”, Yapı Kredi Yayınları, İstanbul,1973, səh. 512

64. Necati Çetinkaya, “Atatürk’ün Hayatı, Konuşmaları ve Yurt Gezileri”, səh. 191

65. Niyazi Ahmet Banoğlu, “Nükte ve Fıkralarla Atatürk”, səh. 504

66. Seyit Kemal Karaalioğlu, “Resimlerle Atatürk: Hayatı, İlkeleri, Devrimleri”, səh. 209

67. http://www.kho.edu.tr/yayinlar/btym/yayinlistesi/yayinlar/Yayin1999/219-MilliBirlikpaneli.htm

68. http://www.kho.edu.tr/yayinlar/btym/yayinlistesi/yayinlar/Yayin1999/219-MilliBirlikpaneli.htm

“Türklərin vətən sevgisi ilə dolu sinələri, düşmənlərin lənətlənmiş ehtiraslarına qarşı daim divar kimi yüksələcək” sözləri ilə vətənpərvərliyin əhəmiyyətinə diqqət çəkən Atatürk millətini sevən, millətinə sadiq və millətinə güvənən həqiqi Türk milliyyətçisidir.

Bu dərin və uca sevgi üçün lazım olduğunda öz canını da təhlükəyə atan Böyük Atatürkün bizə buraxdığı ən əhəmiyyətli miraslarından biri vətənpərvərlik və millət eşqidir. Bu böyük mirası onun bizdən gözlədiyi kimi qiymətləndirə bilmək, ölkəmizi onun bizə buraxdığı nöqtədən həmişə daha irəliyə apara bilmək, Türk millətini tarixinə yaraşar bir mövqeyə çatdıra bilmək üçün edilməli olan Atatürkün izindən getməkdir.

Bütün vətənpərvərlərin və həqiqi Türk milliyyətçilərinin özlərinə nümunə ala biləcəkləri ən gözəl nümunə, şübhəsiz ki, Atatürkdür. Atatürk isə “Mənim, Türk milləti üçün etmək istədiklərim və bacarmağa çalışdıqlarım ortadadır. Məndən sonra məni mənimsəmək istəyənlər, bu təməl mehvər üzərində ağıl və elmin rəhbərliyini qəbul etsələr, mənəvi varislərim olarlar” sözləri ilə bizə hədəfə çatacaq ən qısa yolu göstərir.

**ADNAN OKTAR**

## YAZIÇI HAQQINDA

Harun Yəhya təxəllüsündən istifadə edən Adnan Oktar 1956-cı ildə Ankarada doğulmuşdur. 1980-ci illərdən bu günə kimi imani, elmi və siyasi mövzularda bir çox əsər hazırladı. Bunlarla yanaşı, yazıçının təkamülçülərin saxtakarlıqlarını, iddialarının etibarsızlığını və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri var.

Yazıçının bütün işlərindəki ortaq hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allahın varlığı, birliyi və axirət kimi təməl imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin çürük təməllərini və azğın tətbiqlərini gözlər önünə sərməkdir. Necə ki, yazıçının bu günə qədər 76 fərqli dilə tərcümə edilən 300-dən çox əsəri, dünya səviyyəsində geniş oxucu kütləsi tərəfindən izlənilir.

Harun Yəhya külliyyatı, Allahın icazəsi ilə 21-ci əsrdə dünya insanlarını Quranda təsvir edilən hüzur və sülhə, düzgünlük və ədalətə, gözəllik və xoşbəxtliyə daşımağa vəsilə olacaq.